İsfəhan **Qaimiyyə** kompüter araşdırmalar mərkəzi

# Qaimiyyə





www.Ghaemiyeh.com
www.Ghaemiyeh.org
www.Ghaemiyeh.net
www.Ghaemiyeh.ir

# MÖMİNLƏRİN YOLU



**Ayətullahul-üzma hacı Yədullah Duzduzani Təbrizi cənablarının fətvalarına uyğun**

Tərcümə edən: Hacı Tərlan Seyfullah

بسم الله الرحمن الرحیم

# MÖMİNLƏRİN YOLU

:Müəllif

Ayətullahul–üzma hacı Yədullah Duzduzani Təbrizi

:Çap nəşriyyat

Helm

:Digital nəşriyyat

İsfəhan Qaimiyyə adına komputer araşdırmalar mərkəzi

# Mündəricat


Mündəricat ۵
MÖMİNLƏRİN YOLU ۹
KİTAB HAQQINDA ۹
İSLAM DİNİNİN VƏ ŞİƏ MƏZHƏBİNİN ƏSASLARI ۹
İŞARƏ ۹
BİRİNCİ ƏSAS: ALLAH TƏKDİR ۱۴
ALLAH-TAALANIN SİFƏTLƏRİ ۱۹
SUBUTİYYƏ SİFƏTLƏRİ ۱۹
SƏLBİYYƏ SİFƏTLƏRİ ۲۱
İKİNCİ ƏSAS: PEYĞƏMBƏRLİK ۲۳
ÜÇÜNCİ ƏSAS: MƏAD ۲۸
DÖRDÜNCÜ ƏSAS: ALLAH ADİLDİR ۳۲
BEŞİNCİ ƏSAS: İMAMƏT ۳۴
İŞARƏ ۳۴
BİRİNCİ İMAM ۳۶
İKİNCİ İMAM ۳۷
ÜÇÜNCÜ İMAM ۳۷
DÖRDÜNCÜ İMAM ۳۸
BEŞİNCİ İMAM ۳۹
ALTINCI İMAM ۴۰
YEDDİNCİ İMAM ۴۱
SƏKKİZİNCİ İMAM ۴۱
DOQQUZUNCU İMAM ۴۲
ONUNCU İMAM ۴۳

ON BİRİNCİ İMAM ---------- ۴۳
ON İKİNCİ İMAM ---------- ۴۴
FURUİDDİN ---------- ۴۹
İŞARƏ ---------- ۴۹
TƏQLİDİN HÖKMLƏRİ ---------- ۵۰
NAMAZ VƏ ONUN RƏKƏTLƏRİNİN SAYI ---------- ۵۱
NAMAZIN MÜQƏDDİMƏSİ ---------- ۵۲
DƏSTƏMAZ VƏ QÜSLÜN ŞƏRTLƏRİ ---------- ۵۶
DƏSTƏMAZ VƏ QÜSLÜ BATİL EDƏN ŞEYLƏR ---------- ۵۹
TƏYƏMMÜM ---------- ۶۲
TƏYƏMMÜMÜN QAYDASI ---------- ۶۶
TƏYƏMMÜMÜN SƏHİH OLDUĞU ŞEYLƏR ---------- ۶۷
GÜNDƏLİK VACİB NAMAZLARIN VAXTI ---------- ۶۸
MƏĞRİB VƏ İŞA NAMAZLARININ VAXTI ---------- ۶۸
SÜBH NAMAZININ VAXTI ---------- ۶۹
NƏCASƏTLƏR ---------- ۷۱
PAKLAYICILAR ---------- ۷۴
NƏCİS OLMUŞ ŞEYLƏRİ PAK ETMƏYİN YOLLARI ---------- ۸۰
NƏCASƏTİN SÜBUT OLUNMASI YOLLARI ---------- ۸۴
AZAN VƏ İQAMƏ ---------- ۸۶
NAMAZIN VACİBATI ---------- ۸۸
NAMAZIN RÜKNLƏRİ ---------- ۸۸
TƏKBİRƏTÜL-EHRAM ---------- ۸۹
NAMAZDA MÜSTƏHƏB OLAN ƏMƏLLƏR ---------- ۹۶
NAMAZI BATİL EDƏN ŞEYLƏR ---------- ۹۹
NAMAZIN ŞƏKKİYYATI ---------- ۱۰۲

TƏHARƏTDƏ OLAN ŞƏKK ١٠٢
NAMAZIN ƏMƏLLƏRİ VƏ RƏKƏTLƏRİNDƏ OLAN ŞƏKK ١٠٢
ETİNA OLUNMAYAN ŞƏKKLƏR ١٠٣
NAMAZI BATİL EDƏN ŞƏKKLƏR ١٠٥
NAMAZDA OLAN SƏHVLƏR ١١٠
SƏCDEYİ-SƏHVİN QAYDASI ١١٥
DİGƏR NAMAZLARIN HÖKMLƏRİ VƏ KEYFİYYƏTİ ١١٨
AYƏT NAMAZININ QILINMA QAYDASI ١١٩
MÜSTƏHƏB NAMAZLAR ١٢١
GÜNDƏLİK NAFİLƏ NAMAZLARININ VAXTLARI ١٢٢
ORUCUN HÖKMLƏRİ ١٢۴
ORUCU BATİL EDƏN ŞEYLƏR ١٢۶
AYIN ƏVVƏLİNİN SÜBUT OLMASI YOLLARI ١٢٩
FİTRƏ ZƏKATI ١٣١
XÜMSÜN HÖKMLƏRİ ١٣٣
XÜMSÜN SƏRF OLUNMA YERLƏRİ ١٣۵
ZƏKATIN HÖKMLƏRİ ١٣٨
BUĞDA, ARPA, XURMA VƏ KİŞMİŞİN ZƏKATI ١۴٠
ZƏKATIN SƏRF OLUNMA YERLƏRİ ١۴١
ZƏKATIN SƏRF OLMA MİQDARI ١۴٢
TƏVƏLLÜDÜ ١۴۴
İBTİDAİ TƏHSİLİ ١۴۴
ALİ TƏHSİLİ ١۴۵
FƏLSƏFƏ DƏRSİ ١۴۶
QURANA ƏLAQƏSİ ١۴۶
DİNİ TƏBLİĞLƏRİ ١۴٧

İCTİMAİ VƏ DİNİ XİDMƏTLƏRİ ---------- ۱۴۸
USTADLARI ---------- ۱۵۲
TƏDRİSİ ---------- ۱۵۳
Elmi məqamı (MƏRCƏİYYƏTİ) ---------- ۱۵۳
ƏSƏRLƏRİ ---------- ۱۵۳
MÜNDƏRİCAT ---------- ۱۵۶
Haqqında mərkəzi ---------- ۱۶۶

## MÖMİNLƏRİN YOLU

### KİTAB HAQQINDA

Kitabın adı........................Möminlərin yolu

Müəllif............................Ayətullahul-üzma hacı Yədullah Duzduzani Təbrizi

Tərcümə edən..................Hacı Tərlan Seyfullah

Naşir.....................................................Helm

Çap növbəsi.........................................Birinci

Tiraj.....................................................۳۰۰۰

Tarix.....................................................۲۰۱۴

Ünvan, Qum, Müəllim prospekti, küçə ۱۱, m ۳۷, ۰۲۵-۳۷۷۳ ۳۹ ۷۳



### İSLAM DİNİNİN VƏ ŞİƏ MƏZHƏBİNİN ƏSASLARI

### İŞARƏ

بِسْمِ اللَّهِ الرَّحْمَنِ الرَّحِيمِ

أَلْحَمْدُ لِلّهِ رَبِّ الْعَالَمِينَ وَالْصلاهُ وَالسلامُ عَلی خَیْرِخَلْقِهِ مُحَمدٍ وَآلِهِ الطاهِرِینَ وَ لَعْنَهُ اللهِ عَلی اَعْدائِهِمْ اَجْمَعینَ اِلی قیامِ یَوْمِ الدین

:Müqəddəs İslam dininin üç əsas sütunu vardır

.(Tövhid (Allah təkdir .١

.(Nübüvvət (Peyğəmbərlik .٢

.(Məad (ölümdən sonra dirilmək .٣

Bu üç əsli və əqidəni bütün müsəlmanlar qəbul edirlər. Bunlara üsulid-din deyilir. .Amma İmamiyyə məzhəbinin bunlardan əlavə iki əsl əqidəsi də vardır

.(Ədl (Allah ədalətlidir -١

.(İmamət (on iki imamın imamlığı -٢

.Deməli, dinin və şiə məzhəbinin beş əsas prinsipi (üsulid-dini) var

səh: ۵

## BİRİNCİ ƏSAS: ALLAH TƏKDİR

Bu bəhsdə məqsəd, bütün varlıq aləminin xaliqinin Allah olması və Onun tək olub şəriki :olmamasıdır. Bu mövzuda iki məsələni araşdırmaqla davam etdiririk

Birinci məsələ: Varlıq aləminin xaliqini sübut etmək və bu varlıq dünyası təsadüfən yaranmayıb. Bütün bu məsələləri isbat etmək üçün müxtəlif dəlillər vardır. Onlardan :bəzilərinə işarə edirik

:Birinci dəlil

Varlıq aləmində olan bütün mövcudlar məhv olub aradan getməkdədir. Butün bu hadisələri özümüz də müşahidə edirik. Bunlarla da aydın olur ki, hər bir yaranmış varlıq öz varlığını başqa birisindən alır və onun vasitəsilə varlığını saxlayır. Yaranmışların heç biri özü-özlüyündə varlıq qabiliyyətinə malik deyillər. Çünki əgər onların zatən varlıq aləmində qalmaq qüdrətləri olsaydı heç vaxt məhv olmazdılar. Beləliklə, əgər hər hansı varlıq və vücud məhv olmaq və aradan getməyi qəbul edirsə onun yaradanı var və bu yaradan həmin Allah-taaladır. Allah-taala Özü isə aradan getməz və əbədidir. :Fikrimizi daha aydın etmək üçün aşağıdakı misala diqqət edin

Məsələn qarşımızda bir neçə güzgü var və onlardan ətrafa nur saçılır. Bu nur şüalarna uzaqdan tamaşa etdikdə nəhayətdə, aydın olur ki, nurların hamısı güzgünün özündən yox, bəlkə də başqa yerdəndir. Ona görə ki, güzgü özündən heç bir nur vermir. Həmin səbəbdən insan bu nurların mənşəyini güzgülərin özündə axtarmır. Nurlar güzgüdən xaricdə, günəş, ay, çıraq və ya alov kimi yerlərdə axtarılır. Çünki güzgü belə şeylərdən .nur ala bilər

Nurun özünün zatına qayıtdığı və əsl kökünə müraciət etdiyi kimi insanın varlığının və vücudunun da öz kökü və qayıdış yeri vardır. İnsan da həmin kökdən mənşələnir və oradan ayrıla bilməz. İnsanın o kökdən müstəqil şəkildə olması mümkün deyil. Həmin :kök və mənşə Allah-taaladır. Allah-taala Qurani-kərimdə belə buyurur

إِنَّ فِي خَلْقِ السَّمَاوَاتِ وَ الْأَرْضِ وَ اخْتِلَافِ اللَّيْلِ وَ النَّهَارِ لَآيَاتٍ لِّأُوْلِي الْأَلْبَاب

Həqiqətən, göylərin və yerin yaradılmasında, gecə ilə gündüzün bir-birini əvəz etməsində (bir-birinin ardınca gəlib-getməsində) ağıl sahibləri

üçün (Allahın varlığını, qüdrətini, kamalını və əzəmətini sübut edən açıq) dəlillər (vardır.(١)

Hər bir düşüncəli insan gözəl başa düşür ki, bu geniş dünya, dənizlər, okeyanlar ulduzlar, ay, günəş, planetlər, təəccüb doğuran heyvanlar, ağaclar, növbənöv bitkilər .öz-özünə yaranmayıb və bunları yaradan vardır. Bunları yaradana Allah deyirik

:İkinci dəlil

:Allah təkdir və şəriki yoxdur. Burada iki dəlil qeyd edirik

Aləmdəki nizam-intizam -١

Bu məsələnin dəlili: Əgər bu məsələdə (varlığın yaradılışında) bir neçə tanrı fərz olunub hər birisi digərindən ehtiyacsız təsəvvür olunsaydı sözsüz ki, onların məqsədləri və iradələri bəzi yerlərdə bir-birinin ziddinə olardı. Bununla da kainatın nizam-intizamı pozular, yer və göylərdə fitnə-fəsad olardı. Bu barədə Allah-taala Qurani-kərimdə :buyurur

لَوْكَانَ فِيهِمَاءَالِهَهٌإِلَّا اللَّهُ لَفَسَدَتَافَسُبْحَانَ اللَّهِ رَبِّ اِلْعَرْشِ عَمَّايَصِفُونَ



---

.Ali İmran surəsi, ayə ١٩٠ -١

Əgər (yerdə və göydə) Allahdan başqa tanrılar olsa idi, onların ikisi də (müvazinətdən“ çıxıb) fəsada uğrayardı. Ərşin sahibi olan Allah (müşriklərin Ona) aid etdikləri (sifətlərdən tamamilə uzaqdır!”.(١)

Bu dəlilin xülasəsi bundan ibarətdir: həqiqətən bu kainatın dəqiq şəkildə nizam-intizamı vardır. Kainatın bütün xırdalıqları və zərrəcikləri bir-biri ilə möhkəm bağlıdır. Bugünki müasir elm də varlıq aləminin dəqiqlik və nizam-intizamını təsdiq edir. Belə olan halda bu varlığın xaliqi də tək, alim və hikmətli olmalıdır. Ağıl qəbul etmir bu varlığın mənşəyi təsadüfü olsun. Halbuki, ağıl bütün bu zahiri sadə hadisələri və ya bir-biri ilə bağlı hadisələrin dərkindən sonra qəbul etmir ki, bir-biri ilə bağlı bütün müxtəlif hərəkətlər və hadisələr təsadüf nəticəsindədir. Bəs, ağıl belə bir şeyi qəbul etmirsə, necə təsəvvür etmək olar ki, bütün bu möhkəm və təəccüb doğuran nizam-intizamın !?və varlığın alim və hikmətli xaliqi olmasın və təsadüf nəticəsində yaransın

:Allah-taala buyurur



---

.Ənbiya surəsi, ayə ٢٢ -١

سَنُرِيهِمْ آيَاتِنَا فِی الْآفَاقِ وَفِی أَنفُسِهِمْ حَتَّى يَتَبَيَّنَ لَهُمْ أَنَّهُ الْحَقُّ أَوَلَمْ يَكْفِ بِرَبِّكَ أَنَّهُ عَلَى كُلِّ شَیْءٍ شَهِيدٌ

Tezliklə, Biz, onlara dünyada və nəfslərində Öz nişanələrimizi göstərərik ki, Onun“ haqq olması onlar üçün aşkar olsun. Məgər Allahın hər şeyə şahid olması sizə kifayət (deyilmi?!”(١)

Ən gözəl və sadə dəlil həzrət Əlinin (əleyhis-səlam) imam Həsənə (əleyhis-səlam)-٢ :vəsiyyətidir. O həzrət belə buyurur

قال علی (ع) واعلم يا بنی انه لو كان لربک شريک لأتتک رسله ولرأيت آثار ملكه وسلطانه ولعرفت افعاله وصفاته ولكنه اله واحد كما وصف نفسه

Oğlum! bil ki, Allahının şəriki olsaydı onun elçiləri sənin yanına gələrdi onun mülk və qüdrətinin əlamətlərini görərdin, feillərini və sifətlərini tanıyardın. Amma O özünü vəsf (etdiyi kimi tək və şəriksiz olan Allahdır.(٢



---

.Fussilət surəsi, ayə ٥٣ -١

.Nəhcul-bəlağə, ٣١-ci məktub -٢

## ALLAH–TAALANIN SİFƏTLƏRİ

:Allah-taalanın sifətləri iki hissədən ibarətdir

;(Subutiyyə sifətləri (Sifati subutiyyə-١

;(Səlbiyyə sifətləri (Sifati səlbiyyə-٢

:Subutiyyə sifətləri (Sifati subutiyyə) də öz növbəsində iki hissəyə bölünür

;Zati sifətlər-١

;Feli sifətlər-٢

Zati sifətlər; Allah-taala bu sifətlərlə vəsf olunur və bu sifətlər Allah-taalanın zatının :özüdür və onun vücudundan ayrılmırlar. Onların hamısının mənşəyi beş sifətdir

;Qüdrət

;Elm

;Həyat

;Əzəli olması

;Əbədi olması

## SUBUTİYYƏ SİFƏTLƏRİ

Qüdrət; Allah-taala qüdrət sahibidir. Hər işi məsləhət bilsə yerinə yetirir və heç bir-١ .işin müqabilində aciz deyil. Hər hansı bir işi etməyə də məcbur deyil

Elm; Allah-taala alimdir. Kainatda olan bütün mövcudlara elmi vardır, heç bir şey də-٢ .ondan gizli deyil. Hətta bəndələrinin fikir və niyyətlərini də bilir

لَا يَعْزُبُ عَنْهُ مِثْقَالُ ذَرَّةٍ فِي السَّمَاوَاتِ وَ لَا فِي الْأَرْضِ

(Nə göylərdə, nə də yerdə zərrə qədər bir şey Ondan gizli qalmaz.(١)

Həyat; Allah-taala diridir. Yoxluq onun zatına yol tapa bilməz. Çünki diri olmayan-٣ .varlıq yaranışın mənşəyi ola bilməz. O həyatı varlığa bəxş edib, gərək özü də diri olsun

və ٥-Əzəli və Əbədi olması; yəni Allah-taala həmişə olub elə bir zaman təsəvvür ۴ etmək olmaz ki, o vaxt O olmasın. Həmişə olacaq və yoxluq Onun vücuduna yol tapa .bilməz. Bu iki sifət vücudun vacib lazimələrindəndir

Amma Allah eşidəndir; yəni eşidilə bilən hər şeyə agahdır. Allah görəndir; yəni görünə bilən hər şeyə agahdır. Gərək bunu diqqətinizə çatdıraq ki, bu iki sifət müstəqil sifət .deyil bunlar elm sifətinə söykənirlər



---

.Səba surəsi, ayə ٣ -١

Sübutiyyə sifətlərinin ikinci bölməsi feliyyə sifətləridir. Allah-taala bu sifətlərlə vəsflənir amma onlar Allah-taalanın zatından deyil. Bu sifətlər Allah-taalanın feillərinin vəsfidir. :Onlardan bir neçəsini qeyd edirik

.Murid; yəni işlərini iradə üzündən edir. Məsələn: od yandırmaqda iradəsizdir-١

.Mutəkəllim; yəni həqiqətləri və məqsədini digərlərinə çatdıra bilir-٢

.Raziq; yəni Allah-taala varlığın ruzilərini onlara öz qüdrəti ilə çatdırır-٣

.Xaliq; yəni Allah-taala göyləri və yeri və onlarda olan varlıqları xəlq edib-۴

Allah-taalanın bundan başqa da sifətləri vardır və onları feliyyə sifətlərindən hesab etmək olar. Amma onların hamısını bu kiçik kitabçada qeyd etmək mümkün deyil. Allah-taalanın bu sifətlərə malik olması üçün dəlil və sübut budur ki, bunlar kəmali .sifətlərdir və Allah-taala da bütün kəmali sifətlərə malikdir

## SƏLBİYYƏ SİFƏTLƏRİ

Səlbiyyə sifətləri dedikdə Allah-taalaya layiq olmayan sifətlər nəzərdə tutulur. Gərək -Allah

:taalanın zatının o sifətlərdən uzaq olduğunu biləsən. Onlar aşağıdakılardan ibarətdir

Mürəkkəb deyil; çünki hər bir mürəkkəb, üzvlərə ehtiyac duyur, ehtiyacı olan-١ .vacibul-vucud ola bilməz

Cisim və ərəz(١) deyil; çünki hər bir cisim və ərəzin məkana ehtiyacı var onsuz da-٢ .vücuda gəlmir. Allah-taala məkanları yaratdığına görə onlara ehtiyacı yoxdur

Görünəsi deyil; çünki yalnız cisim görünə bilər, Allah cisim deyil, deməli (dünya və-٣ .axirətdə) görünəsi deyil

Dəyişiləsi deyil; cavanlıq, qocalıq, xəstəlik, sağalmaq, gücləşmək və zəifləmək Onun-۴ zatına yol tapa bilməz. Çünki bu cür şeylər cismə aiddir. Allah isə cisim deyil, deməli .belə şeylər Allahda vücuda gələ bilməz

Şərik və köməkçisi yoxdur; şəriklik ehtiyacın olmasına və ya gücsüzlüyə görədir.-۵ .Bunların heç biri Onun zatına yol tapa bilməz

.Ehtiyaclı deyil; varlıq və kainatı idarə etməkdə yaratdıqlarına ehtiyacı yoxdur-۶



---

.Mövcudluğunda digərinə ehtiyacı yoxdur -١

## İKİNCİ ƏSAS: PEYĞƏMBƏRLİK

Həqiqətən bu dünya insanı axirətə aparan körpü qərar verilmişdir. Həmin cəhətdən insanın bu dünyadakı öz hərəkət və davranışlarına görə axirət dünyasında mükafat və cəzası vardır. O səbəbdən Allah-taala insana düzgün yolu göstərmiş və xeyir işləri ona tanıtdırmışdır. Bütün bu hidayət yolları insanlar arasında saleh və bu ağır İlahi vəzifənin ümmətlər arasında məsuliyyətini öhdələrinə ala bilən şəxslər vasitəsilə .insanlara çatdırılmışdır. Belə şəxslər peyğəmbər adlanırlar

Allah-taala insanı və kainatı əbəs yerə xəlq etməmişdir. Qurani-kərimdə də Allah-:taala bu məsələyə təkid etmişdir

وَمَا خَلَقْنَا السَّمَاوَاتِ وَالْأَرْضَ وَمَا بَيْنَهُمَا لَاعِبِينَ مَا خَلَقْنَاهُمَا إِلَّا بِالْحَقِّ وَلَكِنَّ أَكْثَرَهُمْ لَا يَعْلَمُونَ

Biz göyləri, yeri və onların arasında olanları oyun-oyuncaq (əyləncə) yaratmadıq! Biz“ onları yalnız haqq olaraq yaratdıq, lakin onların (insanların) əksəriyyəti (bunu) .(bilməz!”(١



---

.Duxan surəsi, ayə ٣٨-٣٩ -١

Peyğəmbər, ümmətlər arasında İlahi risalət və təlimləri öz öhdəsinə alan şəxsdir. Allah-taala insanlara peyğəmbərlər göndərmişdir. Hədislərdən belə başa düşülür ki, Allah-taala insanları hidayət etmək üçün yüz iyirmi dörd min peyğəmbər göndərmişdir. Onların birincisi həzrət Adəm (ə) sonuncusu isə həzrət Məhəmməd ibn Abdullahdir (səlləllahu ələyhi və alihi və səlləm). Onların arasında beş nəfər ulul-əzm .peyğəmbərdir. Allah-taala Qurani-kərimdə bunu zikr edir

فَاصْبِرْ كَما صَبَرَ أُولُوا الْعَزْمِ مِنَ الرُّسُلِ

Ya Rəsulum!) Peyğəmbərlərdən əzm (və səbat, şəriət) sahibləri olanların səbr etdiyi ) kimi, sən də (Allah yolunda çətinliklərə, əziyyətlərə) səbr et.(١) Ulul-əzm :peyğəmbərlərin adları aşağıdakılardan ibarətdir

Həzrət Nuh (ələyhis-səlam), İbrahim (ələyhis-səlam) Musa ibn İmran (ələyhis-səlam), İsa (ələyhis-səlam) və nəhayət böyük İslam dinini yaymış və bütün insanlara Quranı gətirmiş həzrət Məhəmməd ibn Abdullah ibn Əbdul-Müttəllibdir (səlləllahu ələyhi və alihi və səlləm). Məhəmməd peyğəmbər (səlləllahu ələyhi



---

.Əhqaf surəsi, ayə٣۵ -١

və alihi və səlləm) sonuncu peyğəmbər olduğuna görə O həzrətdən sonra heç bir peyğəmbər gəlməyəcəkdir. O həzrət bütün İlahi elçilərin sonuncusu olduğuna görə Ondan sonra iddia olunmuş bütün hər hansı peyğəmbərlik iddiası yersiz və bu iddianı edən yalançı sayılır. Qurani-kərim bu barədə buyurur:

مَّا كَانَ مُحَمَّدٌ أَبَا أَحَدٍ مِّن رِّجَالِكُمْ وَلَكِن رَّسُولَ اللَّهِ وَخَاتَمَ النَّبِيِّينَ وَكَانَ اللَّهُ بِكُلِّ شَيْءٍ عَلِيماً

“Məhəmməd aranızdakı kişilərdən heç birinin atası deyildir. (Oğul odur ki, kişinin öz belindən əmələ gələ!) Lakin o, Allahın Rəsulu (elçisi) və peyğəmbərlərin sonuncusudur. Allah hər şeyi biləndir!”(١).

Onun sonuncu peyğəmbər olması dinin zəruri məsələlərindəndir. Onun peyğəmbərliyini sübut edən dəlillər çoxdur amma kitabın həcmini nəzərə alıb biz birini burada qeyd edirik.

Peyğəmbərin ən böyük möcüzəsi Qurani-kərimdir. Həzrət peyğəmbər dərs oxumamışdı və heç kimdən yazmaq və oxumaq öyrənməmişdi O,



---

١- Əhzab surəsi, ayə ۴٠.

bir kitab gətirdi heç kim onun mislini gətirə bilməmişdir. Allah-taala dəfələrlə Qurani-kərimdə bəşəriyyəti Quranın misli və oxşarını gətirməyə dəvət edibdir, amma bəşər .onun mislini gətirməyə acizdir

وَ إِن كُنتُمْ فِي رَيْبٍ مِّمَّا نَزَّلْنَا عَلَىٰ عَبْدِنَا فَأْتُواْ بِسُورَةٍ مِّن مِّثْلِهِ وَ ادْعُواْ شُهَدَاءَكُم مِّن دُونِ اللَّهِ إِن كُنتُمْ صَادِقِينَ فَإِن لَّمْ تَفْعَلُواْ وَ لَن تَفْعَلُواْ فَاتَّقُواْ النَّارَ الَّتِي وَقُودُهَا النَّاسُ وَ الْحِجَارَةُ أُعِدَّتْ لِلْكَافِرِين

Əgər bəndəmizə (Muhəmmədə) nazil etdiyimizə (Qurana) şəkkiniz varsa, siz də ona bənzər bir surə gətirin və əgər ("bu, bəşər kəlamıdır" sözünü) doğru deyirsinizsə, onda Allahdan savayı (bütün) şahidlərinizi (bütlərinizi, şair və alimlərinizi bu işdə köməyə) çağırın! Madam ki, belə bir işi bacarmırsınız, heç bacara da bilməzsiniz, o halda kafirlər üçün hazırlanmış, yanacağı (günahkar) insanlardan və kibrit daşlarından ibarət olan (oddan (Cəhənnəmdən) həzər edin!(١



---

.Bəqərə surəsi, ayə ٢٣-٢٤ -١

أَمْ يَقُولُونَ افْتَراهُ قُلْ فَأْتُوا بِسُورَةٍ مِثْلِهِ وَ ادْعُوا مَنِ اسْتَطَعْتُمْ مِنْ دُونِ اللَّهِ إِنْ كُنْتُمْ صادِقِينَ

Yoxsa: “(Peyğəmbər) onu özündən uydurdu!” -deyirlər. De: “Əgər doğru deyirsinizsə, ona (Qurana) bənzər bir surə gətirin və Allahdan başqa, kimə gücünüz çatırsa, onu da ((köməyə) çağırın!”(۱)

أَمْ يَقُولُونَ افْتَراهُ قُلْ فَأْتُوا بِعَشْرِ سُوَرٍ مِثْلِهِ مُفْتَرَياتٍ وَ ادْعُوا مَنِ اسْتَطَعْتُمْ مِنْ دُونِ اللَّهِ إِنْ كُنْتُمْ صادِقِينَ

Yoxsa (müşriklər): “Onu (Quranı) özündən uydurdu!-deyirlər. (Onlara) de: “Əgər doğru deyirsinizsə, onun kimi özünüzdən on surə uydurub gətirin və (bu işdə) Allahdan (başqa, kimi bacarırsınızsa, onu da köməyə çağırın. (۲)

Həzrət peyğəmbərin (səlləllahu ələyhi və alihi və səlləm) çoxlu möcüzəsi olub və o möcüzələr tarix və hədis kitablarında qeyd olunmuşdur. Biz burada Qurani-kərimə .işarə etməklə kifayətlənirik



---

.Yunis surəsi, ayə ۳۸ -۱

.Hud surəsi, ayə ۱۳ -۲

## ÜÇÜNCİ ƏSAS: MƏAD

Məadın mənası budur ki, Allah-taala bütün insanları həyatda yaşayıb öldüklərindən sonra yenidən dirildəcək və onların əməllərinin hesab-kitabı olacaqdır. Hər kəs özü mükafatını alacaq. Bir dəstə Cənnətdə olub nemətlərdən bəhrələnər, bir dəstə isə əməllərinin üzündən Cəhənnəmə düşüb əzaba düçar olarlar. Bütün İlahi Peyğəmbərlər xəbər veriblər ki, insanın həyatı ölümü ilə sona çatmır. Bu dünyadan sonra digər bir dünya da mövcuddur. İnsan orada əməllərinin nəticəsini görəcəkdir. Ölümdən sonra digər bir dünyanın və məadın olması bütün səmavi dinlərin zəruri .etiqadlarındandır

.Məad bölməsində gərək bir neçə şeyə etiqad bəslənilsin

Ölümdən sonra yaxşı insanların ruhu bərzəx cənnətində olub nemətlərdən-١ bəhrələnər və pis əməllərinin sahibıəri isə bərzəx cəhənnəminə düşüb qiyamətə qədər .əzaba düçar olarlar

Ölümdən sonra dirilmənin cismani olmasına etiqadı olmalıdır. Qurani-kərimdə çoxlu-٢ .ayələr məadın cismani olmasına işarə edir

أَ يحْسَبُ الْانسَانُ أَلَّن نجَّمَعَ عِظَامَهُ بَلىَ قَادِرِينَ عَلىَ أَن نُّسَوِّى بَنَانَهُ

Məgər insan elə güman edir ki, (qiyamət günü) onun sümüklərini bir yerə yığa bilməyəcəyik?! Bəli, Biz onun barmaqlarını da (barmaq sümüklərini də, barmaqlarının (uclarını da) düzəltməyə qadirik! (۱)

وَنُفِخَ فِی الصُّورِ فَصَعِقَ مَن فِی السَّمَاوَاتِ وَمَن فِی الْأَرْضِ إِلَّا مَن شَاء اللَّهُ ثُمَّ نُفِخَ فِیهِ أُخْرَى فَإِذَا هُم قِیَامٌ یَنظُرُونَ

Sur (birinci dəfə) çalınacaq, Allahın göylərdə və yerdə olan istədiyi kimsələrdən başqa,“ dərhal hamı yıxılıb öləcək. Sonra birdaha çalınan kimi onlar (qəbirlərindən) qalxıb ((Allahın əmrinə) müntəzir olacaqlar!» (۲)

İnsanların ölümdən sonra yenidən dirilməsində şəkk-şübhə yoxdur. Allah-taala Quranda bu barədə təkəbbürlü kafirlərə işarə etmişdir, necə ki, əvvəldə Allah-taala :heçnədən insanı yaratdı öldükdən sonra da təzədən dirildəcək. Quran buyurur



---

۱- ۳-۴ Qiyamət surəsi, ayə.

۲- ۶۸ Zümər surəsi, ayə.

وَضَرَبَ لَنَا مَثَلًا وَنَسِيَ خَلْقَهُ قَالَ مَنْ يُحْيِي الْعِظَامَ وَهِيَ رَمِيمٌ قُلْ يُحْيِيهَا الَّذِي أَنشَأَهَا أَوَّلَ مَرَّةٍ وَهُوَ بِكُلِّ خَلْقٍ عَلِيمٌ

Öz yaradılışını unudub: "Çürümüş sümükləri kim diriltə bilər?!" – deyə, hələ Bizə bir“ məsəl də çəkdi. (Ya Peyğəmbər!) De: "Onları ilk dəfə yoxdan yaradan diriltəcəkdir. O, (hər bir məxluqu (yaradılışından əvvəl də, sonra da) çox gözəl tanıyandır!”(۱)

Hər bir müsəlmana vacibdir ki, öz həyatında xeyir əməllərdən bəhrələnsin və Allahın itaətində olub günahdan çəkinsin. Bununla da Allah-taalanın razılığını və mərhəmətini .əldə etsin

رَّبَّنَا إِنَّنَا سَمِعْنَا مُنَادِياً يُنَادِي لِلإِيمَانِ أَنْ آمِنُواْ بِرَبِّكُمْ فَآمَنَّا رَبَّنَا فَاغْفِرْ لَنَا ذُنُوبَنَا وَكَفِّرْ عَنَّا سَيِّئَاتِنَا وَتَوَفَّنَا مَعَ الأبْرَارِ رَبَّنَا وَآتِنَا مَا وَعَدتَّنَا عَلَى رُسُلِكَ وَلاَ تُخْزِنَا يَوْمَ الْقِيَامَةِ إِنَّكَ لاَ تُخْلِفُ الْمِيعَادَ

Ey Rəbbimiz! Həqiqətən, biz: "Rəbbinizə inanın!" – deyə imana tərəf çağıran bir“ kimsənin çağırışını eşidib Sənə iman gətirdik. Ey Rəbbimiz! İndi günahlarımızı bizə bağışla, təqsirlərimizdən keç (böyük günahlarımızı bağışla, kiçik



---

.Yasin surəsi, ayə ۷۸-۷۹ -۱

günahlarımızın üstünü ört) və canımızı yaxşı əməl sahibləri ilə bir yerdə al! Ey Rəbbimiz! Öz peyğəmbərlərinin vasitəsi ilə bizə vəd etdiklərini ver və qiyamət (günündə bizi rüsvay etmə! Əlbəttə, Sən Öz vədinə xilaf çıxmazsan!"(۱)

Cənnət və onun nemətlərinin cəhənnəm və onun çətinliklərinin ədalət üzündən-۳ .olmasına etiqad olmalıdır



---

.Ali-İmran surəsi, ayə ۱۹۴-۱۹۵ -۱

## DÖRDÜNCÜ ƏSAS: ALLAH ADİLDİR

Məna budur ki, Allahın kiməsə zülm etməsi qeyri-mümkündür. Çünki adillik və ədalət sifəti xeyir sifətlərindəndir. Amma zülm, şərr xüsusiyyətlərindəndir. Zülmə ədaləti icra edə bilməyən zəif və şərr adamlardan başqa birisi əl atmaz. Halbuki, Allah-taala bütün xeyirlərin mənşəyi və məxluqatın hamısına feyz verən və onların hamısından ehtiyacsızdır. Allahın zülm etməyə heç bir ehtiyacı yoxdur. Necə ki, bu məsələyə Quran :işarə edir

يا أَيُّهَا النَّاسُ أَنتُمُ الْفُقَرَاء إِلَى اللَّهِ وَاللَّهُ هُوَ الْغَنِيُّ الْحَمِيدُ

Ey insanlar! Siz Allaha möhtacsınız. Allah isə (heç nəyə, o cümlədən sizin ibadətinizə)“ (möhtac deyildir. O (hər cür) şükrə (tərifə) layiqdir! (Onun bütün işləri bəyənilləndir!)”(١)

:Başqa ayədə buyurur

إِنَّ اللَّهَ لا يَظْلِمُ مِثْقالَ ذَرَّةٍ وَ إِنْ تَكُ حَسَنَةً يُضاعِفْها وَ يُؤْتِ مِنْ لَدُنْهُ أَجْراً عَظيماً



---

.Fatir surəsi, ayə ١٥ -١

Həqiqətən, Allah (heç kəsə) zərrə qədər zülm etməz. Əgər yaxşı bir əməl baş verərsə,“ onu (onun savabını) ikiqat artırar və öz tərəfindən də (bu əməlin sahibinə) böyük (mükafat verər!”(١)

إِنَّ اللَّهَ لا يَظْلِمُ النَّاسَ شَيْئاً وَ لكِنَّ النَّاسَ أَنْفُسَهُمْ يَظْلِمُونَ

Həqiqətən, Allah insanlara zərrəcə zülm etməz, lakin insanlar özləri özlərinə zülm (edərlər!(٢)

Allah-taala Peyğəmbərlərinin vasitəsi ilə insanları zülm etməkdən çəkindirir və bu işin pis və xoşa gəlməz olduğunu deyir. Deməli Allah-taala özü heç vaxt xoşa gəlməz və .pis iş etməz



---

.Nisa surəsi, ayə ۴٠ -١

.Yunis surəsi, ayə ۴۴ -٢

## BEŞİNCİ ƏSAS: İMAMƏT

### İŞARƏ

Allah-taala bəşəriyyəti hidayət edib zülm və cəhalətdən nicat vermək üçün peyğəmbərlər göndərdi. Şəriət və qanunları qoruyub saxlamaq üçün isə imamları göndərdi. İmamların olmağı şiələrin nəzərinə əsasən dinin sütunu və əsasıdır. :İmamətin bir neçə şərti vardır

İmamət İlahi bir məqam və mənsəbdir, Allah bu məqam və mənsəbi istədiyi-١ .kimsəyə verər

Peyğəmbəri Allah təyin etdiyi kimi, İmamı da Allah təyin edir. İmamət, Allah elçisinin-٢ İslam ümməti üzərində dini və dünyəvi xilafəti deməkdir. İmam, Allahın izni ilə İslam Peyğəmbəri (səlləllahu ələyhi və alihi və səlləm) tərəfindən təyin olunmalıdır. Ona görə ki, belə bir məsuliyyəti qəbul edəni Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm) .daha yaxşı tanıyır. Deməli imamı insanlar təyin edə bilməz

.İmam gərək məsum olsun və bütün böyük və kiçik günahlardan uzaq olsun -٣

Məsum imam peyğəmbərin (peyğəmbərlik məqamından başqa) bütün fəzilətlərini-۴ özündə toplayır və imamın vəzifəsi budur ki, peyğəmbərin gətirdiyi şəriəti qoruyub saxlasın. Həmçinin

səh: ۲۶

.insanları hidayət edib onların dini və dünyəvi işlərini islah etsin

Həmçinin İslam Peyğəmbərin (səlləllahu ələyhi və alihi və səlləm) peyğəmbərliyə seçiləndə Allah-taala tərəfindən öz canişinlərini də təkidlə elan etməsi məlum olur. Başqa yerdə İslam Peyğəmbərinin (səlləllahu ələyhi və alihi və səlləm) öz canişinlərinin adlarını da deməsi tarixdə məlumdır. Onlar, İslam Peyğəmbərinin (səlləllahu ələyhi və alihi və səlləm) Əhli-beyti (ələyhimus-səlam) və on iki nəfərdən ibarətdirlər. Birincisi imam Əli ibn Əbi Talib (ələyhis-səlam) və sonuncusu imam Məhdidir (Allah zühurunu .(tezləşdirsin

İmamiyyə məzhəbinin nəzəri budur ki, Allah-taala Peyğəmbərə göstəriş vermişdir ki, həzrət Əlini (ələyhis-səlam) öz canişini seçib və bunu aşkar şəkildə camaata elan etsin. :Bu haqda Qurani-kərimdə deyilir

يَأَيهَُّا الرَّسُولُ بَلِّغْ مَا أُنزِلَ إِلَيْكَ مِن رَّبِّكَ وَ إِن لَّمْ تَفْعَلْ فَمَا بَلَّغْتَ رِسَالَتَهُ وَ اللَّهُ يَعْصِمُكَ مِنَ النَّاسِ إِنَّ اللَّهَ لَا يهَْدِى الْقَوْمَ الْكَافِرِين

Ya Peyğəmbər! Rəbbin tərəfindən sənə nazil edilənì təbliğ et. Əgər (bunu) etməsən, (Allahın) risalətini (sənə həvalə edilən elçilik, peyğəmbərlik

vəzifəsini) yerinə yetirmiş olmazsan. Allah səni insanlardan qoruyacaq. Həqiqətən, (Allah kafir camaatı düz yola yönəltməz! (١)

Həzrət Peyğəmbər sonuncu həcdən qayıdanda Qədir Xum adlı yerdə Allah-taala Peyğəmbərə göstəriş verdi həzrət Əlini (ələyhis-səlam) öz canişini və imam seçib və .bunu aşkar şəkildə camaata elan etsin

Şiə və əhli sünnə məzhəblərinin mənbələrinə əsasən müqəddəs İslam dininin İmamları on iki nəfərdən ibarətdir. Həzrət Peyğəmbər (səlləllahu ələyhi və alihi və .səlləm) onların adlarını qeyd etmişdir. Onların adları aşağıdakılardan ibarətdir

## BİRİNCİ İMAM

(ƏLİ İBN ƏBİ TALİB (ələyhis-səlam

.Atası: Əbu Talibdir

.Anası: Fatimə Əsəd qızıdır

Həzrət Əli (ələyhis-səlam) «Amul-fil»-in(٢) otuzuncu ili rəcəb ayının on üçü Kəbə evində dünyaya göz açmışdır. Hicrətin qırxıncı ili ramazan ayının



---

١- Maidə surəsi, ayə ۶٧.

٢- Fil ili.

iyirmi birində Kufə şəhərində şəhadətə qovuşmuşdur. Müqəddəs məzarı Nəcəf .şəhərindədir

### İKİNCİ İMAM

HƏSƏN İBN ƏLİ İBN ƏBİ TALİB

(əleyhis-səlam)

.(Atası: İmam Əlidir (əleyhis-səlam

Anası: İslam Peyğəmbərinin (səlləllahu əleyhi və alihi və səlləm) qızı və qadınların .(üstünü Fatimədir (səlamullahi əleyha

Hicrətin üçüncü ili ramazan ayının on beşində Mədinə şəhərində dünyaya gəlib. Hicrətin ۵۰-ci ilində səfər ayının iyirmi səkkizi Əbu Süfyanın oğlu Müaviyənin hiyləsi və Əşəsin qızı Cudənin əli ilə zəhərlənib şəhid olur. Mədinədə Bəqi qəbiristanlığında dəfn .olunub

### ÜÇÜNCÜ İMAM

HÜSEYN İBN ƏLİ İBN ƏBİ TALİB

(əleyhis-səlam)

.(Atası: İmam Əlidir (əleyhis-səlam

səh: ۲۹

Anası: İslam Peyğəmbərinin (səlləllahu əleyhi və alihi və səlləm) qızı və qadınların .(üstünü Fatimədir (səlamullahi əleyha

O həzrət hicrətin dördüncü ilində şəban ayının üçü Mədinədə doğulmuşdur. Hicrətin ٦١-ci ilində ٧٢ nəfər əshabı, Əhli-beyti (əleyhis-səlam) ilə məhərrəm ayının onuncu .(aşura) günü Kərbəla səhrasında şəhid olub və Kərbəlada dəfn olunub

## DÖRDÜNCÜ İMAM

ƏLİ İBN HÜSEYN ZEYNUL-ABİDİN

(əleyhis-səlam)

.(Atası: Həzrət Hüseyn ibn Əlidir (əleyhis-səlam

.Anası: Şəhrəbanudur

O həzrətin məşhur ləqəbi Zeynul-abidin və Səccaddır. İmam Səccad (əleyhis-səlam) hicrətin otuz səkkizinci ili şəban ayının beşində dünyaya gəlmişdir. Uşaqlıq illərini Mədinə şəhərində keçirmişdir. O, təxminən iki il babası Əlinin (əleyhis-səlam) hakimiyyət illərini görmüş, ondan sonra isə on il əmisi həzrət Həsənin (əleyhis-səlam) İmamət dövrünü yaşamışdır. İmam Həsən (əleyhis-səlam) bu on ilin yalnız altı ayını hakimiyyət başında olmuşdur. Hicrətin əllinci ili İmam

Həsənin (ələyhis-səlam) şəhadətindən sonra Müaviyənin hakimiyyətinin möhkəmləndiyi bir dövrdə onunla mübarizə aparan İmam Hüseyn (ələyhis-səlam) ilə on il çiyin-çiyinə durmuşdur. Hicrətin altmış birinci ilinin məhərrəm ayında atasının inqilab və şəhadəti zamanı Kərbəlada olmuşdur. Kərbəla faciəsindən sonra digər Əhli-beyt əsirləri ilə birlikdə Kufəyə, sonra isə Şama əsir aparılmışdır. Bu səfərdə o, müsibət və çətinliklər zamanı digər əsirlərin pənahı və himayədarı olmuşdur. O, bu səfər zamanı öz mətin çıxışları ilə Yezidin hakimiyyətini rüsvay etdi və Şamdan qayıtdıqdan sonra Mədinə şəhərində yaşamağa başladı. Nəhayət, hicrətin doxsan beşinci ili məhərrəm ayının iyirmi beşi şəhadətə qovuşdu. O Həzrət Bəqi qəbiristanlığında əmisi .İmam Həsənin (ələyhis-səlam) qəbrinin kənarında dəfn olunmuşdur

## BEŞİNCİ İMAM

MƏHƏMMƏD İBN ƏLİ ƏL-BAQİR

(ələyhis-səlam)

.(Atası: İmam Zeynul-Abidindir (ələyhis-səlam

.Anası: İmam Həsənin (əleyhis-səlam) qızı Fatimə olmuşdur

İmam Baqir (əleyhis-səlam) hicrətin əlli yeddinci ilində rəcəb ayının biri Mədinə şəhərində dünyaya gəlmişdir. Adı Məhəmməd, künyəsi Əbu Cəfər, ləqəbləri Baqir, Baqirul-ulum olmuşdur. İmam Baqir (əleyhis-səlam) həm ata, həm də ana tərəfdən həzrət Əli (əleyhis-səlam) və xanım Zəhranın (səlamullahi əleyha) nəslinə yetişən ilk şəxs olmuşdur. İmam Baqir (əleyhis-səlam) hicrətin yüz on dördüncü ilində zil-hiccə ayının yeddisində Mədinə şəhərində vəfat etmiş, məşhur Bəqi qəbiristanlığında atası .və babasının qəbirləri kənarında dəfn olunmuşdur

## ALTINCI İMAM

CƏFƏR İBN MƏHƏMMƏD

(əleyhis-səlam)

.(Atası: İmam Baqirdir(əleyhis-səlam

.Anası: Ümmü-Fərvə olmuşdur

Altıncı İmamın adı Cəfər, künyəsi Əbu-Abdullah, ləqəbi Sadiqdir. İmam Sadiq (əleyhis-səlam) hicrətin səksən üçüncü ilində rəbiül-əvvəl ayının on yeddisi Mədinə şəhərində dünyaya

gəlmiş, hicrətin yüz qırx səkkizinci ili şəvval ayının iyirmi beşi altmış beş yaşında vəfat .etmişdir. Müqəddəs məzarı Bəqi qəbiristanlığında atasının məzarı kənarındadır

## YEDDİNCİ İMAM

MUSA İBN CƏFƏR ƏL-KAZİM

(əleyhis-səlam)

.(Atası: Həzrət Sadiqdir(əleyhis-səlam

Anası: Həmidə adlı çox fəzilətli bir qadın olmuşdur. O həzrətin adı Musa, ləqəbi Kazimdir. İmam Kazim (əleyhis-səlam) hicrətin yüz iyirmi səkkizinci ilində səfər ayının yeddisində (Mədinənin yaxın kəndlərindən biri olan) Əbva adlı bir yerdə dünyaya .gəlmiş, hicrətin yüz səksən üçüncü ili rəcəb ayının iyirmi beşində şəhid olmuşdur

## SƏKKİZİNCİ İMAM

ƏLİ İBN MUSA ƏR-RİZA

(əleyhis-səlam)

.(Atası: İmam Kazimdir (əleyhis-səlam

.Anası: Nəcimə (Ummulbənin) adlı fəzilətli bir qadın olmuşdur

İmam Əli ibn Musa hicrətin yüz qırx səkkizinci ili zil-qədə ayının on birində anadan olmuşdur. İmam Əli ibn Musanın (ələyhis-səlam) künyəsi Əbülhəsən, ləqəbi Riza olmuşdur. İmam Riza (ələyhis-səlam) iki yüz üçüncü ildə səfər ayının axırı vəfat .etmişdir

## DOQQUZUNCU İMAM

MƏHƏMMƏD İBN ƏLİ ƏL-CAVAD

(ələyhis-səlam)

.(Atası: İmam Rizadır (ələyhis-səlam

.Anası: Səbikə və ya Xeyzərandır

Doqquzuncu İmamın adı Məhəmməd, künyəsi Əbu Cəfər, ləqəbi Təqi və Cavad olmuş, hicrətin yüz doxsan beşinci ilində rəcəb ayının onunda Mədinə şəhərində anadan olmuşdur. Peyğəmbərin həyat yoldaşı olmuş Mariya Qibtiyyənin nəslindən hesab olunan Səbikə xanım əxlaqi dəyərlər baxımından yüksək mərtəbədə durur və öz dövrünün qadınlarının ən üstünü hesab olunurdu. Belə ki, İmam Riza (ələyhis-səlam) o .xanımı pak, nəcabətli və fəzilətli bir qadın kimi yad edirdi

İmam Cavad (ələyhis-səlam) hicrətin iki yüz iyirminci ili zil-qədə ayının sonu iyirmi beş yaşında olarkən şəhadətə yetişmiş və Bağdadın Qüreyş qəbiristanlığında babası .İmam Kazimin (ələyhis-səlam) məzarının yanında dəfn olunmuşdur

## ONUNCU İMAM

ƏLİ İBN MƏHƏMMƏD ƏL-HADİ

(ələyhis-səlam)

.(Atası: İmam Cavaddır (ələyhis-səlam

.Anası: Səmanə xanım olmuşdur

Şiələrin onuncu İmamı, İmam Əliyyən-Nəqi (ələyhis-səlam) hicrətin iki yüz on ikinci ili zil-hiccə ayının on beşində Mədinə yaxınlığındakı Sərya adlı bir yerdə anadan ,olmuşdur. Onuncu İmamın ən məşhur ləqəbləri Nəqi və Hadi olmuşdur. O

hicrətin iki yüz əlli dördüncü ili rəcəb ayının üçündə Samirra şəhərində şəhadətə .qovuşmuş və öz evində də torpağa tapşırılmışdır

## ON BİRİNCİ İMAM

(İMAM HƏSƏN ƏL-ƏSGƏRİ (ələyhis-səlam

.(Atası: İmam Əliyyən-Nəqidir (ələyhis-səlam

.Anası: Hüdeysə adlı təqvalı bir qadın olmuşdur

Şiələrin on birinci imamı həzrət Həsən Əskəri (ələyhis-səlam) hicrətin iki yüz otuz ikinci .ili rəbius-sani ayının səkkizində anadan olmuşdur

O Həzrətin məşhur ləqəblərindən biri Nəqi, başqa birisi Zəki, künyəsi isə Əbu Məhəmməd olmuşdur. Hicrətin iki yüz altmışıncı ili rəbiul-əvvəl ayının səkkizində şəhid .olmuş və Samirra şəhərində öz evindəcə, atasının qəbrinin yanında dəfn olunmuşdur

## ON İKİNCİ İMAM

(MƏHDİ İBN ƏL-HƏSƏN (ələyhis-səlam

.(Atası: On birinci İmam həzrət Həsən Əskəridir (ələyhis-səlam

.Anası: Nərcis xanım olmuşdur

On ikinci məsum İmam, həzrət Məhdi ibn Həsən Əskəri (ələyhis-səlam) hicrətin iki yüz .əlli beşinci ili şəban ayının on beşində Samirra şəhərində anadan olmuşdur

Onun adı İslam Peyğəmbərinin adından, künyəsi də Peyğəmbərin künyəsindəndir, yəni, Əbulqasimdir. Məsum İmamlar onun əsl adının

çəkilməsini qadağan etmişlər. Onun ləqəblərindən Höccət, Qaim, Xələfisaleh, Sahib .əz-zaman və Bəqiyyətullahı qeyd etmək olar. Ən məşhur ləqəbi isə Məhdidir

Allah-taala imam Məhdini (əleyhis-səlam) Öz hikməti ilə qeybə çəkib cahanda müəyyən şərait yaranan kimi Allah-taalanın hökmlərini hər yerdə icra etməkdən ötrü zühur edəcək. İslam Peyğəmbərindən (səlləllahu əleyhi və alihi və səlləm) çoxlu rəvayətlərdə nəql olunur ki, həzrət zəmanət verir ki, imamın zühuru axır-zamanda baş verəcək. Bu rəvayətlərin heç birində deyilmir ki, axır-zamanda doğulacaq. Bu da şiələrin etiqadı ilə tamamilə uyğun gəlir ki, İmam (əleyhis-səlam) uzun qeybdən sonra (zühur edəcək.(١)

:İmam Zamanın (əleyhis-səlam) qeybə çəkilməsinin iki mərhələsi var

Birinci mərhələ: Qeybəti-suğra (kiçik qeyb) adlanır. Bu dövran hicrətin ٣٢٩-cu ilinə qədər davam edir. Bu vaxta qədər İmamın (əleyhis-səlam) müsəlmanlar arasında xüsusi nümayəndələri var idi. İmamın (əleyhis-səlam) müsəlmanlar arasında



---

١ - Əhli-Sünnə alimləri də İmamın (ə) zühurnu qəbul edir amma bu fərqlə ki, O hələ .dünyaya gəlməyib

olan nümayəndələri dörd nəfər idilər. Onlar Bağdadda müsəlmanlar arasında :yaşamış, orda dəfn olunmuş və orada da qəbirləri məşhurdur. Onlar bunlardır

Birinci: Osman ibn Səid. İmam Zamanın (ələyhis-səlam) və imam Həsən Əsgərinin (ələyhis-səlam) xüsusi və ən etimadlı vəkillərindən olmuşdur. Hicrətin ۲۸۰-cı ilində .vəfat etmişdir

.İkinci: Məhəmməd ibn Osman ibn Səid. Hicrətin ۳۰۴ və ya ۳۰۵-ci ilində vəfat edib

.Üçüncü: Həsən ibn Ruh Nubəxti. Hicrətin ۳۲۶-ci ilində vəfat edib

.Dördüncü: Əli ibn Məhəmməd Səmuri. Hicrətin ۳۲۹-cu ildə vəfat edib

Səmurinin vəfatı ilə İmamın (ələyhis-səlam) müsəlmanlarla xüsusi səfirləri qurtarır. Bununla da "qeybəti-suğra" vaxtı sona yetir və "qeybəti-kubra" başlanır. Bu da Allah-taalanın İmamın (ələyhis-səlam) zühurunu məsləhət bildiyi vaxta qədər davam edəcək. Ona görə də bu dövrdə hər kim iddia etsə ki, İmamın (ələyhis-səlam) vəkili və .səfiriyəm, yalançı sayılır

Həsən ibn Əhməd Mükəttəbdən hədis nəql olunur ki: Bağdadda idim. O il İmamın -(ələyhis

səlam) sonuncu səfiri Səmuri (r.h) vəfat etmişdi. Mən o səfirin ölməsindən bir neçə gün əvvəl oraya yetişdim. Bir gün müsəlmanları başına yığıb İmam Zamandan (əleyhis-:səlam) müsəlmanlara müraciət olaraq belə bir məktub oxudu

Bismillahir-rəhmanir-rəhim! Ya Məhəmməd ibn Səmuri! Allah sənə müsəlmanlar arasında xüsusi mükafat versin! Sən altı gün içində dünyadan gedəcəksən. İşlərini cəm et! Sənin ölümündən sonra heç kimi mənimlə müsəlmanlar arasında xüsusi səfir vəsiyyət etmə. Bununla da tam qeybət yetişdi. Allah-taala izn verməyənə qədər zühurdan xəbər yoxdur. Bu zühur uzun müddətdən, qəlblərin kin bağlamasından və yer üzünün zülmlə dolmasından sonra olar. Şiələrimdən bir dəstəsi iddia edər ki, məni görür. Onlar yalançıdırlar. Böyük və uca Allahın güc və qüdrətindən başqa heç bir güc-.”!qüdrət yoxdur

Bu məktubu hamı yadında saxladı. Biz ondan ayrıldıq. Altıncı günü yenə onun yanına getdik, canüstə idi. Ondan soruşuldu ki, səndən sonra İmamla (əleyhis-səlam) kim .danışacaq? Cavab verdi: “Bu Allaha aid olan işdir. İmamla rabitə kəsildi

Allah özü hökm edəndir.” Bu söz ondan eşidilən sonuncu söz idi. Allah ondan razı (olsun!(۱)

İmam Zamanın (əleyhis-səlam) uzun müddətli qeybi dövründə müsəlmanların vəzifəsidir ki, şəriət məsələlərində böyük və savadlı alimlər sayılan adil müctəhidlərə müraciət etsinlər. Bu sifarişidə İmam Zaman (əleyhis-səlam) özü sifariş etmişdir. :Hədislərdən birində İmam (əleyhis-səlam) buyurur

Məndən sonra müsəlmanlar şəriət məsələlərində bizdən düzgün hədis nəql edənlərə“ (adil alimlərə) müraciət etsinlər. Onlar mənim sizə olan höccətlərim və mən də hamıya (Allah tərəfindən höccətəm.!”(۲)



---

.Biharul-Ənvar, ۵۱-cicild, səh-۳۶۷ -۱
.Vəsailüş-Şiyə, ۱۸-cicild, səh-۱۰۱ -۲

## FURUİDDİN

### İŞARƏ

.Məsələ: ١. Furuiddin ١٠-dur

.Namaz: Gün ərzində müəyyən şərtlərlə və müəyyən vaxtlarda Allaha ibadət etmək .١

Oruc: Hər il ramazan ayının əvvəlindən sonunadək sübh azanından axşam . ٢
.azanınadək oruc olmaq

Zəkat: Müəyyən şərtlərdə malın müəyyən hissəsini yoxsullara vermək, xeyir işlərdə .٣
.xərcləmək və s

Xüms: İl ərzində insanın ehtiyacından artıq qalmış malın beşdə birini ayırıb müəyyən .۴
.olunmuş yerlərdə xərcləmək və s

Həcc: Müəyyən şərtlərlə ömründə bir dəfə Məkkəyə Kəbə evinin ziyarəti də daxil .۵
.olmaqla xüsusi əməlləri yerinə yetirməklə ziyarətə getmək

.Cihad: Allah yolunda kafirlər, zalımlar və təcavüzkarlarla mübarizəyə qalxmaq .۶

Əmr bil-məruf (yaxşılıqlara dəvət): insanları yaxşı işlərə və bəyənilmiş rəftarlara .٧
.dəvət etmək

.Nəhy ənil-munkər (pisliklərdən çəkindirmək), insanları pis işlərdən çəkindirmək .٨

.Təvəlla: Allah dostlarını sevib, onlarla dostluq etmək .٩

səh: ۴١

.Təbərra: Allah düşmənləri ilə əlaqəni kəsib onlarla düşmən olmaq .١٠

.Bu kitabçada on furuiddindən namaz, oruc, xüms və zəkat haqda söz açacağıq

## TƏQLİDİN HÖKMLƏRİ

Məsələ: ٢. Müctəhid olmayan şəxslər bütün ibadət, müamilə və digər əməllərdə daha .elimli müctəhidin göstərişinə əməl etməlidirlər

.Məsələ: ٣. Hökmlərdə müctəhidin göstərişlərini yerinə yetirməyə, təqlid etmək deyilir

Məsələ: ٤. Əgər göstərişinə əməl etdiyi müctəhid, dünyasını dəyişsə, onun təqlidində qalması icazəlidir. Əgər o, diri müctəhidlərdən daha savadlı olarsa, vacibdir ölü müctəhidin göstərişinə əməl etsin. Amma ölü müctəhidin təqlidində qalmaq üçün .gərək diri və ədalətli müctəhidə təqlid etsin

Məsələ: ٥. Əgər müctəhid bir məslədə fətva verməyib ehtiyat edərsə, müqəllidi o .məsələdə təqlid olunması icazəli olan digər müctəhidə təqlid edə bilər

Məsələ: ۶. Namaz iki hissəyə bölünür: vacib və müstəhəb namazlar. Müstəhəb namazlar çoxdur. Müstəhəb namazlar arasında, gecə-gündüz nafilə namazlarının qılınmasına daha çox tövsiyə olunduğuna görə biz bu kitabçada gecə-gündüz nafilə .namazları haqda danışacağıq

:Vacibi namazlar altıdır

Gündəlik namazlar. Gündəlik vacib namazlar beşdir: zöhr və əsr (hər biri dörd rəkət), .۱ .(məğrib (üç rəkət), işa (dörd rəkət), sübh (iki rəkət

.Ayət namazı .۲

.Həccə gedən şəxs üçün Kəbə evinin vacibi təvaf namazı .۳

.Nəzr, and və əhd ilə vacib olan namaz .۴

İnsanın özünün qəzaya getmiş namazları, istər biləirəkdən qəzaya getsin istərsə də .۵ .biləməzlik üzündən, yaxud ümumiyyətlə qılmayıb və ya qılıb, amma düzgün qılmayıb

.Atanın böyük oğula vacib olan qəza namazı .۶

Nəzr, and, əhd və təvaf namazının hökmləri digər kitablarda geniş şəkildə izah .olunmuşdur. Bu kitabçada gündəlik namazlar və ayət namazı haqda danışacayıq

Məsələ: ٧. Müsafir olmayan şəxs zöhr, əsr və işa namazlarını dörd rəkətli, müsafir olan şəxs isə iki rəkətli qılmalıdır. Amma bütün mükəlləflər məğrib namazını üç rəkət, sübh .namazını isə iki rəkətli yerinə yetirməlidirlər

Məsələ: ٨. Ayət namazı iki rəkətdir və hər rəkətində beş rüku vardır. Gündəlik və ayət .namazlarının qaydaları sonradan deyiləcək

## NAMAZIN MÜQƏDDİMƏSİ

;Məsələ: ٩. Namazın müqəddiməsi yeddi şeydir

.Təharət; təharət üç hissədən ibarətdir: dəstəmaz, qüsl və təyəmmüm-١

;Vaxtı tanımaq -٢

;Qibləni tanımaq -٣

;Namaz qılanın yeri və libası qəsbi olmasın -۴

;Övrəti örtmək -۵

;Namaz qılanın paltar və bədəni pak olmalıdır-۶

Namaz qılanın alın yeri, dizlərindən və ayaq barmaqlarının başından dörd bağlı – ٧ .barmaqdan çox alçaq, ya uca olmasın

:Məsələ: ١٠. Vacibi qüsllər səkkiz qismdir

.Cənabət qüslü .١

Məss-meyyit qüslü. Əgər bir şəxs, bədəni soyumuş və qüslü verilməmiş bir meyyitə .٢ məss etsə, yəni bədəninin bir hissəsini o meyyitə toxundursa, gərək məss-meyyit .qüslü etsin

.Meyyit qüslü .٣

Əgər ay və ya günəş tamamiylə tutulsa insan bilərəkdən ayət namazını qılmasa .٤ .ehtiyat-vacibə əsasən onun qəzasını yerinə yetirmək üçün qüsl etsin

.Nəzr, and içmə və sair səbəblərlə vacib olan qüsllər .٥

.Bu beş qüsül kişilərlə qadınlar arasında müştərəkdir

.Heyz qüslü .٦

.Nifas qüslü .٧

.İstihazə qüslü. Bu üç qüsl də qadınlara məxsusdur .٨

Təharətin şərt olması lazım olan bütün əməlləri cənabət qüslü və müstəhəb .qüsüllərlə(۱) yerinə yetirmək olar

Məsələ: ۱۱. Müstəhəb qüsüllər çoxdur, onların arasında hamısından çox Cümə qüslünə əhəmiyyət verilmişdir. Onun vaxtı cümə günü sübh azanından günəşin qürub etməsinə qədərdir. Daha yaxşı olar ki, zöhrə yaxın vaxtlarda yerinə yetirilsin. Əgər bir şəxs zöhrə qədər yerinə yetirə bilməsə, zöhrdən sonra əda və qəza niyyəti etmədən .yerinə yetirsin

Məsələ: ۱۲. Qüslü iki şəkildə yerinə yetirmək olar tərtibi və irtimasi şəkildə. Mükəlləf qüslü hər hansı şəkildə istəsə yerinə yetirə bilər. Amma tərtibi şəkildə yerinə yetirmək daha fəzilətlidir. Tərtibi qüsldə, qüsl niyyəti ilə, əvvəlcə başı və boynu, sonra bədənin .sağ tərəfini, daha sonra isə sol tərəfini yumaq lazımdır

İrtimasi qüsldə gərək su bir anda bədənin hər yerini əhatə etsin. (Yəni camaat .(arasında bir dəfəyə suya batdı deyilsin



---

۱- Müstəhəb qüsüllərdən məqsəd rəvayətlərdə müstəhəbliyi sübut olan qüsüllərdir.

Məsələ: ١٣. Dəstəmazda vacibdir ki, üz və əllər yuyulsun. Başın qabaq tərəfinə və .ayaqların üstünə məsh edilsin

Dəstəmaz bu qayda ilə alınmalıdır. Birinci üz, (dəstəmaz üçün olan uzunluq miqdarına görə) gərək alnın yuxarı hissəsindən (tüklərin bitdiyi yerdən) çənənin axırına qədər yuyulsun. Eni isə gərək baş barmaqla orta barmağın tutduğu miqdarda yuyulsun. (Əgər bu miqdardan hətta azacıq yuyulmasa, dəstəmaz batildir). Üz yuyulduqdan sonra qolları yumaq lazımdır. Əvvəl sağ qolu, dirsəkdən barmaqların ucuna qədər yuxarıdan aşağı yumaq lazımdır. Sonra sol qolu dirsəkdən barmaqların ucuna qədər yuxarıdan aşağı yumaq lazımdır. Sağ əlin rütubəti ilə başın qabaq hissəsinə məsh .çəkilməlidir. Ehtiyata əsasən məshin enliyi üç bağlı barmaq olmalıdır

Başı məsh etdikdən sonra, gərək əldə qalan dəstəmaz suyu ilə ayaqların üstünə, barmaqlardan birinin ucundan, ayağın üstündə olan çıxıntıya qədər məsh edilsin. Ehtiyat-vacib budur ki, oynağa da məsh etsin. Ayağa çəkilən məshin eni hər ölçüdə olsa kifayətdir. Amma daha yaxşısı budur ki, üç bağlı barmağın eni qədər olsun, hətta

.ayağın bütün üstünə məsh çəkilməsi daha yaxşıdır

## DƏSTƏMAZ VƏ QÜSLÜN ŞƏRTLƏRİ

.Məsələ: ۱۴. Dəstəmaz və qüsüldə on səkkiz şey şərtdir

.Su mübah olsun, yəni qəsbi olmasın-۱

Su mütləq (saf) olsun yəni muzaf (qarışıq) olmasın. Muzaf su başqa bir şeydən alınan-۲ suya deyilir; məsələn: gülab, qarpız suyu, qora suyu və bu kimi sulara muzaf su deyilir. Əgər su torpaq və bu kimi şeylərlə qarışsa amma camaat arasında ona su deyilərsə .muzaf su deyil

.Su pak olsun-۳

.Dəstəmaz və qüslün üzvləri yuyulduqda pak olsun-۴

Dəstəmaz və qüsl aldığı fəza həmçinin suyun töküldüyü yer mübah olsun (qəsbi-۵ .(olmasın

.Niyyət-۶

Dəstəmaz və qüslü qürbət qəsdi ilə, yəni aləmlərin Rəbbinin əmrlərini yerinə-۷ yetirmək üçün alsın. Amma sərinlənmək, yaxud başqa məqsədlə dəstəmaz alsa, .batildir

Dəstəmaz və qüslü özü yerinə yetirsin. Deməli başqası onun üçün dəstəmaz və ya-۸ qüsl alsa batildir. Amma çıxılmaz vəziyyətlər istisnadır. Əgər çarəsiz qalıb dəstəmaz və qüsül üçün digərindən kömək alsa ehtiyata əsasən özü də niyyət etsin. Əgər digəri su tökərsə və şəxs özü dəstəmaz və ya qüsül üzvlərini yuyarsa eybi yoxdur, amma .məkruhdur. Daha yaxşı budur ki, tərk olunsun

Üzvləri ardıcıllıqla yusun. Dəstəmazı qeyd olunan ardıcıllıqla yerinə yetirsin. Yəni-۹ əvvəlcə üzünü, sonra sağ əlini, daha sonra sol əlini yusun. Ondan sonra başına, sonra isə ayaqlarına məsh etsin. Gərək sol ayağına, sağ ayaqdan əvvəl məsh etməsin. Əgər bu tərtiblə alınmasa, batildir. Həmçinin qüslü də ardıcıllıqla yerinə yetirməlidir. Tərtibi qüsldə, gərək qüsl niyyəti ilə, əvvəlcə başı və boynu, sonra bədənin sağ tərəfini, daha .sonra isə sol tərəfini yumaq lazımdır

.Su, sidik və ğaitin yuyulduğu sudan olmasın-۱۰

.Ehtiyata əsasən qüsül verilmiş sudan olmasın-۱۱

Fasiləsiz olaraq yerinə yetirsin. Hətta sonrakı üzvü yuyanda əvvəlki üzv qurumasa-۱۲ .belə

Yuxarıdan aşağıya yumaq; əgər aşağıdan yuxarı yuyularsa batildir. Həmçinin başın-۱۳ məshində də riayət olunsun. Ayaqların məshində daha yaxşı olar barmaqların ucundan ayaqların qatlanacağına qədər məsh edilsin. Əlbətdə əksi də icazəlidir. Bu qeyd etdiyimiz axırıncı iki şərt dəstəmaza məxsusdur. Amma qüsüldə bədən üzvlərinin yuyulmasında fasilə salmaq icazəlidir. Hətta çox fasilə düşsə belə bu şərtləki dəstəmaz və qüslü batil edən bir iş baş verməsin. Həmçinin qüsüldə aşağıdan yuxarı .yumaq da icazəlidir

Qüsüldə tük olan yerlərə suyu çatdırmaq şərtdir. Ehtiyata əsasən tüklər də-۱۴ yuyulmalıdır. Dəstəmazda əgər üzün dərisi tüklərin arasından görünərsə, gərək suyu dəriyə çatdırsın. Amma görünməsə, tükləri yumaq kifayətdir və suyun tüklərin altına çatdırılması lazım deyil. Başa məsh çəkəndə dəriyə məsh etmək lazım deyil. Başın .qabaq tərəfinin tükünə də məsh etmək səhihdir

Qüslün və dəstəmazın üzvlərində suyun bədənə dəyməsinin qarşısını alan maneə-۱۵ ,olmasın. Əgər üzvlərindən birinə bir şey yapışdığını bilsə

gərək o şeyi aradan qaldırsın. Əgər sonradan bədənində iynənin ucu qədər qüsl və ya .dəstəmaz suyunun çatmadığı bir yer qaldığını bilsə qüsl və dəstəmazı batildir

Sudan istifadə etməyin şəxs üçün heç bir maneəsi olmasın. Əgər bir şəxs dəstəmaz-۱۶ alarsa xəstələnəcəyindən, yaxud digər zərərin dəyəcəyindən qorxarsa və dəstəmaz .alarsa batildir, gərək təyəmmüm etsin

Dəstəmaz alıb namaz qılmaq üçün kifayət qədər vaxt olmalıdır. Dəstəmaz və ya-۱۷ qüsl alacağı halda namaz öz vaxtından sonraya qalacaqsa (yəni qəzaya gedəcəksə) .gərək təyəmmüm etsin. Əgər qüsl etsə və ya dəstəmaz alarsa batildir

Dəstəmaz və qüsl suyunun qabı mübah olsun, yəni qəsbi olmasın. Həmçinin qızıl və-۱۸ .ya gümüşdən olmasın. Əks təqdirdə dəstəmaz və qüsl batildir

## DƏSTƏMAZ VƏ QÜSLÜ BATİL EDƏN ŞEYLƏR

:Məsələ: ۱۵. On iki şey dəstəmaz və qüslü batil edir

.Sidik .۱

.Ğait .۲

;Ğaitin məxrəcindən xaric olan mədə və ya bağırsağın yeli.۳

Gözün görmədiyi, qulağın eşitmədiyi yuxu halı; amma mürgüləsə və bu iki hal.۴ .olmasa, dəstəmazı batil etməz

.Sərxoşluq .۵

.Huşdan getmək .۶

.Dəlilik .۷

.Cənabət .۸

.Heyz .۹

.Nifas .۱۰

.İstihazə .۱۱

.Ehtiyata əsasən meyyitə toxunmaq .۱۲

Əgər bir şəxs, bədəni soyumuş və qüslü verilməmiş bir meyyitə məss etsə, yəni bədəninin bir hissəsini o meyyitə toxundursa, gərək məss-meyyit qüslü etsin. İstər yuxu halında məss etsin, istərsə də ayıq; istər ixtiyari olaraq məss etsin, istərsə də ixtiyarsız. Hətta, əgər onun dırnağı meyyitin dırnağına, sumüyü də meyyitin sümüyünə dəysə, gərək qüsl etsin. Amma ölmüş heyvana məss etsə, məss-meyyit qüslü vacib .deyil

Əgər (məssi meyyit qüslündən əlavə boynunda) cənabət qüslü də olarsa bir qüsl ilə .ikisini də niyyət edə bilər

.Əgər bir şəxsdən istibra etməzdən qabaq rütubət gələrsə sidik hökmündədir

Sidik xaric olandan sonra, paklanmaq məqsədi ilə kişilərin, yerinə yetirdikləri müstəhəb bir əmələ “İstibra”(١) deyilir. Bu, ona görə yerinə yetirilir ki, sonradan məxrəcdən çıxan rütubətin pak hökmündə olduğu bilinsin. Bu əməl, məxrəcdə sidiyin qalmadığına yəqin etmək üçün yerinə yetirilir. İstibranın faydası (əvvəl deyildiyi kimi) budur ki, məxrəcdən rütubət gəlsə və onun “sidik, məzi,(٢) vəzi,(٣) vədi”(۴) və ya digər şey olması



---

١ - İstibranın bir neçə yolu vardır. Ən yaxşısı budur ki, bövl kəsiləndən sonra, əgər ğaitin məxrəci nəcisdirsə, əvvəlcə onu paklasın, sonra üç dəfə sol əlin orta barmağını, ğaitin məxrəcindən alətin dibinədək çəksin; belə ki, kanalda qalmış sidik alətə gəlsin. Sonra baş barmağı, alətin üstünə, onun yanındakı barmağı isə alətin altına qoyub, üç dəfə xütnə olan yerədək, hətta alətin başınadək sıxsın. Daha sonra alətin başını üç .dəfə sıxsın

٢- İnsandan mazaqlaşma zamanı xaric olan su, məzi adlanır.

٣- Bəzi vaxtlar mənidən sonra gələn su, vəzi adlanır.

۴ - Bəzi vaxtlar sidikdən sonra gələn su, vədi adlanır. Əgər sidik kanalında sidik və ya .məni qalmazsa bu sular hamısı pakdır. Dəstəmaz və qüslü batil etmirlər

bilinmədiyi halda, dəstəmaz və qüsl batil deyil və o rütubət nəcis deyil. Əgər insan .istibra etməsə və ondan rütubət çıxsa, dəstəmaz və qüsl batildir o rütubət isə nəcisdir

Məsələ: ۱۶. Qeyd olunan batil edənlərin bəzisi dəstəmazın alınmasına səbəb olur, məsələn: sidik, ğait, ğaitin məxrəcindən xaric olan mədə və ya bağırsağın yeli, gözün görmədiyi, qulağın eşitmədiyi yuxu halı; amma gözün görməyib, qulağın eşitdiyi hal, dəstəmazı batil etməz, sərxoşluq, huşdan getmək, dəlilik və qəlilə (az) istihazə. Amma .bəziləri isə qüsl etməyə səbəb olur, məsələn: cənabət, heyz, nifas qüsülləri kimi

## TƏYƏMMÜM

.Məsələ: ۱۷. Səkkiz yerdə dəstəmaz və qüsl əvəzi olaraq gərək təyəmmüm edilsin

Birinci yer

:Suyun olmaması

Dəstəmaz və qüsl almaq üçün lazım olan qədər suyu tapmaq mümkün olmasın. Belə olan halda əgər su tapmağa ümüdü olsa gərək su axtarmağa getsin. Çöldə, (biyabanda) olsa, eyni zamanda o məntəqə eniş-yoxuşlu olsa, gərək hər dörd tərəfə, qədimdə kamandan atılan bir oxun qət etdiyi məsafə miqdarında (yəni iki yüz addım) suyu axtarmaq üçün getsin. Amma yer, eniş-yoxuşlu deyilsə, gərək hər tərəfə iki oxun .qət etdiyi məsafə miqdarında (yəni dörd yüz addım) axtarış aparılsın

İkinci yer

:Suyu əldə etmək üçün lazım olan avadanlıq olmasın

Məsələn: yaxınlıqda su var, amma çox baha qiymətə satırlar, bu şəxsin isə suyu almağa maddi imkanı yoxdur yaxud su quyuda var amma suyu çəkmək üçün ip vedrə və s. kimi əşyalar yoxdur. Quyuya girmək və ya digərini əcir edib ora salmaq mümkün .olmazsa gərək təyəmmüm etsin

səh: ۵۵

Üçüncü yer

Əgər insan, suyu dəstəmaz və qüsl üçün istifadə edəcəyi halda hal hazırda və ya sonradan özü, əyalı, övladları, dostu və ona aid olan şəxslərin (xidmətçi kimi) susuzluqdan öləcəklərindən, qorxsa, gərək dəstəmaz və qüsl əvəzinə təyəmmüm etsin. Həmçinin heyvanın susuzluqdan tələf olmasından qorxsa, gərək suyu ona verib .təyəmmüm etsin

Dördüncü yer

Su elə bir şəxsin yanındadır ki, hətta pulsuz da verir amma minnət qoyur, minnətə dözmək isə onun üçün çətindir belə olan halda təyəmmüm etməsi icazəlidir. Amma .minnətə dözüb dəstəmaz alarsa dəstəmazı səhihdir

Beşinci yer

.Dəstəmaz və ya qüsl etməyə vaxt olmazsa

Altıncı yer

Bir şəxs su tapacağı təqdirdə özünün, abrının və malının oğru, yırtıcı heyvandan və s. kimi

şeylər tərəfindən təhlükəyə düşməsindən qorxsa. Yaxud su tapacağı təqdirdə yolda azmasından, karvandan ayrı düşməsindən qorxarsa gərək təyəmmüm etsin. Amma .bu o haldadır ki, yola tək davam edə bilməsin

Yeddinci yer

Əgər bir şəxs suyun işlədilməsinin səhhətinə zərər verəcəyindən, göz ağrısından, çiban çıxaracağından, şiddətli soyuqdan yaxud onu istifadə edəcəyi halda hər hansı bir xəstəlik və eybin vücuda gələcəyindən, yaxud xəstəliyinin uzanacağından, şiddətlənəcəyindən və ya çətinliklə müalicə olunacağından qorxsa, gərək təyəmmüm .etsin. Amma isti suyun zərəri olmasa, gərək isti su ilə dəstəmaz alsın və ya qüsl etsin

Səkkizinci yer

Bədəni, yaxud paltarı nəcis olan bir şəxsin bir qədər suyu varsa, dəstəmaz və qüsl aldıqda, bədənini və yaxud paltarını suya çəkmək üçün

suyu qalmayacaqsa, gərək bədən və ya paltarını suya çəkib təyəmmümlə namaz .qılsın. Bu o haldadır ki, paltarını çıxartmaq və ya suya çəkmək mümkün olmasın

Məsələ: ١٨. Təyəmmüm, qaydası sonradan deyiləcək şəkildə hər iki əlin içini birlikdə, təyəmmümün səhih olduğu şeyə vurub; sonra isə əlləri üzə və əllərin üstünə çəkməyə .deyilir

## TƏYƏMMÜMÜN QAYDASI

Məsələ: ١٩. İstər dəstəmaz, istərsə də qüsl əvəzində olan təyəmmümü bu tərtiblə yerinə yetirsin; hər iki əlin içini birlikdə təyəmmümün səhih olduğu şeyə vursun sonra iki əli birlikdə alnın hər yerinə və onun iki tərəfinə; tüklər bitən yerdən qaşlara qədər daha yaxşı olar qaşların altına qədər və burunun üst tərəfinə çəksin. Sonra sol əlin içini sağ əlin üstünün hər yerinə, sonra sağ əlin içini sol əlin üstünün hər yerinə çəksin. .İkinci dəfə də, əlləri yerə vurub əllərin üstünə çəksin

səh: ٥٨

.Məsələ: ۲۰. Dəstəmaz və qüsüldə qeyd olunan şərait burada da şərtdir

.Torpaq və ya yer mübah olsun, yəni qəsbi olmasın-۱

.Torpaq, dəstəmaz və qüslün üzvləri pak olsun-۲

Təyəmmüm olunan torpaq digər şeylərlə qarışıq olmasın. Əgər həddindən artıq az -۳ .olarsa eybi yoxdur

.Ardıcıllıqla yerinə yetirsin-۴

.Fasiləsiz olaraq yerinə yetirsin-۵

.(Yuxarıdan aşağıya doğru çəksin (qeyd olunan şəkildə-۶

.Özü yerinə yetirsin -۷

.Üz və əllərdə maneə olmasın-۸

Niyyət və qürbət qəsdi ilə, yəni aləmlərin Rəbbinin əmrlərini yerinə yetirmək üçün-۹ etsin. Təyəmmüm olunmuş torpaq və yerə təyəmmüm etmək olar, hətta qüsl əvəzinə .olunsa belə

### TƏYƏMMÜMÜN SƏHİH OLDUĞU ŞEYLƏR

Məsələ: ۲۱. Təyəmmüm torpağa, quma, kəssəyə, daşa edilsə səhihdir. Amma ehtiyat-vacib budur ki, təyəmmüm olunan şeyin tozu olsun və

ya toz onun üzərinə toplansın. Hətta xalça və paltarı sirkələmək kimi vasitələrlə olsa belə. Əgər bunlar mümkün olmasa üzərinə toz toplanmayan şeyə təyəmmüm etsin. Baxmayaraq ki, əl vurmaqla az bir miqdarda toz yarana. Əgər bu da mümkün olmasa, .palçığı qurutmaq mümkün olmayan halda palçığa təyəmmüm etsin

## GÜNDƏLİK VACİB NAMAZLARIN VAXTI

Məsələ: ٢٢. Zöhr və əsr namazının vaxtı şəri zöhrdən günəş batana qədərdir. Ehtiyat budur ki, günəş batandan sonra şərq tərəfdə olan qızartı aradan getməyənə qədər əda və qəza niyyəti etməsin. Allah-taalanın ondan istədiyini yerinə yetirməyi niyyət .etsin

## MƏĞRİB VƏ İŞA NAMAZLARININ VAXTI

Məğrib və işa namazlarının vaxtı məğribin əvvəlindən gecə yarsına qədərdir (təqribən şəri zöhrdən ١١ saat ٢٠ dəqiqə sonradır). Əgər müəyyən üzrlü səbəbə görə məsələn: yuxu, unutqanlıq və heyzə görə gecə yarsına qədər qıla bilməsə sübh azanına qədər əda niyyəti ilə qıla

bilər. Əgər günah üzündən gecə yarsına qədər qılmasa ehtiyat budur ki, əda və qəza .niyyəti etmədən qılsın

## SÜBH NAMAZININ VAXTI

Sübh azanına yaxın vaxtlarda günçıxan tərəfdən bir ağartı üzü yuxarı tərəfə hərəkət edir ki, buna birinci fəcr deyilir. Bu ağartının yayılmağından sonrakı vaxta ikinci fəcr deylir ki, bu da sübh namazının əvvəl vaxtıdır. Sübh namazının axır vaxtı isə günəşin çıxdığı vaxtdır. Əgər bilərəkdən namazı vaxtından qabaq qılsa namazı batildir. Amma vaxtından sonra qılsa əgər bir rəkəti namaz vaxtında olarsa, namazı səhihdir. Əgər .bilərəkdən olarsa, günah etməsinə baxmayaraq namazı səhihdir

QİBLƏ

Məsələ: ٢٣. Qiblə, əzəmətli Məkkə şəhərində yerləşən Kəbə evinin yeridir ki, yerin dibindən göylərin sonunadək qiblədir. Gərək namaz, onunla üzbəüz duraraq qılınsın. Amma oradan uzaqda olan şəxs üzü qibləyə dursa, belə ki, "üzü qibləyə namaz qılır" .desələr, kifayətdir

Məsələ: ۲۴. Kişi gərək namaz halında, hətta əgər bir şəxs onu görməsə də, övrəteynini örtsün. Qadın, namaz halında bütün bədənini, hətta başını və tüklərini örtməlidir. Amma üzünü, dəstəmazda yuyulan miqdarda, əllərini biləyə qədər, ayaqlarını topuğa .qədər örtməsi lazım deyil. Əgər naməhrəm onu görürsə bunları da örtmək vacibdir

Məsələ: ۲۵. Namaz qılanın vacibdir övrətini örtdüyü şey, hətta bütün paltarı, (övrəti örtən paltarlardan digər paltarları) əti haram olan heyvanlardan hazırlanmasın. Əgər o heyvanların, hətta bir tükü belə namaz qılanın üstündə olsa, yəni onun paltarına və ya bədəninə yapışmış olsa, namazı batildir. Kişilərin paltarı xalis ipəkdən və qızıldan toxunulmuş olmasın. Amma qadınlar üçün heç bir eybi yoxdur. Həmçinin namaz qılanın .paltarı və məkanı qəsbi olmasın

.Məsələ: ۲۶. Nəcasət on bir şeydən ibarətdir

.Sidik .۱

.Ğait .۲

.Məni .۳

.Murdar olmuş heyvan .۴

.Qan .۵

.İt .۶

.Donuz .۷

.Kafir .۸

.Şərab .۹

.Pivə .۱۰

Nəcasət yeyən dəvənin təri. Məşhur nəzərə görə, haramdan cünub olanın təri də .۱۱ .nəcisdir

(Sidik və Ğait(۱-۱-۲

İnsanın və atıcı qanı olan (yəni, damarını kəsdikdə qanı sıçrayışla gələn) haram ətli heyvanların sidik və ğaiti nəcisdir. Amma əti haram olan quşların sidik və ğaitləri .pakdır



---

.İfrazat -۱

Məni-۳

İnsanın və sıçrayan qanı olan hər heyvanın mənisi nəcisdir. Əgər istibra etməzdən qabaq insandan rütubət xaric olarsa və məni və ya pak sulardan birinin olduğunu .bilməsə məni hökmündədir

Murdar-۴

İnsanın, eləcə də istər özü ölmüş olsun, istərsə şəri qaydalara görə kəsilməmiş, .sıçrayan qanı olan heyvanın ölüsü nəcisdir

Qan-۵

İnsanın və sıçrayan qanı olan, yəni damarı kəsildikdə qanı sıçrayaraq axan hər bir .heyvanın qanı nəcisdir

İt və Donuz-۶-۷

.Quruda yaşayan it və donuz nəcisdir. Amma su iti və su donuzu pakdır

Şərab-۸

Şərab və insanı məst edən hər bir şey, əgər öz-özlüyündə, zatən maye olsa nəcisdir; əgər üzüm

suyu günəş və hava vasitəsi ilə qaynasa, nəcis hökmündədir. Əgər odla qaynasa, üçdə .ikisi getməyənə qədər yeyilməsi haramdır, amma nəcis deyildir

Pivə-۹

Arpadan alınan və arpa suyu deyilən pivə, məst edici olmamasına baxmayaraq .nəcisdir

Kafir-۱۰

Allahı inkar edən və ya Allaha şərik qoşan şəxs, kafir və nəcisdir. Həmçinin bir şəxs dinin zəruri məsələlərini inkar etsə və bu inkar etdiyi şey nübüvvəti inkar etməklə nəticələnsə kafir və nəcisdir. Onların həddi-buluğa çatmayan uşaqları kafir .hökmündədir. Ehtiyata əsasən yəhudilər, xristianlar və məcuslar nəcisdirlər

Nəcasət yeyən dəvənin təri-۱۱

İnsan nəcisini yeməyə adət edən dəvənin təri nəcisdir. Amma haramdan cünub olanın təri, rütubətin qalmasına baxmayaraq daha üstün nəzərə əsasən nəcis deyil. Amma .haramdan cünub olan tərlə qılınan namaz batildir

## PAKLAYICILAR

:Məsələ: ٢٧. On beş şey nəcasəti pak edir. Bu şeylərə mütəhhirat (paklayıcılar) deyilir

.Su .١

.Su üç hissəyə bölünür

.Axar su-١

.Bir yerdə dayanan su-٢

.Yağış suyu-٣

.Bir yerdə dayanan su özü iki hissəyə bölünür; ١-Kürr suyu. ٢-Qəlil (az) su

Kürr suyu

Uzunluğu, eni və dərinliyi hər biri üç qarış olan qabı dolduran miqdarda suya kürr suyu .deyilir. Amma ehtiyat budur ki, uzunluğu, eni və dərinliyi üç qarış yarım olsun

Az su

Kürr miqdarında olmayan, yerdən coşmayan sulara; məsələn: kasa, kuzə, aftafa suyuna və bu kimi sulara, az su deyilir. Bunlardan hər birinin pak etmə hokumü .fərqlidir və sonradan qeyd olunacaq

səh: ۶۶

Torpaq .۲

Yer, nəcis olmuş ayağın və ayaqqabının altını pak edər: yer pak olmalıdır; quru olmalıdır; ayaq və ya ayaqqabının altı yer tərəfdən yeriməklə nəcis olsun; ayağın və ya ayaqqabının altında tapılan qan və bövl kimi eyni nəcis və ya nəcis olmuş palçıq kimi .sonradan nəcis olan şey, yol yerimək və ya ayağı sürtməklə aradan qaldırılsın

Günəş .۳

Günəş, adətən daşınılmaz olan şeyləri məsələn: yeri, binanı, divarı, qapı və pəncərəni pak edir. Həmçinin torpaq və daş yerin bir hissəsi hesab olarsa eyni hökmdədir. Bunların pak olmasında günəşin saçması nəticəsində quruması və nəcisin eynindən bir şeyin qalmaması şərtdir. Deməli, küləyin vasitəsi ilə və ya havanın isti olması .nəticəsində qurusa pak deyil

(İstihalə(۱ .۴

Əgər nəcis şeyin cinsi (zatı) dəyişilib başqa bir pak şeyə çevrilsə, pak olar. Belə dəyişikliyə



---

.Bir haldan başqa hala keçmə -۱

istihalə deyilir; məsələn: nəcis çubuq, yanıb külə çevrilsə, yaxud it duzlağa batıb duza çevrilsə, ğaitdən qurd əmələ gəlsə, nütfədən heyvan əmələ gəlsə paklanar. Amma, cinsi dəyişilməsə; məsələn: nəcis buğdanı üyüdüb un etsələr, yaxud çörək bişirsələr pak olmaz.

۵. İnqilab(۱)

Nəcis bir şeyin pak bir şeyə çevrilməsinə deyilir. Məsələn: şərab sirkəyə çevrilsə, pak olar.

۶. İntiqal(۲)

Əgər ürfə görə, qanı olmayan bir heyvan insanın qanını sorsa, məsələn: ağcaqanadın insan bədənindən sorduğu qan kimi, öz bədəninin qanı hesab olunsa (və insanın qanı hesab olunmasa) o qan pak olur və buna intiqal deyilir. Deməli, zəlinin insanın bədənindən çəkdiyi qana "zəli qanı deyil, insan qanıdır" deyildiyinə görə nəcisdir.



---

۱- Nəcis bir şeyin vəsfinin pak bir şeyə çevrilməsinə deyilir.

۲- Bir yerdən başqa yerə nəql olunma.

İslam .۷

Əgər kafir müsəlman olsa pak olar. Müsəlman olandan sonra onun bədəni, ağzının, burnunun suyu və təri pakdır. Daha üstün nəzərə əsasən hətta fitri mürtəd(۱) olsa belə yenə pak olar.

Təbəiyyət .۸

Təbəiyyət odur ki, nəcis bir şey başqa nəcis şeyin pak olması vasitəsi ilə paklansın. Bu üç halda icra olunur:

Birinci: Bir kafir müsəlman olarsa, onun uşağı da paklıqda ona tabedir. Həmçinin əgər kafir uşağın anası, ya baba və ya nənəsi müsəlman olarsa, uşaq da pak olar.

İkinci: Əgər şərab sirkəyə çevrilsə və ya günəşin yaxud havanın vasitəsi ilə üzüm suyu sirkəyə çevrilsə, o şərab və ya üzüm suyu sirkəyə



---

۱- İslam dinindən çıxıb kafirliyi seçən bir müsəlmana mürtəd deyilir. Mürtəd iki qismdir: Fitri mürtəd və milli mürtəd. Fitri mürtəd o kafirdir ki, o, dünyaya gələn vaxt onun ata-anası və ya onlardan biri müsəlman olub, özü də yaxşı və pisi başa düşdüyü vaxtda müsəlman olub, sonradan kafir olub. Milli mürtəd isə onun müqabilidir.

.çevrilməklə pak olur. Onların qabları da, onların pak olmaları ilə pak olur

Üçüncü: Üstündə meyyit yuyulan taxta və ya daş, habelə meyyitin övrətinə örtülən parça, ona qüsl verənin əlləri, onu yuduqları zaman istifadə olunan kisə və bu kimi şeylər qüsl başa çatdıqdan sonra pak olur. Amma bu hökm qüsl verənin paltarına aid .deyil

Eyni nəcasətin aradan getməsi .۹

Əgər bir heyvanın bədəni qan kimi eyni nəcisə bulaşsa, o aradan getdikdən sonra, o heyvanın bədəni pak olur. İnsanın ağız, burun və qulağının içi kimi bədəninin daxili də .eyni hökmdədir

Müsəlmanın qayib olması .۱۰

Əgər bir müsəlmanın paltarı və bədəni nəcis olsa, müsəlman bədən və ya paltarının nəcis olduğunu bildiyini insan anlasa, sonra o müsəlman qaib olsa, sonra o paltarı, paklığı şərt olan bir işdə istifadə etdiyi görünsə; məsələn: o paltarla namaz qılması görünsə, onu pak etməsinə ehtimal verildiyi halda (o şeyin pak olmasına elm olmasa .belə) o şeyin pak olmasına hökm olunur

Ğaitin məxrəcinin daş və parça ilə təmizlənməsi .۱۱

Ğaitin məxrəcini(۱) parça, daş, kəssək və s. kimi şeylərlə (qeyd olunacaq şərtlər daxilində) paklamaq olar.

İstibra .۱۲

Əgər insandan bir rütubət gəlsə, insan onun sidik və ya məni olduğunu bilməsə, istibra etdiyi təqdirdə pakdır. Bu mövzu on altıncı məsələdə qeyd olunmuşdur.

(Ğüsalənin ayrılması(۲.۱۳

Paltar və digər şeydə qalan rütubəti o pak edir.

Başı (şəriət qaydaları əsasında) kəsilən heyvandan bir miqdar qan axması .۱۴

Şəri üsullarla başı kəsilən əti halal olan heyvanın qanı normal miqdarda axdıqdan sonra,



---

İfrazatın xaric olduğu yer -۱.

Ğüsalə o sudur ki, adətən yuyulma vaxtında, yaxud ondan sonra yuyulan şeydən -۲ öz-özünə, yaxud sıxılmaqla tökülür.

onun bədənində qalan qan pakdır. Ehtiyata əsasən əti haram olan heyvanın başı .kəsildikdən sonra bədənində qalan qandan çəkinilsin

Nəcis yeyən heyvanın istibrası .۱۵

İnsan nəcasətini yeməyə adət edən heyvanın bövlü və ğaiti nəcisdir. Onların pak olması üçün, gərək heyvan istibra olunsun. Yəni, bir müddət nəcasət yeməsinin qabağı alınmalı, ona daha “nəcasət yeyən” deyilməyəcəyi müddət ərzində pak yem .verilməlidir

## NƏCİS OLMUŞ ŞEYLƏRİ PAK ETMƏYİN YOLLARI

Məsələ: ۲۷. Nəcis olmuş şeyləri pak etməyin yolları belədir. Əgər nəcis bir şeyi kürr, yaxud axar suda bir dəfə yusalar pak olar və onu çölə çıxartdıqdan sonra ondan .tökülən su da pakdır. Sidik və ğaitin məxrəci də bu hökmdədir

Yağış suyu yağdığı halda, kürr və axar su hökmündədir. Əgər üstündə nəcasətin eyni olmayan nəcis bir şeyə bir dəfə yağış yağsa, yağışın dəydiyi yerlər pak olur və xalça, paltar və

.bu kimi şeyləri (yağış dəyəndən sonra) sıxmaq lazım deyil

Əgər az su ilə pak etmək istəsələr, əgər nəcis olan şey sidik ilə nəcis olsa, iki dəfə yumaq vacibdir, ondan tökülən birinci su isə nəcisdir. Hətta ehtiyata əsasən ondan tökülən ikinci suda nəcisdir. Əgər sidikdən başqa şey ilə nəcis olsa bir dəfə yumaq kifayətdir, amma daha üstün nəzərə əsasən ondan tökülən su nəcisdir. Qeyd etdiklərimiz qablardan başqa şeylərdə idi. Amma qablar hər hansı bir nəcis ilə nəcis olsa üç dəfə yumaq vacibdir. İtin və donuzun yaladığı, yaxud su və ya maye şeylər içdiyi qabı, yumaqdan əlavə torpaq ilə sürtmək, lazımdır. Əgər su daxilinə nüfuz edən .şeylərdən olarsa gərək sıxılsın və ya hərəkət etdirilsin ki, onun daxilində olan su çıxsın

Əgər daş, kəssək, parça və bu kimi şeylər quru və pak olsalar, onların vasitəsi ilə ğaitin məxrəcini paklamaq olar. Hörməti saxlanılması lazım olan şeylərlə; məsələn: Allah, Peyğəmbər (səlləllahu ələyhi və alihi və səlləm) həmçinin, məsum İmamların adı, Quran ayələri və hədislər yazılmış kağızla ğaitin məxrəcini paklamaq haramdır. Ğaitin məxrəcini sümük və peyinlə paklamaq olmaz. Əgər su ilə

yuyulsa nəcisin eyni aradan gedəndən sonra bir dəfə yumaq kifayətdir və ondan ayrılan su da pakdır. Əgər sudan digər şey ilə pak etmək istəsə gərək üç dəfə olsun. Baxmayaraq ki, bir daşın və ya parçanın üç tərəfi ilə olasa belə. Bu o haldadır ki, bir dəfəyə və ya üç dəfəyə pak olsun. Amma üç dəfə silməklə paklanmazsa, məxrəc tamamilə paklanıncaya qədər sürtmək lazımdır. Üç halda ğaitin məxrəci təkcə su ilə :paklanır

.Ğaitlə yanaşı başqa nəcasət (qan kimi) çölə gələrsə.١

.(Xaricdən bir nəcis ğaitin məxrəcinə dəymiş olarsa(١).٢

Məxrəcin kənar hissələri, adi qaydadan artıq nəcasətə bulaşmış olarsa. Bunlardan.٣ başqa hallarda, məxrəci həm su ilə yumaq olar, həm də parça, daş və s. kimi şeylərlə .paklamaq olar. Amma su ilə yumaq daha yaxşıdır

Məsələ: ٢٨. Yemək yeməyə başlamamış, südəmər oğlan uşağının bövlü ilə nəcis olan bir şeyin üzərinə, nəcis yerlərin hər tərəfinə yetişəcək şəkildə bir dəfə su tökülsə, pak olar. Hətta ondan



---

.İfrazatın xaric olduğu yerə dəymiş olarsa -١

.ayrılan su da pakdır. Amma südəmər qız uşağının sidiyindən çəkinilsin

Məsələ: ٢٩. Az su ilə bir şey pak etmək istəyəndə gərək az suyu nəcis olmuş şeyin üzərinə töksünlər. Əgər nəcis şeyi az suyun içinə salarlarsa o şeyin pak olmamasından əlavə suyu da nəcis edir. Amma kürr və axar su belə deyil, istər suyu nəcis olmuş şeyin .üzərinə töksünlər istərsə də nəcis şeyi suya salsınlar hər iki halda pak edəndir

Məsələ: ٣٠. İyirmi altıncı məsələdə qeyd olunan on bir şeydən digər şeylərin hamısı pak hökmündədir. Əgər insan yəqin etsə bir şey yaş halda bu on bir şeydən birinə dəyibdir, bu halda o şeyin nəcis olmasına hökm etməlidir. Əgər insanda güman yaransa bir şey, yaş halda bu on bir şeydən birinə dəyibdir bu halda o şeyin pak olmasına hökm .etməlidir

## NƏCASƏTİN SÜBUT OLUNMASI YOLLARI

:Məsələ: ٣١. Hər bir şeyin nəcis olması, üç yolla sübut olunur

İnsanın özü bir şeyin nəcis olmasına yəqin etsin. Amma bir şeyin nəcis olmasına-١ .güman etsə, ondan qorunması lazım deyil

İnsanın ixtiyarında olan bir şəxs, hər hansı şeyin nəcis olmasını xəbər versə;-٢ məsələn: insanın həyat yoldaşı, nökəri, yaxud ailə üzvləri müəyyən bir qabın, yaxud ;onun ixtiyarında olan başqa bir şeyin nəcis olmasını xəbər versə

İki nəfər adil şəxs, hər hansı bir şeyin nəcis olmasını desinlər, hətta bir nəfərin-٣ .dediyindən də inam yaransa, yenə də o şeyin nəcis olması məlum olur

Məsələ: ٣٢. Nəcis və nəcis olmuş şeyi yeyib və içmək haramdır. Həmçinin onları .digərlərinə yedirdib və içirtmək haramdır

Məsələ: ٣٣. Məscidi nəcis etmək haramdır. Onun nəcis olduğunu anlayan hər bir şəxsin dərhal onun nəcasətini aradan qaldırması və paklaması lazımdır. Ehtiyata əsasən bu ,hökm Quran ayələri

.Allahın, Peyğəmbərlərin və məsum İmamların adlarına da aid olur

səh: ٧٧

Məsələ: ٣۴. Gündəlik vacib namazlardan əvvəl azan və iqamənin deyilməsi müstəhəbdir. İqamənin deyilməsi azandan daha çox təkid olunub. Daha yaxşı olar ki, .imkan olan halda azan və iqamə tərk olunmasın

:Məsələ: ٣۵. Azan ١٨ cümlədir

Dörd dəfə: Əllahu əkbər

İki dəfə: Əşhədu əlla ilahə illəllah

İki dəfə: Əşhədu ənnə Muhəmmədən rəsulullah

İki dəfə: Həyyə ələssaləh

İki dəfə: Həyyə aləl-fəlah

İki dəfə: Həyyə əla xayril-əməl

İki dəfə: Əllahu əkbər

İki dəfə: La ilahə illəllah

İqamə isə ١٧ cümlədir, yəni əvvəldə iki dəfə «Əllahu əkbər» deyilir, «La ilahə illəllah» azanın sonundan bir dəfə azaldılır, «Həyyə əla xəyril-əməl» dedikdən sonra isə iki dəfə .«Qəd qamətissaləh» əlavə edilir

Məsələ: ٣۶. Əşəhədu ənnə Əliyyən vəliyyullah azan və iqamənin hissələrindən deyil. Amma

yaxşı olar ki, əşhədu ənnə Muhəmmədən rəsululah dedikdən sonra qürbət qəsdi ilə .deyilsin

Məsələ: ۳۷. Azan və iqamənin deyilməsi gündəlik vacib namazlar üçün müstəhəbdir. .Bunlardan başqalarında isə şəri deyil. Hətta deyilməsi bidət və haramdır

## NAMAZIN VACİBATI

Məsələ: ٣٨. Namazın vacibatının bəzi qismləri rükndür. Yəni, əgər insan onu yerinə yetirməsə, yaxud namazda artırsa "istər bilərəkdən olsun istərsə də səhvən" namaz batil olur. Digər qismləri isə rükn deyil. Yəni, əgər bilərəkdən azaldılıb-artırılsa, namaz batil olur. Amma səhvən azaldılıb-artırılsa batil olmaz.

## NAMAZIN RÜKNLƏRİ

Məsələ: ٣٩. Namazın rüknləri beşdir:

١. Niyyət.

٢. Təkbirətül-ehram.

٣. Təkbirətül-ehram dediyi vaxt, həmçinin arxasınca rüku olan qiyam, (yəni rükudan qabaq durmaq).

٤. Rüku.

٥. İki səcdə.

Məsələ: ٤٠. İnsan gərək namazı qürbət qəsdi ilə yəni, Allah-taalanın əmrini yerinə yetirmək niyyəti ilə qılmalıdır. Niyyəti qəlbdən keçirmək və ya misal üçün, dildə "dörd rəkət zöhr namazı qılıram, qürbətən iləllah" demək, lazım deyil.

Namaza diqqətinin olması kifayətdir. İnsan namazı yalnız Allahın əmrini yerinə yetirmək üçün qılmalıdır. Deməli, əgər bir şəxs riya etsə, yəni özünü camaata göstərmək üçün namaz qılsa, namazı batildir. Namaz qılan şəxs qıldığı namazı müəyyən etməlidir. Məsələn zöhr, əsr və ya məğrib və işa namazını qıldığını müəyyən .etməlidir

### TƏKBİRƏTÜL–EHRAM

.Məsələ: ۴۱. Hər namazın əvvəlində Əllahu əkbər demək vacib və rükndür

Məsələ: ۴۲. Rükuya bağlı(۱) olan qiyam rükuya getməzdən qabaqkı dayanmağa deyilir. İstər həmd və surəni oxusun və ya oxumasın, istər sakit halda rükuya getsin istərsədə zikr və qiraət halında. Deməli, durduğu haldan rükuya gedərsə rükuya müttəsil olan .qiyam yerinə yetirilibdir

Məsələ: ۴۳. Rüku, əllərini dizinə qoya biləcək qədər əyilməyə deyilir. Ehtiyata əsasən, .əllərin içini dizlərə qoymaq vacibdir. Müstəhəbdir dizlərini arxaya versin



---

.Müttəsil -۱

Məsələ: ۴۴. Namaz qılanın, hər rəkətdə qiraətdən sonra, bir rüku yerinə yetirməsi .vacibdir

Məsələ: ۴۵. Səcdə odur ki, alnı xüsusi formada xüzu qəsdi ilə yerə qoysun. Belə ki, camaat arasında ona səcdə deyilsin. Əgər barmağın oynağı qədər alından səcdə .yerinə dəysə kifayət edir

Məsələ: ۴۶. Alnın ölçüsü uzunluq baxımından tük çıxan yerdən burunun yuxarı .hissəsinə qədərdir. Eni isə iki qaşın arasıdır, yəni alnın ortasında olan çökəklikdir

Məsələ: ۴۷. Səcdədə yeddi üzvü yerə qoymaq vacibdir. Onlar, alnı, iki əlin içini (əgər əllərin içi mümkün olmazsa əllərin üstü qoyulsun), iki dizi və iki ayağın baş barmağının ucunu yerə qoymaqan ibarətdir. Gərək alın səcdə səhih olan bir şeyin üzərinə .qoyulsun

Məsələ: ۴۸. Gərək yerə, çubuq və ağac yarpağı kimi yerdən çıxan və yeyilməyən şeylərə səcdə edilsin. Yeyilməli, geyilməli və mədən şeylərinə səcdə etmək səhih deyil. Əgər yeyilməli, geyilməli və mədən şeylərindən olmasa ona səcdə etmək səhihdir. Məsələn: ağac yarpağı, tütün və tənbəki

kimi. Səcdə üçün hər şeydən yaxşı həzrət Seyyidüş-Şühədanın (ələyhis-səlam) .türbətidir

Məsələ: ۴۹. Namaz qılan şəxs namazın hər rəkətində rükudan sonra iki səcdə etməlidir. İki səcdə, birlikdə bir rüknü təşkil edir. Əgər səhv üzündən bir səcdəni çoxaldıb və ya .azaltsa namazı batil etməz

.Məsələ: ۵۰. Rükn olmayan vaciblər doqquz əməldir

Birinci: Qiraət; gündəlik vacibi namazların birinci və ikinci rəkətində əvvəlcə Həmd, .sonra isə, gərək bütöv bir surə oxunulsun

İkinci: Təsbihati-ərbəə, namazın üçüncü və dördüncü rəkətlərində bir dəfə deyilməsinin kifayət etməsinə baxmayaraq daha üstün nəzərə əsasən üç dəfə :"təsbihati-ərbəə" deyilməlidir, yəni

سُبْحَانَ اللهِ وَالْحَمْدُ لِلَّهِ وَلاَ إِلَهَ إِلاَّ اللهُ وَاللهُ أَكْبَر

".Subhanəllahi vəlhəmdu lillahi və la ilahə illəllahu vəllahu əkbər"

Üçüncü: Qiyam (yəni qiraət və təsbihat halında həmçinin rükudan sonra ayaq üstə .(durmaq

"Dördüncü: Rüku və səcdələrin zikri; insan rüku və səcdənin zikrində üç "subhanəllah

yaxud hər zikri desə kifayətdir; bu şərtlə ki, üç “subhanəllah” miqdarında olsun. Daha yaxşı olar rükunun zikrində “subhanə Rəbbiyəl əzimi və bihəmdih”, səcdənin zikrində .isə “sübhanə rəbbiyəl ə`la və bihəmdih” desin

Beşinci: Təşəhhüd; bütün vacibi namazların ikinci rəkətində, (bundan əlavə) məğrib namazının üçüncü, zöhr, əsr və işa namazlarının dördüncü rəkətində ikinci səcdədən sonra oturulmalı və bədənin aram olduğu halda təşəhhüd oxunmalıdır. Yəni deməlidir :ki

أَشْهَدُ أَنْ لاَ إِلَهَ إِلاَّ اللهُ وَحْدَهُ لاَشَرِيکَ لَهُ وَأَشْهَدُ أَنَّ مُحَمَّداً عَبْدُهُ وَرَسُولُهُ أَللَّهُمَّ صَلِّ عَلی مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ

Əşhədu ən la ilahə illəllah, vəhdəhu la şərikə ləh və əşhədu ənnə Muhəmmədən“ ”.əbduhu və Rəsuluh. Əllahummə səlli əla Muhəmmədin və Ali-Muhəmməd

Altıncı: Salam; namazın axırıncı rəkətinin təşəhhüdündən sonra oturan və bədənin aram olduğu halda

أَسَّلاَمُ عَلَيْنَا وَعَلی عِبَادِاللهِ الصَّالِحِينَ

Əssəlamu ələyna və əla ibadillahis-salihin və ya

أَسَّلَامُ عَلَيْكُمْ وَرَحْمَهُاللهِ وَبَرَكَاتُهُ

.Əssəlamu ələykum və rəhmətullahi və bərəkatuh deyilsin

Yeddinci: Tərtib; yəni namazın niyyətindən sonra əvvəl təkbiratul-ehram deyilir, sonra həmd və surə oxunur sonra rukaya gedilir və rükunun zikrini deyib qiyam halına qayıtdıqdan sonra iki səcdəni yerinə yetirmək üçün səcdəyə gedilir səcdələrin zikrlərini dedikdən sonra ayağa durulur, ikinci rəkət də bu qayda ilə yerinə yetirilir. Sonra təşəhhüd oxunulur sonra təsbihati-ərbəəni oxumaq üçün ayağa durulur təsbihati-ərbəəni oxuduqdan sonra rüku və səcdələr qeyd olunduğu kimi yerinə yetirilir, bu qayda ilə dördüncü rəkət yerinə yetirilir təşəhhüd və salam deyilir salamdan sonra .namaz tamam olur

Səkkizinci: Müvalat; insan gərək namazı müvalat ilə oxusun. Yəni, namazın hissələrini (rüku, səcdə, təşəhhüd kimi) bir-birinin ardınca, fasiləsiz yerinə yetirməlidir. Namazda .oxuduqları adi qaydada bir-birinin ardınca, fasiləsiz olmalıdır

Əgər bunların arasında müəyyən qədər fasilə salsa və “namaz qılır” deyilməsə, namazı .batildir

Doqquzuncu: Hərəkətsiz və bədən aram olmalıdır; namaz qılanın məkanı və bədəni hərəkətsiz olmalıdır. Elə bir şəkildə olmalıdır ki, namaz qılanın tərpənməsinə səbəb olmasın. Məsələn: bir nəfər tələsik bir yerdən çatıb və hərəkət halında təkbirətul-ehram deyə və ya rüku yaxud səcdədən qalxanda zikr deyə, hətta axırıncı hərfi olsa .namaz batildir

Məsələ: ۵۱. Vacibdir qiraət və digər zikrlər məsələn: təsbihat, rükunun zikrləri, səcdənin zikrləri, təşəhhüd, salam və təkbirlər ərəb dilində düzgün oxunulsun. Yəni hərfləri ərəb dilində düzgün tələffüz etsinlər. Əgər hərflər ərəb dilində düzgün tələffüz .olunmasa namaz batildir

Məsələ: ۵۲. Kişi üçün vacibdir sübh, məğrib və işa namazlarında Həmd və surənin bütün kəlmələrini, hətta onların axırıncı hərflərini belə ucadan desin. Qadın sübh, məğrib və işa namazının Həmd və surəsini uca səslə və ya ahəstə səslə oxuya bilər. Amma naməhrəm onun səsini eşitsə, gərək ahəstə qılsın. Amma zöhr və

.əsr namazlarını istər kişi olsun istərsə də qadın gərək ahəstə səslə qılsınlar

Məsələ: ۵۳. Səsin aşkar olmasında əsas, səs tonunun aşkar olmasıdır və səsin ahəstə olmasında səs tonunun olmamasıdır. Baxmayaraq ki, uca səsi yanındakı şəxs .eşitməsin amma onun əksinə olaraq ahəstə səsi eşitsin

Məsələ: ۵۴. Qiraətdə vacib səcdəsi olan surələrdən başqa hər bir surəni oxumaq olar. Həmçinin əgər uzun surələri oxumaq namazın qəzaya getməsinə səbəb olarsa .oxumaq olmaz

(Məsələ: ۵۵. Vacib səcdəsi olan surələr aşağıdakılardan ibarətdir:(۱

.Səcdə". ۳۲-ci surə" .۱

.Fussilət". ۴۱-ci surə" .۲

.Ən- Nəcm". ۵۳-ci surə" .۳

.Ələq". ۹۶-cı surə" .۴

Məsələ: ۵۶. Namazın üçüncü və dördüncü rəkətlərində ya təkcə Həmd deyilməlidir, ya da



---

Bu dörd surənin hər birində bir səcdə ayəsi vardır ki, əgər insan onu oxuyarsa və ya -۱ qulaq asarsa, yaxud eşidərsə, ayə tamam olduqdan sonra gərək dərhal səcdə etsin. .Əgər yaddan çıxarsa, hər vaxt xatırlasa, gərək səcdə etsin

.Təsbihati-ərbəə”. Daha yaxşı olar ki, təsbihati-ərbəə deyilsin“

## NAMAZDA MÜSTƏHƏB OLAN ƏMƏLLƏR

Məsələ: ۵۷. Namazda müstəhəb olan əməllər çoxdur biz burada bir neçəsini qeyd .edirik

Birinci: Təkbirətül-ehramdan qabaq altı dəfə təkbir demək. Təkbirətül-ehramla yeddi .təkbir olur

İkinci: Hər rəkətdə rükudan qabaq və sonra, iki səcdənin arasında və səcdələrdən .sonra “Əllahu əkbər” demək müstəhəbdir

Üçüncü: Bütün vacibi və müstəhəbbi namazlarda ikinci rəkətin rükusundan qabaq müstəhəbdir ki, qunut tutulsun. Vitr namazının bir rəkət olmasına baxmayaraq, onun rükusundan qabaq qunut tutmaq müstəhəbdir. Cümə namazının hər rəkətində bir qunut vardır; birinci rəkətdə rükudan əvvəl, ikinci rəkətdə isə rükudan sonra tutulur. Ayət namazının beş, Fitr və Qurban bayram namazlarının isə hər birinin birinci rəkətində beş, ikinci rəkətində isə dörd qunut vardır. Müstəhəbdir ki, qunutda dua oxunan vaxt

.əlləri üzün müqabilinə tutsun, onların içini göyə tərəf saxlasın

Qunutda hər zikri, hətta bir dəfə subhanəllah desə kifayətdir. Amma daha yaxşı olar ki, :bu dua oxunsun

لاَ إِلَهَ إِلاَّ اللهُ الْحَلِيمُ الْكَرِيمُ لاَ إِلَهَ إِلاَّ اللهُ الْعَلِيُّ الْعَظِيمُ سُبْحَانَ اللهِ رَبِّ السَّمَاوَاتِ السَّبْعِ وَرَبِّ الْأَرَضِينَ السَّبْعِ وَمَا فِيهِنَّ وَمَابَيْنَهُنَّ وَرَبِّ الْعَرْشِ الْعَظِيمِ وَالْحَمْدُلِلهِ رَبِّ الْعَالَمِينَ

La ilahə illəllahul-həlimul-kərim. La ilahə illəllahul-əliyyul-əzim. Subhanəllahi Rəbbis-səmavatis-səbi və Rəbbil-ərəzinəs-səbi və ma fihinnə və ma bəynəhunnə və Rəbbil-.ərşil-əzim.Vəlhəmdu lilahi Rəbbil-aləmin

Dördüncü: Rükudan qalxıb düz durduqdan və bədəni aramlaşdıqdan sonra

سمع الله لمن حمده “Səmiəllahu limən həmidəh” desin.

Beşinci: Hər rəkətdən sonra qalxan halda

بِحَوْلِ اللهِ وَقُوَّتِهِ أَقُومُ وَأَقْعُد

.Bihəvlillahi və quvvətihi əqumu və əqud desin

Altıncı: Axırıncı təşəhhüddən sonra və vacib salamı deməzdən qabaq bu salamı demək

أَلسَّلَامُ عَلَيْکَ أَيُّهَا النَّبِىُّ وَرَحْمَهُ اللهِ وَ بَرَکَاتُهُ

Əssəlamu ələykə əyyuhən-nəbiyyu və rəhmətullahi və bərəkatuh

Yeddinci: Müstəhəbdir ki, insan namazdan sonra müəyyən qədər təqibatla məşğul olsun. Yəni zikr etsin, dua və Quran oxusun, ən azı üç dəfə subhanəllah desin. Daha çox tövsiyə olunan təqibatlardan biri, həzrəti Zəhranın (səlamullahi ələyha) zikridir: ٣۴ dəfə Əllahu Əkbər, ٣٣ dəfə əlhəmdu lillah, ٣٣ dəfə subhanəllah deyilsin.

səh: ٩٠

## NAMAZI BATİL EDƏN ŞEYLƏR

:(Məsələ: ۵۸. On iki şey namazı batil edir (və onlara mübtilat deyilir

Namaz əsnasında onun şərtlərindən hər hansı birinin pozulması; məsələn: namaz-۱ .qılan, namaz əsnasında durduğu məkanın qəsbi olduğunu başa düşə

.Dəstəmazı, qüslü batil edən şeylərin baş verməsi-۲

.Şiə olmayan bəzi şəxslər kimi əlləri bir-birinin üstünə qoymaq-۳

Həmdi oxuyandan sonra amin demək. Amma səhvən və ya təqiyyə üzündən desə,-۴ .namazı batil olmaz

Qəsdən qiblədən arxaya, sağa, yaxud sola çevrilmək. Hətta əgər qəsdən üzünü-۵ qiblədən çevirsə namazı batildir. Amma səhv üzündən olarsa bədənin hamısı qiblədən .arxaya, sağa, yaxud sola çevrilməsə namazı batil deyil

Qəsdən bir və ya ondan çox hərfli olan, özlüyündə məna daşımasa da, (zikr, dua və-۶ Quran ayəsindən başqa) bir söz demək. Amma səhvən desə, hətta bir neçə söz desə də namazı batil

səh: ۹۱

.olmaz, amma namazdan sonra səcdeyi-səhv etməlidir

Səslə gülmək. Əgər təbəssüm halından çıxarsa, səhv üzündən olarsa belə namaz-٧ .batildir

Dünya işləri üçün bilərəkdən uca səslə ağlamaq, hətta ixtiyarsız olsada namaz-٨ batildir. Ehtiyat-vacib budur ki, dünya işləri üçün astadan ağlasa namazı tamamlayıb yenidən qılsın. Amma Allah xövfündən, yaxud Qiyaməti yada salıb ağlasa istər alçaq .səslə olsun, istərsə də uca səslə, eybi yoxdur

Namazın surətini pozan işləri etmək; məsələn: rəqs, havaya tullanmaq və s. bu kimi-٩ .işlər, istər az olsun, istərsə də çox

Yemək və içmək namazı batil edənlərdəndir. Əgər namazda, "namaz qılır"-١٠ deyilməyəcək şəkildə yesə və ya içsə, istər bilərəkdən olsun, istərsə də unutqanlıq üzündən, namazı batildir. Amma oruc tutmaq istəyən bir şəxs, əgər sübh namazından əvvəl müstəhəb namaz qılan halda susuz olsa, belə ki, namazı qurtaracağı halda sübh olacağından qorxsa, əgər su onun qarşısında və iki üç addımlığında olsa namaz .arasında su içə bilər

.Amma, gərək namazı batl edən əməllərdən etməsin; məsələn: qiblədən üz çevirməsin

İki rəkətli və üç rəkətli namazlarda, həmçinin dörd rəkətli namazların ilk iki-۱۱ .rəkətində şəkk etmək

Namazın rüknünü qəsdən və ya səhvən artırıb-azaltmaq, yaxud rükn olmayan-۱۲ .şeyləri qəsdən artırıb-azaltmaq

.Məsələ: ۵۹.Vacib namazı bilərəkdən kəsmək zərurət olmayan halda haramdır

## NAMAZIN ŞƏKKİYYATI

Şəkk namazın ya şəraitində yəni onun müqəddimə işlərində və vacib əməllərində .yaxud rəkətlərinin sayındadır

## TƏHARƏTDƏ OLAN ŞƏKK

Məsələ: ۶۰. Əgər dəstəmaz, qüsl və ya təyəmmümdə şəkk etsə, bunları batil edən işlərdən birinin baş verdiyini yəqin etsə, gərək təharətini yerinə yetirsin. Amma dəstəmaz, qüsl və ya təyəmmümünün olduğunu (təharətinin olduğunu) yəqin bilsə batil olub olmamasında şəkk etsə təharətini yenidən yerinə yetirməsi lazım deyil. Əgər hər ikisinə yəqini olsa, amma hansının əvvəl baş verdiyini bilməsə gərək təharətini .yerinə yetirsin

## NAMAZIN ƏMƏLLƏRİ VƏ RƏKƏTLƏRİNDƏ OLAN ŞƏKK

Məsələ: ۶۱. Namazın əməlləri və rəkətlərində olan şəkklər ۲۵ qismdir ki, onlardan .altısına etina olunmamalıdır və niyyətini namazın səhih olmasına qoymalıdır

səh: ۹۴

Yerinə yetirilmə məhəlli keçmiş olan şeylərdəki şəkk-١

Əgər namazın əməllərinin birində şəkk etsə, əgər məhəlli keçməyibsə gərək qayıdıb həmin əməli və ondan sonrakı əməli yerinə yetirsin. Məhəlli keçmək bu deməkdir ki, sonrakı əmələ daxil olsun. Əgər sonrakı əmələ daxil olubsa əhəmiyyət verməsin. Məsələn: Həmd surəsin oxuyanda təkbirətul-ehramda şəkk edə yaxud surəni oxuyanda Həmdi oxuyub oxumamasında şəkk edə və ya rükuya gedəndən sonra surəni oxuyub-oxumamasında şəkk edə, həmçinin Həmd və ya surənin ayəsində, .digər ayəyə başladıqdan sonra şəkk edərsə əhəmiyyət verməsin

Vaxt keçəndən sonrakı şəkk-٢

Vaxt keçəndən sonrakı şəkk; məsələn: məğribdən sonra zöhr və əsr namazlarını qılıb-qılmamasında şəkk etsə yaxud sübh azanından sonra məğrib və işa namazlarını qılıb-qılmamasında şəkk etsə və ya günəş çıxandan sonra sübh namazını qılıb-.qılmamasında şəkk etsə şəkkinə əhəmiyyət verməsin

səh: ٩٥

Salamdan sonrakı şəkk-۳

Əgər salamlardan sonra namazın səhih olub-olmamasında şəkk etsə; məsələn: rüku edib-etməməsində şəkk etsə, yaxud dörd rəkətli namazın salamından sonra dörd rəkət, yaxud beş rəkət qılmasında şəkk etsə, öz şəkkinə etina etməməlidir. Amma şəkkinin hər iki tərəfi batil olsa; məsələn: dörd rəkətli namazın salamından sonra üç .rəkət, yaxud beş rəkət qılmasında şəkk etsə namazı batildir

(Kəsirüş-şəkk (çox şəkk edən-۴

Çox şəkk edən o şəxsə deyilir ki, insanların nəzərində çox şəkk etsin. Onun şəkki istər namazın əməllərində olsun istərsə də rəkətlərinin sayında gərək öz şəkkinə .əhəmiyyət verməsin və namazının düzgün olduğunu qəbul etsin

İmam və məmumun şəkki-۵

Əgər camaat namazının imamı, namazın rəkətlərinin sayında şəkk etsə; məsələn: üç və ya dörd rəkət qılmasında şəkk etsə, bu halda məmum dörd rəkət qıldığını yəqin, .yaxud güman edib imama başa salsa, imam namazı qurtarmalıdır

Ehtiyat namazı da qılmaq lazım deyil. Həmçinin, əgər imam neçə rəkət qıldığını yəqin, yaxud gümanla bilsə, məmum da rəkətlərin sayında şəkk etsə, öz şəkkinə etina .etməməlidir

Müstəhəb namazda şəkk etmək-۶

Əgər bir şəxs müstəhəb namazların rəkətlərinin sayında şəkk etsə, bu halda şəkkin çox tərəfi namazı batil edirsə, niyyəti az tərəfə qoymalıdır; məsələn: əgər sübh namazının nafiləsində, iki rəkətlə üç rəkət arasında şəkk etsə, niyyəti iki rəkət qıldığına qoymalıdır. Amma şəkkin çox tərəfi namazı batil etmirsə; məsələn: iki rəkətlə bir rəkət .arasında şəkk etsə şəkkin hər tərəfinə əməl etsə səhihdir

## NAMAZI BATİL EDƏN ŞƏKKLƏR

:Məsələ: ۶۲. Namazı batil edən şəkklər on hissəyə bölünür və aşağıdakılardan ibarətdir

İki rəkətli namazların rəkətlərinin sayındakı şəkk; sübh namazı və səfərdə olan-۱ ;şəxsin zöhr, əsr və işa namazları kimi

;Üç rəkətli namazın rəkətlərinin sayındakı şəkk; məsələn: məğrib namazı-۲

;Dörd rəkətli namazda bir rəkət və ya daha artıq qılınmasındakı şəkk-۳

Dörd rəkətli namazlarda ikinci səcdənin qurtarmasından qabaq iki rəkətdən daha-۴ ;artıq arasındakı şəkk

;İki və beş, yaxud, iki və beşdən artıq rəkət arasındakı şəkk-۵

;Rükudan sonra üç rəkətlə beş rəkət arasındakı şəkk-۶

;Üç rəkətlə altı rəkət və ya üç rəkətlə altı rəkətdən artıq arasındakı şəkk-۷

Rükudan sonra və iki səcdə tamam olmazdan qabaq dörd rəkətlə beş rəkət-۸ ;arasındakı şəkk

;Dörd rəkətlə altı və ya dörd rəkətlə altıdan artıq rəkətlərdəki şəkk-۹

;Neçə rəkət qıldığını bilmədiyi namazlardakı şəkk-۱۰

SƏHİH ŞƏKKLƏR

Məsələ: ۶۳. Səhih şəkklər doqquz hissəyə bölünür. Bu doqquz halda əgər namaz qılan şəxs, dörd rəkətli namazın rəkətlərinin sayında şəkk etsə, gərək tez fikirləşsin; əgər şəkkin bir tərəfinə yəqin və ya güman hasil olsa, həmin tərəfi əsas

tutub namazı qurtarmalıdır. Əks halda isə, deyiləcək göstərişlərə əməl etməlidir. Bu :doqquz hal aşağıdakılardan ibarətdir

İkinci səcdənin vacib zikri tamam olandan sonra, iki rəkətlə üç rəkət arasında şəkk-١ etsə; bu halda niyyəti üç rəkətə qoyub bir rəkət də qılaraq namazı tamamlamalı, .namazdan sonra bir rəkət ayaq üstə ehtiyat namazı qılmalıdır

İki rəkətlə dörd rəkət arasında, ikinci səcdənin vacib zikri tamam olandan sonra-٢ şəkk etsə; bu halda niyyəti dörd rəkətə qoyub namazı tamamlamalı, namazdan sonra .ayaq üstə iki rəkət ehtiyat namazı qılmalıdır

İkinci səcdənin vacib zikri tamam olandan sonra iki, üç və dörd rəkət arasında şəkk-٣ etsə; bu halda niyyəti dördə qoyub namazı tamamlamalı, sonra iki rəkət ayaq üstə və .iki rəkət oturan halda ehtiyat namazı qılmalıdır

İkinci səcdənin vacib zikri tamam olandan sonra dörd rəkətlə beş rəkət arasında-۴ şəkk etsə; bu halda niyyəti dördə qoyub namazı tamamlamalı, namazdan sonra iki səcdeyi-səhv etməlidir. Amma bu dörd şəkkdən biri, birinci səcdədən sonra və

.yaxud ikinci səcdənin vacib zikri tamam olmazdan qabaq baş versə, namaz batildir

Üç rəkətlə dörd rəkət arasında olan şəkk; bu şəkk, namazın hər yerində olsa, niyyəti-۵ dördə qoyub namazı qurtarmalı, sonra isə ehtiyata əsasən iki rəkət oturan halda .ehtiyat namazı qılmalıdır

Ayaq üstə olanda, dörd rəkətlə beş rəkət arasında olan şəkk; bu halda yerə oturub-۶ təşəhhüdü, salamı deyib, bir rəkət ayaq üstə, yaxud iki rəkət oturan halda ehtiyat .namazı qılmalıdır

Ayaq üstə olanda üç rəkətlə beş rəkət arasındakı şəkk; bu halda yerə oturub-۷ namazın təşəhhüd və salamını deyib, sonra namazı qurtarmalı; ayaq üstə iki rəkət .ehtiyat namazı qılmalıdır

Ayaq üstə olanda üç, dörd, beşinci rəkətlər arasındakı şəkk. Bu halda yerə oturub-۸ təşəhhüd və salamı deməli, iki rəkət ayaq üstə, sonra isə iki rəkət oturan halda ehtiyat .namazı qılmalıdır

Ayaq üstə olanda, beşinci rəkətlə altıncı rəkətdəki şəkk; bu halda yerə oturmalı,-۹ təşəhhüd və salamı deyib namazı qurtarmalı, sonra isə iki

səcdeyi-səhv yerinə yetirməlidir. Ehtiyat-vacibə əsasən, bu dörd halda yersiz .durduğuna görə, iki səcdeyi-səhv də etsin

Məsələ: ۶۴. Əgər qeyd olunan şəklərdən biri ilə namaz qılan rastlaşsa yəni istər batil edən şəkklərdən olsun, əgər qarşıya çıxarsa gərək namazı pozub yenidən başlasın, istər etina olunmayan şəkklər olsun, istərsə də səhih şəkklər (ki, gərək şəkkin hökmünə əməl etsin), dərhal əməl edə bilməz gərək fikirləşsin əgər bir şeyə yəqin və ya güman etsə gərək ona əsasən əməl etsin. Əgər şəkk halında qalarsa bu halda .şəkklərin göstərişlərinə əməl etsin

Məsələ: ۶۵. Ehtiyat namazı vacib olan bir şəxs, namazın salamından sonra dərhal ehtiyat namazı niyyəti edib təkbir deməli, Həmdi oxuyub rüku və səcdələri etməlidir. Əgər bir rəkət ehtiyat namazı vacibdirsə, iki səcdədən sonra təşəhhüdü oxumalı, salamı deməlidir. İki rəkət ehtiyat namazı vacibdirsə, iki səcdədən sonra bir rəkət də .(əvvəlki kimi) qılıb sonra təşəhhüdü və salamı deməlidir

Məsələ: ۶۶. Digər namazlarda şərt olan şeylər ehtiyat namazında da şərtdir. Digər namazlarla heç bir fərqi yoxdur. Digər şərtlərə əlavə olaraq

ehtiyat namazında, onun əsli namaza birləşməsi şərtdir. Onların arasında çox fasilə düşməməlidir yaxud namazı batil edən digər işlər edilməməlidir, məsələn: arxanı qibləyə çevirmək kimi işlər edilməməlidir. Ehtiyat namazı ilə əsl namazın arasında olan fasilə namazın əsnasının hökmündədir. Deməli, onların arasında namazı batil edən .işlərdən baş versə namazın əslini yenidən qılmalıdır

Məsələ: ۶۷. Əgər insanın qarşısına səhih olan şəkklərdən biri çıxsa, namazı pozub yenidən qılması icazəli deyil, gərək şəkkə aid olan öz vəzifəsinə əməl etsin. Əgər namazı pozsa günah etmişdir. Deməli, namazı batil edən işlərdən birini etməzdən qabaq (məsələn: qiblədən çevrilmək kimi) namazı yenidən başlasa ikinci namazı da .batildir. Amma namazı batil edən işlərdən edərsə ikinci namazı düzgündür

## NAMAZDA OLAN SƏHVLƏR

Məsələ: ۶۸. Səhv ya namazın müqəddimə işlərində və ya namazın əməllərində olur. Bu .özü də üç hissəyə bölünür

Namazi batil edən səhvlər; məsələn: namaz əsnasında və ya namazdan sonra-۱ dəstəmaz, qüsl və ya təyəmmüm almadığını bilsə, istər səhv üzündən olsun istərsə də .təharətli olduğunu güman etsə gərək namazını yenidən qılsın

Namazı batil etməyən səhvlər; məsələn namazın rükn olmayan hissələri səhvən-۲ .azaldılıb-artırılsa namaz batil olmaz. Amma onların bəzilərində səcdeyi-səhv lazımdır

Bəzi səhvlər vardır ki, onların bəziləri namazı batil edir, bəziləri isə batil etmir. Bu-۳ .səhvlər altı hissəyə bölünür

Səhv edərək nəcis paltar və ya bədənlə namaz qılsa; əgər bədən və ya paltarının .۱ nəcis olduğunu namazdan qabaq başa düşsə sonra unudsa və namaz arasında və ya namazdan sonra xatırlasa, namazı batildir gərək namazını yenidən qılsın. Əgər vaxt keçmişsə, qəzasını yerinə yetırsın. Əgər bədən və ya paltarınım nəcis olduğunu bilməsə və namazdan sonra nəcis olmasını başa düşsə, namazı səhihdir vaxt olsa belə yenidən qılmaq lazım deyil. Əgər bir şəxs namaza məşğul olub namaz əsnasında (bədən və ya paltarının nəcis olmasını başa düşsə, (bu halda

bədən və ya paltarı suya çəkmək, dəyişdirmək və ya bədəndən çıxarmaq namazın surətini pozmazsa, gərək namaz əsnasında bədən və ya paltarını suya çəksin və ya dəyişsin əgər bunları etmək mümkün deyilsə vaxt genişdirsə gərək namazı pozsun, pak bədən və ya paltarla namaz qılsın. Çünki vaxtın geniş olduğu halda namazı batildir. .Əgər vaxt azdırsa namazı səhihdir qəzasıda lazım deyil

Vaxtda səhv etmək; əgər vaxtın daxil olmasını yəqin edib namaza başlasa və.٢ namazdan sonra namazın müəyyən bir miqdarını namaz vaxtında qıldığını anlasa .namazı səhihdir. Əks təqdirdə namazı batildir

Qiblədə səhv etmək; namaz əsnasında və ya namazdan sonra arxası qibləyə və ya.٣ sağ tərəfi qibləyə yaxud sol tərəfi qibləyə olduğunu başa düşsə namaz batildir. Əgər qiblədən azca sağ və ya sol tərəfə çevrilibsə namazı səhihdir. Əgər namazın əsnasında .başa düşsə gərək üzünü qibləyə çevirsin

Məkanda səhv etmək; qəsb edilmiş olduğunu bilmədiyi bir yerdə namaz qılarsa və.۴ namazdan sonra o yerin qəsb edilmiş olduğunu bilərsə namazı səhihdir. Əgər namaz əsnasında

başa düşsə bu halda namazı pozmadan özünü mübah bir yerə çatdıra bilsə namazı səhihdir. Əks təqdirdə namazı batildir. Həmçinin namaz qılanın alın yeri, ayaq .barmaqlarının başından dörd bağlı barmaqdan çox alçaq, ya uca olmasın

Libasda səhv etmək; məsələn səhv üzündən əti haram olan heyvanın bədən.۵ üzvündən üstündə olarsa və namazdan sonra başa düşərsə namazı səhihdir. Əgər namaz əsnasında başa düşsə vaxt genişdirsə çıxartmaq və dəyişmək mümkündürsə gərək çıxardıb və ya dəyişsin. Əks təqdirdə batildir. Əgər vaxt az olarsa namaz .səhihdir. Kişilər üçün ipək və qızıldan toxunmuş paltarlar da bu hökmdədir

Namazın rükünlərində səhv etmək; səhv üzündən bir rüknü azaldıb və ya çoxaltsa,.۶ çoxaltması hər bir halda batildir. Amma azaltmada digər rüknə daxil olmamış başa düşsə, gərək qayıdıb o rüknü və ondan sonrakı əməlləri yerinə yetirsin. Əgər digər .rüknə daxil olubsa namaz batildir

Məsələ: ۶۹. Yeddi şey üçün, namazın salamından sonra iki səcdeyi-səhv yerinə :yetirilməlidir

Namaz əsnasında səhvən danışsa; əgər insan səhvən və ya namazın qurtardığını-۱ .xəyal edib danışsa, gərək iki səcdeyi-səhv yerinə yetirsin

Namazın salamını verməli olmadığı yerdə; məsələn: məğrib və ya dörd rəkətli-۲ namazların ikinci rəkətində təşəhhüddən sonra səhvən salam desə; namaz .pozulmayıbsa qalxıb namazını tamamlasın sonra iki səcdeyi-səhv yerinə yetirsin

Təşəhhüdü unutsa; əgər rükuda yaxud ondan sonra təşəhhüdü unutduğu yadına-۳ düşsə, namazın salamından sonra təşəhhüdü qəza edib sonra iki səcdeyi-səhv etməlidir. Əgər təşəhhüdü unutsa və sonrakı rəkətin rükusuna çatmamışdan qabaq yadına düşsə, qayıdıb yerinə yetirməlidir və namazdan sonra yersiz durduğu üçün iki .səcdeyi-səhv etməlidir

Bir səcdəni unutsa; əgər rükuda, yaxud ondan sonra əvvəlki rəkətdən bir səcdəni-۴ unutduğu yadına düşsə, namazın salamından sonra səcdəni qəza edib sonra iki .səcdeyi-səhv etməlidir. Əgər iki səcdəni unutsa rükn olduqlarına görə namaz batildir

səh: ۱۰۶

Dörd rəkətli namazın ikinci rəkətindən sonra dörd rəkətlə beş rəkət arasında şəkk-۵ etsə; ۶۳-ci məsələdə qeyd olunduğu kimidir.

Oturması gərəkli olduğu yerdə səhvən dursa-۶.

Durmalı yerdə səhvən otursa; məsələn: Həmd və surə oxumalı yerdə səhvən otursa.-۷ Bu yeddi yerdən başqa hallarda səhvən qeyd olunan əməllərdən başqa əməlləri azaldıb çoxaltmaq üçün daha üstün nəzərə əsasən səcdeyi-səhv vacib deyil. Amma ehtiyat budur ki, namazda hər əməlin səhvən azalıb çoxalması üçün iki səcdeyi-səhv yerinə yetirilsin.

### SƏCDEYİ-SƏHVİN QAYDASI

Məsələ: ۷۰. Səcdeyi-səhvin qaydası budur ki, namazın salamından sonra dərhal səcdeyi-səhv niyyəti edib(۱) alını səcdənin səhih olduğu şeylərin üstünə qoyub desin:

بِسْمِ اللهِ وَبِاللهِ أَلسَّلاَمُ عَلَيْكَ أَيُّهَا النَّبِيُّ وَرَحْمَهُ اللهِ وَبَرَكَاتُهُ

"Bismillahi və billahi, əssəlamu ələykə əyyuhən-Nəbiyyu və rəhmətullahi və bərəkatuh"-yaxud;



---

۱- Səcdeyi-səhvdə təkbir yoxdur.

بِسْمِ اللهِ وَبِاللهِ وَصَلَّى اللهُ عَلَى مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ

;Bismillahi və billahi və səlləllahu əla Muhəmmədin və Alihi”- yaxud“

بِسْمِ اللهِ وَبِاللهِ أَللَّهُمَّ صَلِّى اللهُ عَلَى مُحَمَّدٍ وَآلِ مُحَمَّدٍ

Bismillahi və billahi, Əllahummə səlli əla Muhəmmədin və Ali-Muhəmməd”-desin:“ sonra səcdədən qalxıb otursun, yenidən səcdəyə gedib zikri deyib otursun və təşəhhüdü oxuyandan sonra salamı desin. “Əssəlamu ələyna və əla ibadillahis-salihin” .və ya “Əssəlamu ələykum və rəhmətullahi və bərəkatuh” desin

Məsələ: ٧١. Namazın bəzi əməllərinin səcdeyi-səhvdən əlavə qəzası da vacibdir. Məsələn: təşəhhüd və bir səcdə unudubsa, namazdan sonra əvvəl qəzaya getmiş əməli yerinə yetirir sonra səcdeyi-səhvi yerinə yetirir. Hətta bir neçə səcdeyi-səhv vacib olsa və bu qəzaya getmiş əməldən qabaq olsa da gərək əvvəl qəzaya getmiş .əməl yerinə yetirilsin sonra səcdeyi-səhvləri yerinə yetirsin

Məsələ: ٧٢. Əgər ehtiyat namazı və səcdeyi- səhv hər ikisi vacib olarsa ehtiyat namazını əvvəl qılsın. Həmçinin unudulmuş əməllərdə də

.unudulmuş əməli birinci yerinə yetirib sonra səcdeyi-səhvi yerinə yetirsin

Məsələ: ۷۳. Səcdeyi-səhvin dərhal yerinə yetirilməsi vacibdir. Gərək namazdan sonra fasiləsiz yerinə yetirilsin. Əgər unudarsa hər vaxt yerinə yetirsə səhihdir. Həmçinin unudulmuş bir səcdə və təşəhhüd də bu hökmdədir. Amma ehtiyat-müstəhəb budur ki, unudulmuş səcdəni və təşəhhüdü yerinə yetirdikdən sonra namazı yenidən qılsın. Amma ehtiyat namazını unudarsa və qıldığı namazla ehtiyat namazının arasında .namazı batil edən işlərdən edərsə gərək namazını ikinci dəfə yenidən qılsın

Məsələ: ۷۴. İnsanın unutduğu və namazdan sonra qəzasını yerinə yetirdiyi təşəhhüd və səcdədə, namazda olan bütün şərtlər (bədən və paltarın pak olması, üzü qibləyə .olmaq və s.) olmalıdır

Məsələ:٧٥. Gündəlik namazını, namazın bütün vaxtı ərzində hətta yuxuda olmaq və ya sərxoşluq səbəbindən olsa belə, vaxtında qıla bilməyən şəxs, qəzaya getdiyi şəkildə və tərtiblə qəza etməlidir. Əgər qəzaya gedən namazların tərtibini bilirsə tərtibə riayət .etməlidir, əgər namazların tərtibini bilməzsə tərtib üzrə qılması lazım deyil

Məsələ: ٧۶. Əgər ata namazını qılmamış olsa, (bilərəkdən və itaət etməməzlik üzündən olmadığı təqdirdə) böyük oğula vacibdir ki, onun vəfatından sonra onların qəzasını .etsin, yaxud da həmin namazları qılmaq üçün əcir tutsun

:Məsələ: ٧٧. Ayət namazı, dörd şey vasitəsilə vacib olur

;Günəşin tutulması-١

;(Ayın tutulması (hətta onlar azacıq tutulsa və bir şəxs də qorxmasa-٢

;(Zəlzələ (hətta bir şəxs qorxmasa da-٣

Göy gurultusu, şimşək və yaxud qara-qırmızı küləklər və s. kimi asimani-۴ .əlamətlərdə, camaatın əksəriyyəti qorxarsa, namaz vacib olur

Məsələ: ٧٨. Ayət namazı iki rəkətdir və hər rəkətində beş rüku vardır. Onun qılınma :qaydası belədir

Niyyətdən sonra təkbir deyib bir Həmd və bir surəni tam oxumalı, rükuya getməli, rükudan qalxıb yenə də bir Həmd və bir surə oxumalı, sonra rükuya getməlidir. Beləliklə bu işi beş dəfə təkrar etməlidir. Beşinci rükudan qalxdıqdan sonra iki səcdə etməli, ayağa qalxıb ikinci rəkəti də, eynilə birinci rəkət kimi yerinə yetirməli, təşəhhüd .və salamı deyib namazı qurtarmalıdır

Məsələ: ٧٩. Ayət namazını başqa cür də qılmaq olar; niyyət, təkbirətül-ehram və Həmddən sonra bir surəni beş yerə bölsün, bir və ya birdən artıq ayəsini oxuyub rükuya getsin, sonra qalxıb Həmdi oxumadan o surənin ikinci hissəsini oxusun, sonra rükuya getsin. Bu qayda ilə beşinci rükudan əvvəl surəni qurtarmalıdır; məsələn: “Qul huvəllah” surəsi niyyəti ilə (birinci rəkətin Həmd surəsindən sonra) “Bismillahir-rəhmanir-rəhim” deyib rükuya getsin, sonra qalxıb “Qul huvəllahu əhəd” deyib yenidən rükuya getsin. Sonra qalxıb

Əllahus-səməd” deyib rükuya getsin, sonra qalxıb “Ləm yəlid və ləm yuləd” deyib“ rükuya getsin, sonra qalxıb “Və ləm yəkun ləhu kufuvən əhəd” deyib beşinci rükuya getsin. Rükudan qalxıb iki səcdə etsin. İkinci rəkəti də birinci rəkət kimi yerinə yetirsin. İkinci səcdədən sonra təşəhhüd və salamı deyib namazı qurtarsın. Daha yaxşı olar .birinci göstərişə əməl edilsin

Məsələ: ٨٠. Ayət namazı müqəddimə, vacibat, şəkk və səhvlərdə gündəlik namazlar kimidir. Amma onun rükularında şəkk etsə əgər məhəlli keçməyibsə niyyətini aza .qoysun namazı səhihdir

Məsələ: ٨١. Ayət namazına başlama zamanı günəşin və ayın tutulmağa başladığı andan başlayıb, onların təbii hala dönmə zamanlarına qədər davam edir. Amma daha yaxşı olar onların açılmağa başladıqları zaman əda və qəza niyyəti etməsin. Zəlzələ, göy gurultusu, şimşək çaxması kimi hadisələrdə insan gərək dərhal ayət namazını qılsın, əgər qılmasa günah etməsinə baxmayarq ömrünün axırına qədər qılması .vacibdir. Amma hər vaxt qılsa əda niyyəti ilə qılmalıdır

Məsələ: ٨٢. Ayat namazını vaxtında qılmayana ayət namazının qəzası vacibdir. Əgər ay və ya

günəşin tutulduğunu bilməsə və onun açılmasından sonra, günəş və ya ayın bütünlüklə tutulmuş olduğunu bilərsə, yaxud onun tutulmuş olduğunu anlayıb bilərkdən namazı qılmazsa, ayət namazının qəzasını qılması lazımdır. Amma ayın və ya günəşin açılmasından sonra, onun hamısı deyil, bir miqdarının tutulduğunu bilsə, .qəzasını qılmaq vacib deyil

## MÜSTƏHƏB NAMAZLAR

Məsələ: ٨٣. Müstəhəb namazlar çoxdur, onlara nafilə deyilir. Müstəhəb namazlar arasında, gecə-gündüz nafilə namazlarının qılınmasına daha çox tövsiyə olunubdur. Onlar, cümə günü istisna olmaqla, ٣۴ rəkətdən ibarətdir ki, səkkizi zöhrün, səkkizi əsrin, dördü məğribin, ikisi işanın, on biri gecə namazının, (gecənin on bir rəkət nafilə namazının səkkiz rəkəti, gecənin nafilə namazı niyyətilə, iki rəkəti “şəf” namazı, bir .rəkəti də vətr namazı niyyəti ilə qılınmalıdır), ikisi sübh namazının nafiləsidir

Məsələ: ۸۴. Zöhr namazının nafiləsi onun özündən əvvəl qılınır. Onun vaxtı, zöhrün əvvəlindən başlayıb, (əgər şaxisi(۱) yerə batırarıqsa) əmələ gələn kölgənin şaxisin uzunluğunun yeddidə ikisini keçənədəkdir; məsələn: əgər şaxisin uzunluğu yeddi qarış olsa, günortadan sonra görünən kölgənin uzunluğu iki qarışa çatdığı zaman, zöhr .namazı nafiləsinin axır vaxtıdır

Əsr namazının nafiləsi əsrdən əvvəl qılınır. Onun vaxtı isə şaxisin zöhrdən sonra əmələ .gələn kölgəsinin şaxisin uzunluğunun yeddidə dördünə çatdığı vaxtadəkdir

Məğrib namazının nafiləsinin vaxtı məğrib namazı tamam olandan sonra başlayaraq, məğribdən sonra günəş qürub etdiyi zaman günbatan tərəfdə əmələ gələn qızartının .aradan getdiyi vaxta qədər davam edir

İşa namazının nafiləsinin vaxtı, işa namazı başa çatdıqdan sonra başlayaraq, işa namazının axır



---

۱- Günorta vaxtını təyin etmək üçün yerə sancılmış ağac və s.

vaxtına qədərdir. İşa namazının nafiləsi, oturan yerdə qılınmalı olduğuna görə, bir .rəkət hesab olunur

.Gecə nafiləsinin vaxtı gecə yarısından başlayaraq sübh azanına qədərdir

Sübh namazının nafiləsi sübh namazından qabaq qılınır və onun vaxtı birinci fəcrdən sonra başlayaraq məşriq tərəfdə qızartı yarananadəkdir. Sübhün nafiləsi şəf və vətr .nafilələrindən sonradır

Məsələ: ٨٥. Nafilə namazlarının hər iki rəkət gərək bir salamla qılınsın (vətr namazı istisnadır). Surə, qiblə, qiyam və hərəkətsizlikdən başqa bütün əməllər vacib namazlarda vacib olduğu kimi bunlarda da vacibdir. Deməli, nafilə namazlarını surəni .oxumadan, hərəkət halında qiblədən çevrilməyə baxmayaraq qılmaq olar

səh: ١١٥

Müqəddəs İslam şəriətində orucun çox böyük savabları olduğu deyilmişdir. Allah təbarək və təala belə buyurur: “Oruc mənim üçündür və mən özüm onun savabını verəcəyəm”. Xüsusilə də ramazan ayının orucu. Məhz ramazan ayının orucluğunda, aləmlərin Rəbbinin əmrini yerinə yetirmək üçün insan, sübh azanından məğrib .azanınadək, sonradan şərh olunacaq orucu pozan şeylərdən çəkinməlidir

Məsələ: ٨۶. Oruc, aləmlərin Rəbbinin əmrini yerinə yetirmək üçün, sübh azanından .məğrib azanınadək, orucu pozan şeylərdən çəkinməyə deyilir

Məsələ: ٨٧. Oruc iki hissədən ibarətdir: vacib və müstəhəb oruclar. Müstəhəb oruclar .çoxdur, amma vacib oruclar səkkiz qismdir

.Ramazan ayının orucu-١

.Ramazan ayının qəzaya getmiş orucu-٢

.Kəffarə orucu. Onların bəziləri bu kitabçada qeyd olunacaq-٣

Təməttö həccində qurbanlığın əvəzinə tutulan oruc. Həcc kitabında bu haqda geniş-۴ .məlumat verilmişdir

.Əhd, nəzr və andiçmə vasitəsi ilə vacib olan oruc-۵

.Digərinin (ölünün) qəzaya getmiş orucunun isticarə vasitəsilə vacib olması-۶

Etikaf orucunun üçüncü gününün orucu. Etikaf kitabında bu haqda geniş məlumat-۷ .verilmişdir

.Atanın qəzaya getmiş orucu böyük oğluna vacibdir-۸

.Məsələ: ۸۸. Vacib orucun yeddi şərti vardır

;Niyyət-۱

;Qürbət qəsdi ilə-۲

Şəri səfərə müsafir olmamaq. Deməli, müsafirin orucu düzgün deyil. Amma həccdə-۳ .qurbanlığın əvəzinə oruc tutmaq istisnadır

Zaman münasib olsun. Yəni Fitr və Qurban bayramları günündə oruc tutmaq haram-۴ olduğu üçün bu günlər olmasın. Həmçinin ramazan ayında ramazan ayından qeyri bir orucun niyyətini etsə, səhih deyil. Həmçinin ardıcıl tutulmalı oruclarda gərək Fitr, .Qurban bayramları və ramazan ayının orucu ilə üzləşməsin

Qadın gün boyu heyz və nifas qanından pak olsun. Deməli, günün bir hissəssini heyz-۵ .və ya nifas olsa orucu batildir

.Gündüzü bütöv şəkildə dərk etməyəcək şəkildə huşsuz olmasın-۶

Xəstəlik və şiddətli dərəcədə çətinliyə düşəcəyi qorxusu olmasın. Əks təqdirdə orucu-۷ .düzgün deyil

## ORUCU BATİL EDƏN ŞEYLƏR

:Məsələ: ۸۹. On şey orucu batil edir

Yemək-۱

.İçmək-۲

(Cima.(۱-۳

Əgər oruc tutan şəxs Allah, Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) və o-۴ həzrətin canişinlərinin (əleyhimus-səlam) adından danışmaq, yazmaq, işarə etmək və s. kimi vasitələrlə yalan desə, hətta əgər dərhal “yalan deyirəm” desə və ya tövbə etsə də, ehtiyata əsasən orucu batildir. Həmçinin həzrət Zəhraya (əleyha səlam), digər .Peyğəmbərlərə və onların canişinlərinə yalan nisbət vermək bu hökümdədir



---

.Cinsi əlaqədə olmaq -۱

.Sübh azanına qədər bilərəkdən cənabət, heyz, nifas və istihazə halında qalmaq-۵

.Başın hər yerini suya batırmaq-۶

.Qəliz tozu boğaza çatdırmaq-۷

.Qusmaq-۸

.İstimna-۹

.Axıcı (maye) şeylərlə imalə etmək. Amma quru şeylərlə imalə etmək məkruhdur-۱۰

Məsələ: ۹۰. Qeyd etdiyimiz batil edicilər hamısı bilərəkdən olarsa batil edir. Əgər səhv .üzündən olarsa heç biri batil etmir

Məsələ: ۹۱. Orucu batil edən şeylərin bəziləri təkcə qəzanın yerinə yetirəlməsinə səbəb olur və kəffarə lazım deyil. Məsələn başı bütöv şəkildə suya batırmaq, irtimasi qüsl etmək və qusmaq kimi. Əlbətdə qusmaqda bir şey boğaza qayıtmazsa yaxud ixtiyarsız qayıdarsa (təkcə qəzanı yerinə yetirməlidir kəffarə lazım deyil). Əgər bilərəkdən qaytararsa qəzadan əlavə kəffarə də verməlidir. Həmçinin vaxtın əvvəlində iftar edərsə və ya vaxtın axırında gecə olduğunu yəqin edib iftar edərsə sonra gündüz iftar etdiyini bilsə təkkcə qəzasını yerinə yetirməlidir. Amma gündüz

.olduğunu yəqin edib iftar edərsə qəzadan əlavə kəffarə də vacibdir

Məsələ: ۹۲. Hər batil edici ki, zatən haram olsa ehtiyata əsasən qəzadan əlavə cəm kəffarəsi də vacibdir. Məsələn istimna etsə, zina etsə (Allaha pənah aparırıq) və ya araq içsə. Həmçinin ehtiyata əsasən heyz və nifas halında cinsi əlaqədə olunarsa .qəzadan əlavə cəm kəffarəsi də vacibdir

Məsələ: ۹۳. İftar vasitəsilə kəffarənin vacib olması ramazan ayının orurucuna və müəyyən olunmuş nəzr orucuna aiddir, istər günortadan qabaq iftar etsin istərsə də günortadan sonra. Həmçinin ramazan ayının qəza orucunda əgər günortadan sonra iftar edərsə və ya vaxt az olarsa yəni sonrakı ramazana qədər oruc tutmaq üçün vaxt olmazsa kəffarə vacib olur. Əgər günortadan qabaq iftar edərsə və ya vaxt geniş olarsa kəffarə lazım deyil. Qeyd olunan üç haldan digər hallarda hətta günortadan .sonra da iftar etsə kəffarə vacib deyil

.Məsələ: ۹۴. Orucun vaxtı sübh azanından məğrib azanına qədərdir

Məsələ: ۹۵. Sübh azanına yaxın vaxtda günçıxan tərəfdən bir ağartı üzü yuxarı tərəfə

hərəkət edir ki, buna birinci fəcr deyilir. Bu ağartının yayıldığından sonrakı vaxta ikinci fəcr deylir ki, bu da sübh namazının əvvəl vaxtıdır. Məğrib o vaxtıdır ki, gün batandan sonra məşriq tərəfdən zahir olan qızartı, insanın başının üstündən (məğribə tərəf) .keçmiş olsun, yəni kənarlaşıb məğribdə görünməyə başlasın

### AYIN ƏVVƏLİNİN SÜBUT OLMASI YOLLARI

:Məsələ: ۹۶. Ayın əvvəli beş yolla sübut olunur

.İnsanın özü ayı görsün-۱

Sözlərindən yəqinlik hasil olan bir neçə nəfər, "ayı gördük" desələr, həmçinin,-۲ .yəqinlik hasil olan hər şey vastəsi ilə

İki adil kişi, "gecə ayı görmüşük" deyə xəbər versələr, amma ayın xüsusiyyətlərini-۳ bir-birinin əksinə deməsinlər. Əgər ayın xüsusiyyətlərini bir-birinin əksinə desələr, ayın .əvvəli olduğu subut olmur

Şəban ayının əvvəlindən ۳۰ gün keçmiş olsa; bunun vasitəsi ilə ramazan ayının əvvəli-۴ olması sübuta yetir. Yaxud, ramazan ayının əvvəlindən

.gün keçsə, bu halda şəvval ayının olması sübut olunur ۳۰

.Şəriət hakimi ayın əvvəli olmasına dair hökm versə-۵

Məsələ: ۹۷. Ramazan ayının orucunu qəzaya verən şəxs istər üzrlü olsun istərsə də üzürsüz, məsələn xəstəlik, müsafirət, heyz və nifas kimi gərək ramazan ayının qəza orucunu tutsun. Həmçinin bir şəxs oruc niyyətini etmədən bütün günü yatarsa gərək .qəzasını tutsun

Məsələ: ۹۸. Ramazan ayının orucunun kəffarəsi vacib olan bir şəxs, bir qul azad etməli və ya sonrakı məsələdə deyilən göstərişə uyğun olaraq iki ay oruc tutmalı, yaxud da ۶۰ fəqiri doyuzdurmalı, yaxud onların hər birinə bir müdd (təqribən ۷۵۰ qram) təam yəni buğda, arpa və bu kimi şeylər verməlidir. Əgər bir şəxs üçün bunlar mümkün olmasa, ehtiyat-vacibə əsasən gərək on səkkiz gün ardıcıl oruc tutsun və ya mümkün olan (müdd) miqdarda, fəqirə təam versin. Əgər on səkkiz gün oruc tuta bilməsə və yaxud bir neçə müd təam verə bilməsə, gərək istiğfar etsin. Hətta bir dəfə “əstəğfirullah” .deməklə də olsa, istiğfar etməlidir. Hər vaxt imkanı olsa, kəffarəni versin

Məsələ: ٩٩. Ramazan ayının iki ay kəffarəsini tutmaq istəyən şəxs, gərək bir ayı bütün və sonrakı ayın bir gününü ardıcıl tutsun. Əgər onun davamı ardıcıl olmasa, eybi .yoxdur

## FİTRƏ ZƏKATI

Şəriətdə fitrə zəkatına çoxlu əhəmiyyət verilmişdir. Həzrət imam Sadiq (əleyhis-səlam) buyurub: "Fitrə zəkatı, insanı ölümdən qoruyur və oruc tutub fitrə zəkatı .”veməyən şəxs, oruc tutmayan şəxs kimidir

Məsələ: ١٠٠. Fitr bayramı gecəsinin qürubunda baliğ və aqil şəxs, fəqir və bir şəxsin qulu olmasa, özü və onun çörək yeyənləri sayılan hər nəfər üçün buğda, arpa, xurma, kişmiş, düyü, qarğıdalı və s. kimi şeylərdən bir sa(١) müstəhəqqə verməlidir. Əgər .bunlardan hər hansının pulunu versə, kifayətdir

Məsələ: ١٠١. Əgər bir şəxs özünün və ailəsinin illik qazancını təmin edə bilməsə və .təmin etmək üçün də bir şəxsi olmazsa fəqirdir və fitrə zəkatı vermək ona vacib deyil



---

.Təqribən ٣ kq -١

Məsələ: ١٠٢. Hər şəxs, Fitr bayramı gecəsində qürub vaxtı, gərək onun çörək yeyənləri hesab olunanların fitrəsini versin; istər böyük olsunlar, istərsə də kiçik; istər müsəlman olsunlar istərsə də kafir; istər onların xərcləri o şəxsə vacib olsun, istərsə .də olmasın; istər öz şəhərində olsun, istərsə də başqa şəhərdə

Məsələ: ١٠٣. Fitrə zəkatının cinsi, insanın adətən yediyi şeylərdən olmalıdır. Məsələn buğda, arpa, xurma, kişmiş, düyü, və s. kimi şeylərdən. Əgər bunlardan hər hansının .pulunu versə, kifayətdir

Məsələ: ١٠٤. Fitrə almağa müstəhəqq olan şəxs, o şəxsə deyilir ki, fitrə onun özünə vacib olmasın.(١) Amma seyyid, qeyri-seyyiddən zəkat ala bilməz. Əgər seyyid .müstəhəqq olarsa seyyiddən zəkat ala bilər



---

١ - Özünün və ailəsinin illik xərclərinə sahib olmayan şəxsə deyilir və digir bir şəxs də .yoxdur ki, onun xərclərini versin

Müqədəs İslam dinində xüms verməyə çoxlu tövsiyələr olunub. Həzrəti imam Baqir (ələyhis-səlam) buyurub: “Bizim haqqimizi ödəmədən, xümsdən istifadə etmək, heç bir şəxsə halal deyil, Allah-taala onun üzrün qəbul etmir.” Həzrəti imam Məhdi (ələyhis-səlam) buyurub: “Bizim haqqimizi yeyən, cəhənnəm atəşin yeyən şəxs kimidir və onun ”.yeri cəhənnəmdir

.Məsələ: ۱۰۵. Xüms sonradan qeyd olunan yeddi şeyin, beşdə birini verməyə deyilir

:Məsələ: ۱۰۶. Yeddi şeydə xüms vacibdir

Müharibə qənimətləri. Əgər müsəlmanlar, kafirlərlə müharibə etsələr, o-۱ .müharibədən ələ gələn şeylərə “qənimət” deyilir

.Mədən-۲

.Xəzinə-۳

.Suda üzmək, yəni, dənizə dalmaq vasitəsilə əldə edilən cəvahirat-۴

.Zimmi kafirin müsəlmandan aldığı torpaq-۵

.Harama qarışmış halal mal-۶

.Qazanc mənfəəti-۷

İlk beş qism xüsusi insanlara aid olduğu və ümumi insanlara aid olmadıqlarına görəonların hökmləri və şəraitləri haqqda söz açmırıq və son iki hissə ümumi insanlara .aid olduqlarına görə onları qeyd edirik

Məsələ: ۱۰۷. Halal malın haram mala, qarışmasında malın sahibinin və miqdarının məlum olmaması, şərtdir. Əgər malın sahibi və miqdarı məlum olarsa gərək haram .maldan məlum olan miqdar sahibinə qaytarılsın

Məsələ: ۱۰۸. Qeyd olunan şərt daxilində halal mal haram mala qarışsa xümsunu verəndən sonra ondan istifadə edə bilər. Xümsu verilməyənə qədər o maldan istifadə .edə bilməz

Məsələ: ۱۰۹. Əgər insan ticarətdən, sənətkarlıqdan, yaxud sair qazanc yerlərindən müəyyən qədər qazanc əldə etsə; bu qazanc, özünün və ailəsinin illik xərclərindən artıq olsa, gərək xümsünü, yəni beşdən birini, versin. İllik xərclər hər bir şəxsin öz .şəxsiyyətinə uyğundur

Məsələ: ۱۱۰. İl dedikdə qəməri tarixi ilə şəmsi tarixi arasında heç bir xərq yoxdur. (Yəni .(hər biri ilə istəsə hesab edə bilər

Məsələ: ١١١. Əgər bir neçə gəlir yeri olsa məsələn: əkinçilik, ticarət və dülgərlik etsə onların hamısı üçün bir xüms ili təyin edə bilər. Onlar üçün ayrı-ayrı xüms ili təyin .etmək lazım deyil

Məsələ: ١١٢. Heyvanlar vasitəsi ilə gəlir əldə edənlər, məsələn atı və ya ulağı kirayə verirsə yaxud inəyin və qoyunun südünü satsa yaxud ümumiyyətlə onlardan əldə olunan gəlirlər, meyvə verməyən ağacların artıb və böyüməsindən və meyvə verən ağacların məhsulundan mənfəət əldə edirsə özünün və ailəsinin illik xərcindən artıq qalan hissənin xümsunu verməlidir. Həmçinin ev, mülk və ümumiyyətlə gəliri olan .şeylər əgər özünün və ailəsinin illik xərcindən artıq qalsa gərək xümsunu versin

## XÜMSÜN SƏRF OLUNMA YERLƏRİ

Məsələ: ١١٣. Xüms iki yerə bölünür: Bir qismi seyyidlərindir. Gərək fəqir, seyyidlərə verilsin. Seyyid dedikdə ata vasitəsi ilə həzrət Peyğəmbərin (səlləllahu ələyhi və alihi və səlləm) babası Haşimə çatanlar nəzərdə tutulur. Baxmayaraq ki, həzrət Peyğəmbərin (s) nəslindən olmasın. Fəqir haqda

fitrə zəkatında məlumat verdik. Digər yarısı isə İmamın (əleyhis-səlam) payıdır ki, bu zəmanəmizdə cameüş-şərait müctəhidə verilməlidir. Seyyidlərin haqqını insan özü .fəqir seyyidlərə verə bilər

Məsələ: ۱۱۴. Xümsdə də digər ibadətlər kimi, niyyət və qürbət qəsdi olmalıdır. Deməli niyyət etmədən və ya qürbət qəsdindən digər niyyətə versə düzgün deyil və xüms .onun üzərindən götürülmür

Məsələ: ۱۱۵. Ehtiyat-vacib budur ki, bir seyyid fəqirə, bir illik xərclərindən artıq .miqdarda xüms verilməsin

Məsələ: ۱۱۶. Xüms verənin vacibi-nəfəqəsi olan şəxslərə məsələn ata, ana, övlad və həyat yoldaşı kimi, hətta fəqir seyyid olsalar belə xüms vermək icazəli deyil. Amma .xüms verən şəxsə vacib olmayan xərclər, təhsil haqqı və bu kimi şeylər istisnadır

Məsələ: ۱۱۷. İmamın (əleyhis-səlam) payını müçtəhidin icazəsi ilə seyyidlərə və İslam dinini təbliğ edən hər bir şəxsə vermək olar. Məsələn

İmamın (ələyhis-səlam) payını müçtəhidin icazəsi ilə dini təhsil alan və müqəddəs .şəriəti təbliğ edən şəxslərə fəqir olduqları şəraitdə vermək olar

səh: ١٢٩

Allah-taala varlıların mallarında fəqirlər üçün bir müəyyən haqq təyin edib. Əgər onu versələr, dünyada fəqir tapılmaz; ona da zəkat deyilir. Həzrət imam Baqir (əleyhis-salam) buyurur: "Namaz qılıb zəkat verməyən şəxs, namaz qılmayan şəxs kimidir."

Başqa bir hədisdə buyurur: " həzrət Peyğəmbər (səlləllahu əleyhi və alihi və səlləm) məsciddə idi. Neçə nəfərə dedi: Qalxın, müsalmanların məscidindən çıxın və orada namaz qılmayın. Ona görə ki, siz zəkat vermirsiniz." Şəriətdə də zəkata çoxlu tövsiyələr olunub.

Məsələ: ١١٨. Doqquz şeyə zəkat vacibdir:

١-Buğda.

٢-Arpa.

٣-Xurma.

۴-Kişmiş.

۵-Qızıl.

۶-Gümüş.

٧-Dəvə.

٨-İnək.

٩-Qoyun.

Əgər bir şəxs, bu doqquz şeydən hər hansına sahib olsa, gərək müəyyən şərtlər .daxilində, bir miqdarını müəyyən olunan yerlərə sərf etsin

Məsələ: ۱۱۹. Qızıl və gümüşün zəkatı o vaxt vacibdir ki, nisab həddinə çatsın, bir il .onların üzərindən keçsin və müamilə üçün düzəldilmiş şikkə olsun

Məsələ: ۱۲۰. Dəvə, inək və qoyunun zəkatında heyvanların bütün il boyu işsiz olmaları .və bütün il boyu çölün otlarından yeməlәri şərtdir

Məsələ: ۱۲۱. Buğda, arpa, xurma və kişmişin zəkatı, nisab həddinə çatdığı zaman vacib olur. Bunların nisabı, təqribən ۸۶۳ kilo ۷۱۹ qramdır. Buğda və arpaya dənə bağlayanda sahib olmalıdır. Deməli əgər qeyd olunan miqdardan az olsa və ya dənə bağlayandan .sonra malik olsa zəkat vacib deyil

Məsələ: ۱۲۲. Arpa və buğda, əkildiyi vaxtdan onların ələ gələn vaxtına qədər xəclərin hamısını çıxdıqdan sonnra nisab həddinə çatsalar bu halda onların zəkatını vermək vacibdir. Məsələn toxum üçün xərclədiyini, yerin kirayəsini, maliyyatını, işçi haqqını ümumiyyətlə onları əldə etmək üçün xərclədiklərinin hamısını çıxdıqdan sonra nisab

həddinə çatsa zəkatını verməlidir. Zəkat veriləndə gərək buna diqqət olunsun ki, buğda, arpa və digər əkinlərdə müştərək xərcləyibsə məsən gözətçi və işçilərin haqqı kimi buğda və arpanın hər birinə nəqədər aid olursa o qədər zəkat çıxarsın onların .hamısı üçün bir yerdə zəkat çıxara bilməz

Məsələ: ۱۲۳. Əgər xərclədiklərinin qiymətini vermək istəsə, qiymətin az və ya çox olmasına baxmayaraq dənə bağlayan vaxt nəzərdə tutulur, zəkat verilən vaxt .nəzərdə tutulmur

## BUĞDA, ARPA, XURMA Və KİŞMİŞİN ZƏKATI

Məsələ: ۱۲۴. Əgər buğda, arpa, xurma və üzüm çay, yaxud yağış suyundan suvarılsa və ya yerin rütubətindən (suvarılmağa ehtiyacı olmadan) məhsul verərsə, zəkatı, məhsulun onda biri qədərdir. Əgər vedrə, su motoru və s. kimi vasitələrlə, (hal-hazırda mövcud olan dərin, yaxud nisbətən dərin quyulardan) suvarılarsa, zəkatı məhsulun .iyirmidə biri qədərdir

## ZƏKATIN SƏRF OLUNMA YERLƏRİ

:Məsələ: ١٢٥. İnsan zəkatı ٨ yerə sərf edə bilər

Fəqirə. (Fəqir özünün və ailəsinin illik xərclərini təmin edə bilməyən kəsdir. Sənət və-١ ya mülk yaxud da sərmayəsi olan şəxs, sərmayənin mənfəətlərindən öz illik xərclərini .(təmin edə bilirsə, fəqir deyil

.(Miskinə. (Miskin, vəziyyəti fəqirdən də ağır olan kəsdir-٢

İmamın (ələyhis-səlam), yaxud onun naibinin tərəfindən zəkatı yığıb saxlamağa-٣ onun mühasibəçisinə, onu İmama (ələyhis-səlam), yaxud onun naibinə və ya fəqirlərə .çatdırmağa vəzifəli olan şəxsə

Zəkat verilərsə İslam dininə yönələn, yaxud müharibədə müsəlmanlara kömək edən-۴ .kafirlərə

.Qulların alınıb azad olunmasına-۵

Öz borcunu verə bilməyən borclulara. (Bu şərtlə ki, o borcu günah işdə sərf etməmiş-۶ (.olsun

Allah yolunda. Yəni məscid, dini elmlərin tədris olunması üçün mədrəsə tikmək,-٧ körpü salmaq, asfalt çəkmək, xəstəxana tikmək və bunlar kimi işlərdə istifadə etmək .olar

.İbnüs-səbil”-ə. Yəni, səfərdə (müəyyən səbəbə görə) çarəsiz yolda qalan şəxsə“-۸

## ZƏKATIN SƏRF OLMA MİQDARI

Məsələ: ۱۲۶. Fəqirə ehtiyacsız olana qədər, borclunun borcunu ödəyn miqdarda “İbnüs-səbil”-ə yəni, səfərdə (müəyyən səbəbə görə) çarəsiz yolda qalan şəxsə onu vətəninə çatdıracaq məbləğdə zəka vermək olar. Xeyriyyə işlərində müəyyən bir .miqdar yoxdur. Yəni hər nəqədər olsa xeyriyyə işlərində istifadə etmək olar

Məsələ: ۱۲۷. Zəkatın vacib olmasında ehtiyacsız və ya borclu olmamaq şərt deyil. Əgər lazım olan şərtlər daxilində nisab həddinə malik olsa zəkatı verməsi vacibdir. Deməli mümkündür zəkat verən özü zəkat almağa da müstəhəq olsun. Buna əsasən həqiqətən vermək niyyəti ilə digər zəkat verən ilə əvəz edə bilərlər. Amma xüms və .fitrə zəkatında onların verəni alanı ola bilməz

Ayətullahul-üzma hacı şeyx Yədullah Duzduzani Təbrizi

cənablarının həyatına

qısa baxış

səh: ۱۳۵

## TƏVƏLLÜDÜ

Həzrət Ayətullahul-üzma Duzduzani Təbrizi miladi tarixi ilə ۱۹۳۵-ci ildə Təbriz şəhərində dindar bir ailədə dünyaya göz açmışdır. Atası hacı Əbdul Həmid Təbriz şəhərinin dindar və xeyirxah tacirlərindən olub. Onun babaları illər öncə Təbriz şəhərinin ۷۰ km yaxınlığında yerləşən Duzduzan kəndindən köç etmiş və Təbriz .şəhərində yerləşmişdirlər

## İBTİDAİ TƏHSİLİ

Ayətullahul-üzma Duzduzani Təbrizi miladi tarixi ilə ۱۹۴۱-ci ildə Ərəb və Fars dillərinin ədəbiyyatını özündə əhatə edən məktəbə qəbul olub, hövzə dərslərinin müqəddiməsini bitirdikdən sonra ۱۹۵۳-cü ildə Təbrizdən müqəddəs Qum şəhərinə hicrət edib. Ayətullahul-üzma Duzduzani Təbrizi dərslərini davam etmək ücün böyük ustadlardan bəhrələnmişdir. O ustadlardan nümunə olaraq mərhum Ayətullah .Məhəmməd Mücahid Təbrizini (Allah ona rəhmət etsin) qeyd etmək olar

səh: ۱۳۶

Ayətullahul-üzma Duzduzani Təbrizi miladi tarixi ilə ۱۹۵۸-ci ildə Müqəddəs Məkkə şəhərinə həcc ziyarətinə gedib və həcc əməllərini yerinə yetirdikdən sonra Qum .şəhərinə qayıdaraq dərslərini böyük ustadların xidmətində oxumuşdur

Ayətullahul-üzma Duzduzani Təbrizi dərslərini mərhum Ayətullahul-üzma Brucerdi (Allah ona rəhmət etsin) ilə oxumağa başladı. Ayətullahul-üzma Brucerdinin (Allah ona rəhmət etsin) vəfatindan sonra Usul dərslərini İslam İnqilabının böyük Rəhbəri mərhum Ayətullahul-üzma Xumeyninin (Allah ona rəhmət etsin) dərslərində iştirak .etdi, bu dərslər Səlmasi məscidində təşkil olunurdu

Ayətullahul-üzma Duzduzani Təbrizi iyirmi beş il Ayətullahul-üzma Şəriətmədarinin (Allah ona rəhmət etsin), xaric Usul və Fiqh dərslərində iştirak etmişdir, və o fəqihin ən .fəal və qabaqcıl tələbələrindən idi

O həzrət həmçinin Ayətullahul-üzma seyyid Gülpayqaninin dərslərində də iştirak edirdi və nəticədə böyük şəxsiyyətlər tərəfindən məsələn; Ayətullahul-üzma Şəriətmədari (Allah ona rəhmət

etsin), Ayətullahul-üzma seyyid Gülpayqani (Allah ona rəhmət etsin) və Ayətullahul-üzma seyyid Xoi (Allah ona rəhmət etsin) tətəfindən elmin ən yüksək mərhələsi olan .fəqihlik dərəcəsinə laiq görüldü

## FƏLSƏFƏ DƏRSİ

Ayətullahul-üzma Duzduzani Təbrizi fəlsəfə dərslərini mərhum Əllamə seyyid Məhəmməd Hüseyn Təbatəbai (Allah ona rəhmət etsin) ilə oxumuşdur. Elə o dövrdə .də bir dövrə kamil şəkildə "Mənzumei Səbzivari" kitabını hövzədə tədris etmişdir

## QURANA ƏLAQƏSİ

Ayətullahul-üzma Duzduzani Təbrizi tələbəlik illərinin əvvəlində Qurani-kərimi oxuma və tədris etmək əlaqəsi ilə secilirdi. Quranın təfsir dərslərini isə miladi tarixi ilə ۱۹۶۳-cü ildən başlamış və hal-hazırda tədris etməkdədir. Həzrətin əvvəlki dərsləri Quran surələrinin tərtibi və nazil olma səbəbləri ilə bağlı idi, amma hal-hazırda tədris etdiyi təfsir dərsləri "Təfsire mövzui" Qurani-kərimin mövzular əsasında təfsiridir. Bu cür

.zəhmətlərin nəticəsidir ki, onun bir neçə cild kitabı oxucuların ixtiyarına verlmişdir

## DİNİ TƏBLİĞLƏRİ

Müqəddəs kitabımız Qurani-kərim fəqihlərin və dini alimlərin vəzifələrindən birini də insanları Allahın əzabından qorxudub və Allah-taalanın dinini onlara çatdırmağı bildirir.

فَلَوْلاَ نَفَرَ مِن كُلِّ فِرْقَةٍ مِّنْهُمْ طَآئِفَةٌ لِّيَتَفَقَّهُواْ فِى الدِّينِ وَلِيُنذِرُواْ قَوْمَهُمْ إِذَا رَجَعُواْ إِلَيْهِمْ لَعَلَّهُمْ يَحْذَرُونَ

Barı, hər tayfadan bir dəstə (elm öyrənmək, sonra da onu dindaşlarına öyrətmək üçün) qalsın ki, camaatı qayıtdığı zaman onları (Allahın əzabı ilə) qorxutsun. Bəlkə, onlar (əldə etdikləri biliklər sayəsində yaramaz işlərdən, nalayiq hərəkətlərdən) çəkinsinlər!(۱)

Bu ayə bütün alimlərin vəzifəsini təyin edib. Bu vəzifə də insanların öhdələrində onan təkliflərini onlara öyrətməkdir.



---

۱- Tövbə surəsi, ayə۱۲۲.

Ayətullahul-üzma Duzduzani Təbrizi cənabları öz vəzifəsinə əməl etmək üçün tələbəliyinin ilk dövrlərindən dini təbliğ etməyə başlamışdır. Uzun illər ramazan, məhərrəm və səfər aylarında öz gözəl söhbətləri ilə Əhli-beyt (əleyhimus-səlam) aşiqlərini feyzə çatdırırdı. Hətta mərcəiyyət məqamına çatandan sonra da bu .vəzifəsinə əml edir

Qeyd etdiyimiz aylardan başqa vaxtlarda mərcəiyyət məqamına çatmazdan qabaq neçə il ardıcıl isti və soyuq havalarda, tədris və təbliğ etmək üçün müxtəlif .məntəqələrə gedərdi

## İCTİMAİ VƏ DİNİ XİDMƏTLƏRİ

Ayətullahul-üzma Duzduzani Təbrizinin tədrisi və dini qanunlarının təbliği Qum, Tehran, Kərəc və Təbriz şəhərlərində olmuşdur, bundan əlavə çox faydalı dini və .ictimai xidmətləri də olmuşdur onlardan bir neçəsini aşağıda qeyd edirik

Tehran şəhəri Ceyhun praspektində yerləşən Cavadul-Əimmə (ə) adına məscidi-۱ .tikdirmişdir

-Təbriz şəhərində ۴۵۰ illik tarixi olan ۶۳ sütunlu məscidi tam təmir etdirmişdir və hal-۲

hazırda bu məscid Təbriz şəhərində möminlərin ibadət üçün toplaşdığı məscidlərindən .biridir

Ruhanilərin təbliğ məqsədi ilə müxtəlif məntəqələrə göndərilməsi: Ayətullahul-üzma-۳ Duzduzani Təbrizi miladi tarixi ilə ۱۹۷۱-۱۹۷۸-ci illər arasında mübəlliğləri ۵۰۰-dən çox kənd və şəhərə təbliğ və tədris məqsədi ilə göndərmişdir. Mübəlliğlərə göstəriş verib ki, insanları bidət və əqidə çaşqınlığından agah etsinlər, dini hökmləri onlara tədris etsinlər, eyni zamanda mübəlliğlərlə şərt etmiş ki, şəhər və kənd əhalisindən təbliğ haqqı almasınlar. Onların bütün təbliğ haqqlarını öz öhdəsinə götürmüşdür. Bu cür təbliğlər layiqli nəticəyə səbəb olmuşdur və bu kimi təbliğ proqramları başqa .şəhərlərdə də məsələn; Xürrəmabad, Həştrud və Reydə icra olunmuşdur

Yolunu azmışlarla mübarizə: Diqqətinizə çatdıraq ki, insanları haqq əqidə və-۴ düşüncədən azdırmaq məqsədi ilə yayılmış qruplar məsələn: vəhabilik, sufilik, bəhaiyyət və bu kimi qruplarla mübarizə məqsədi ilə miladi tarixi ilə ۱۹۹۷-ci ildən eytibarən Ayətullahul-üzma Duzduzani Təbrizi, Höccətul-islam Davud İlhami, Höccətul-islam hacı şeyx Məhəmməd Mərdaninin

rəhbərliyi ilə təşkil olunmuş “İslamda Qadağa Edilmiş Əqidələrlə Mübarizə” adı altında təşkilat öz fəaliyyətinə başladı. Bu təşkilatın gördüyü fəaliyyətlərdən biri bu cür əqidələrin batinini ifşa edən kitabçaları və bu kimi proşuraları nəşr edib cəmiyyət arasında paylanılması olmuşdur. Bu kimi təbliğlərlə ölkənin daxilində və xaricində insanlara təmənnasız olaraq xidmət göstərilmişdir. O kitablardan bir neçəsinin adlarını :sizin diqqətinizə çatdırırıq

.Sufilik pak olan İmamların (ələyhimus-səlam) nəzərində.١

.Şiələrin arasında sufiliyin yaranması.٢

.Nemətullah və Gunabadi firqələri.٣

.Zəhəbiyyə, Uveysiyyə və Xaksariyyə firqələri.۴

.Əliyullah (Əli allahilər) fırqəsinə kiçik bir baxış.۵

.Vəhabilik əqidəsinin iki istiqaməti.۶

Bəhaiyyət sufilikdən yaranmışdır. Həmçinin təşkilat bu istiqamətdə ehtiyac olan.٧ .kitabları alıb insanların istifadəsinə vermişdir

Dini mərasimlərin təşkil olunması: O həzrət təbliğ məğsədi ilə dini mərasimlər-۵ keçirdərdi və

bu məclisin iştirakçıları çavan və yaşli nəsildən ibarat idi. Bu kimi mərasimlər yeni üsulla təşkil olunaraq iki hissəyə bölünərdi, birinci hissə yeniyetmələrlə və ikinci hissə .isə yaşli nəsillə keçirilirdi, bu cür mərasimlərdən bir neçəsini sizin nəzərinizə çatdiririq

Miladi tarixi ilə ۱۹۷۴-çi ildə Təbriz şəhərində “Həzrəti Əli (ə) məktəbi” adi altinda təşkil.۱ olunmuş həftəlik mərasim, bu kimi mərasimlərdən biri idi. Amma bu mərasimlərin xüsusiyyəti bundan ibarət idi ki, mərasimlər böyük zallarda keçirilmiş və iştirakçilar .əsasən universitet müəllimləri, tələbələri və ziyalı təbəqədən təşkil olunurdu

Dini təlim-tərbiyə və maarifləndirmə məqsədi ilə Təbriz şəhrinin məscidlərində.۲ səkkiz və on iki yaşli uşaqlar və yeni yetmələrdən ibarət olan həftəlik məclislər təşkil olunurdu. Bu məclislər ruhanilər, tacirlər və ziyalı təbəqəsinin təşəbbüsü nəticəsində min nəfərə yaxın yeniyetmələrin Quran dərsi, dini hökümlər, əqidə məsələləri və dini .surudların öyrənilməsinə şərait yaradıldı

## USTADLARI

Ayətullahul-üzma Duzduzani Təbrizi cənabları öz dövrün görkəmli və tanınmış fəqihlərinin dərslərində iştirak edirdi. Burada onlardan bəzilərinin adlarını qeyd edirik.

۱-Ayətullahul-üzma Burucerdi (Allah ona rəhmət etsin).

۲-Ayətullahul-üzma imam Xumeyni (Allah ona rəhmət etsin).

۳- Ayətullahul-üzma Şəriətmədari (Allah ona rəhmət etsin).

۴-Əllamə seyyid Hüseyn Təbatəbai (Allah ona rəhmət etsin).

۵- Ayətullahul-üzma seyyid Xoi (Allah ona rəhmət etsin).

۶- Ayətullahul-üzma seyyid Qolpayqani (Allah ona rəhmət etsin).

Həmçinin Ayətullahul-üzma hacı şeyx Duzduzani Təbrizi cənabları Nəcəfu-əşrəf şəhərində Ətəbati-aliatın ziyarətindən əlavə Nəcəfi-əşrəf şəhərində olan görkəmli alimlərin dərsində də iştirak etmişdir.

səh: ۱۴۴

## TƏDRİSİ

Ayətullahul-üzma Duzduzani Təbrizi Qum şəhərində təhsili ilə bərabər tədris etmişdir. O həzrət ١٩٨٠-ci ildən etibarən Qum şəhərində Fiqh və Usul elimlərinin xaric dərslərini .tədris etmişdir

## (MƏRCƏİYYƏTİ (Elmi məqamı

Ayətullahul-üzma Duzduzani Təbrizi cənabları Qum elmi hövzəsində elm, təqva və fəqihliydə məşhur şəxsiyyətlərdən biridir. Mərcəi-təqlid müçtəhidlərdən bəziləri dünyalarını dəyişəndən sonra (Allah onlara rəhmət etsin) mömin və dindar şəxslər xüsusi ilə də Təbriz camaatı ondan "İzahlı şəriət hökmləri" adlı kitab istəyirlər. O, öz şəri fətvalarını müsəlmanların ixtiyarında qoydu. Hal-hazırda İran və xarici ölkələrdə .onun çoxlu müqəllidləri vardır

## ƏSƏRLƏRİ

Ayətullahul-üzma Duzduzani Təbrizi dinin müxtəlif sahələrində əsərlər yazmışdır və .bu əsərlərdən bəzisini sizin nəzərnizə çatdırırıq

.(Quranın nazil olması barədə dərslər (Duruse həvlə nuzule əl-Quran-١

Quranda ölüm və həyat, bərzəx və qiyamətin barəsində nazil olmuş ayələrin şərhi-۲
.((Durus həvlə əl- Movt, vəl-həyat, əl-Bərzəx və Əşratus-saə

.(İmam Zamanla (ə.c) görüşməkliyin həqiqəti (Təhqiqul-lətif həvlə əl-tovqiiş-şərif-۳

.(Qiyamət gününə aid olan ayələrin şərhi (Duruse həvləl-məad-۴

.(Musafir namazına aid olan xaric dərsləri (Təqriratu Fiqh, Səlate musafir-۵

.(Qisas hökmünə aid olan xaric dərsləri (Kitabu Qisas-۶

.Ərəb dilində risalə (Əl-təliqə əla əl-Urvətul-Vusqa-۷

.(Fars dilində risalə (Tozihul-Məsail -۸

.İrşadul-mominin-۹

.Həcc əməllərinin izahı-۱۰

.(Ərəb dilində risalə (minhacus-salehin-۱۱

.(Ay görünməsinə aid olan hökümlərin elmi izahı (Risaleye Hilaliyye-۱۲

(Xaric usul dərsləri (Usul əl-Figh -۱۳

.Camaat namazının hökmlərinin xaric dərsləri-۱۴

.Zəkat hökmlərinin xaric dərsləri-۱۵

.Xüms hökmlərinin xaric dərsləri-۱۶

.Oruc hökmlərinin xaric dərsləri-۱۷

.Quran ayələrinin şərhi-۱۸

.(Tozihul-məsailin xülasəsi (Xulasətul-əhkam-۱۹

Ayətullahul-üzma Duzduzani Təbrizi bunlarla yanaşı İslam dinini tam şəkildə əhatə .edən muxtəlif əsərlər də yazmışdır

Ayətullahul-üzma Yədullah Duzduzani Təbrizi cənablarının Qum şəhərində dəftərxanası fəaliyyət göstərir. Əimmeye-əthariın (ələyhimus-səlam) təvəllüdü və vəfatı günləri şiyə məzhəbinin təbliğinin genişlənməsi və həzrət Peyğəmbərin (səlləllahu ələyhi və alihi və səlləm) və Əhli-beytinin (ələyhumus-səlam) tanınmaları .üçün məclislər keçirilir. Bu məclislərdə görkəmli alimlər moizə edirlər

.Sonda Allah-taaladan bu böyük fəqih və alim üçün uzun ömr və can sağlığı diləyirik

Aminə rəbbəl-aləmin

**MÜNDƏRİCAT**

İSLAM DİNİNİN VƏ ŞİƏ MƏZHƏBİNİN ƏSASLARI. ۵

BİRİNCİ ƏSAS: ALLAH TƏKDİR.. ۶

Birinci dəlil:. ۶

İkinci dəlil:. ۸

ALLAH-TAALANIN SİFƏTLƏRİ. ۱۱

SUBUTİYYƏ SİFƏTLƏRİ. ۱۱

SƏLBİYYƏ SİFƏTLƏRİ. ۱۳

İKİNCİ ƏSAS: PEYĞƏMBƏRLİK.. ۱۵

ÜÇÜNCİ ƏSAS: MƏAD.. ۲۰

DÖRDÜNCÜ ƏSAS: ALLAH ADİLDİR.. ۲۴

BEŞİNCİ ƏSAS: İMAMƏT. ۲۶

BİRİNCİ İMAM... ۲۸

İKİNCİ İMAM... ۲۹

ÜÇÜNCÜ İMAM... ۲۹

DÖRDÜNCÜ İMAM... ۳۰

BEŞİNCİ İMAM... ۳۱

ALTINCI İMAM... ۳۲

YEDDİNCİ İMAM... ۳۳

SƏKKİZİNCİ İMAM... ۳۳

DOQQUZUNCU İMAM... ۳۴

ONUNCU İMAM... ۳۵

ON BİRİNCİ İMAM... ۳۵

ON İKİNCİ İMAM... ۳۶

FURUİDDİN.. ۴۱

TƏQLİDİN HÖKMLƏRİ. ۴۲

NAMAZ VƏ ONUN RƏKƏTLƏRİNİN SAYI. ۴۳

NAMAZIN MÜQƏDDİMƏSİ. ۴۴

DƏSTƏMAZ VƏ QÜSLÜN ŞƏRTLƏRİ. ۴۸

DƏSTƏMAZ VƏ QÜSLÜ BATİL EDƏN ŞEYLƏR.. ۵۱

TƏYƏMMÜM... ۵۴

Birinci yer. ۵۴

İkinci yer. ۵۵

Üçüncü yer. ۵۶

Dördüncü yer. ۵۶

Beşinci yer. ۵۶

Altıncı yer. ۵۶

Yeddinci yer. ۵۷

Səkkizinci yer. ۵۷

TƏYƏMMÜMÜN QAYDASI. ۵۸

TƏYƏMMÜMÜN SƏHİH OLDUĞU ŞEYLƏR.. ۵۹

GÜNDƏLİK VACİB NAMAZLARIN VAXTI. ۶۰

MƏĞRİB VƏ İŞA NAMAZLARININ VAXTI. ۶۰

SÜBH NAMAZININ VAXTI. ۶۱

QİBLƏ.. ۶۱

NƏCASƏTLƏR.. ۶۳

Sidik və Ğait ۶۳-۱-۲

Məni ۶۴-۳

Murdar. ۶۴-۴

Qan. ۶۴-۵

İt və Donuz. ۶۴-۶-۷

Şərab. ۶۴-۸

Pivə. ۶۵-۹

Nəcasət yeyən dəvənin təri ۶۵-۱۱

PAKLAYICILAR.. ۶۶

Su. ۶۶ .۱

Kürr suyu. ۶۶

Az su. ۶۶

Torpaq. ۶۷ .۲

Günəş. ۶۷ .۳

İstihalə. ۶۷ .۴

İnqilab. ۶۸ .۵

İntiqal ۶۸ .۶

İslam.. ۶۹ .۷

Təbəiyyət ۶۹ .۸

Eyni nəcasətin aradan getməsi ۷۰ .۹

Müsəlmanın qayib olması ۷۰ .۱۰

Ğaitin məxrəcinin daş və parça ilə təmizlənməsi ۷۱ .۱۱

İstibra. ۷۱ .۱۲

Ğüsalənin ayrılması ۷۱.۱۳

Başı (şəriət qaydaları əsasında) kəsilən heyvandan bir miqdar qan axması ۷۱ .۱۴

Nəcis yeyən heyvanın istibrası ۷۲ .۱۵

NƏCİS OLMUŞ ŞEYLƏRİ PAK ETMƏYİN YOLLARI. ۷۲

NƏCASƏTİN SÜBUT OLUNMASI YOLLARI. ۷۶

AZAN VƏ İQAMƏ.. ۷۸

NAMAZIN VACİBATI. ۸۰

NAMAZIN RÜKNLƏRİ. ۸۰

TƏKBİRƏTÜL-EHRAM... ۸۱

NAMAZDA MÜSTƏHƏB OLAN ƏMƏLLƏR.. ۸۸

NAMAZI BATİL EDƏN ŞEYLƏR.. ۹۱

NAMAZIN ŞƏKKİYYATI. ۹۴

TƏHARƏTDƏ OLAN ŞƏKK.. ۹۴

NAMAZIN ƏMƏLLƏRİ VƏ RƏKƏTLƏRİNDƏ OLAN ŞƏKK.. ۹۴

ETİNA OLUNMAYAN ŞƏKKLƏR.. ۹۵

Yerinə yetirilmə məhəlli keçmiş olan şeylərdəki şəkk. ۹۵-۱

Vaxt keçəndən sonrakı şəkk. ۹۵-۲

Salamdan sonrakı şəkk. ۹۶-۳

Kəsirüş-şəkk (çox şəkk edən). ۹۶-۴

İmam və məmumun şəkki ۹۶-۵

Müstəhəb namazda şəkk etmək. ۹۷-۶

NAMAZI BATİL EDƏN ŞƏKKLƏR.. ۹۷

SƏHİH ŞƏKKLƏR.. ۹۸

NAMAZDA OLAN SƏHVLƏR.. ۱۰۲

SƏCDEYİ-SƏHVİN QAYDASI. ۱۰۷

DİGƏR NAMAZLARIN HÖKMLƏRİ VƏ KEYFİYYƏTİ. ۱۱۰

AYƏT NAMAZININ QILINMA QAYDASI. ۱۱۱

MÜSTƏHƏB NAMAZLAR.. ۱۱۳

GÜNDƏLİK NAFİLƏ NAMAZLARININ VAXTLARI. ۱۱۴

ORUCUN HÖKMLƏRİ. ۱۱۶

Niyyət; ۱۱۷-۱

ORUCU BATİL EDƏN ŞEYLƏR.. ۱۱۸

AYIN ƏVVƏLİNİN SÜBUT OLMASI YOLLARI. ۱۲۱

FİTRƏ ZƏKATI. ۱۲۳

XÜMSÜN HÖKMLƏRİ. ۱۲۵

XÜMSÜN SƏRF OLUNMA YERLƏRİ. ۱۲۷

ZƏKATIN HÖKMLƏRİ. ۱۳۰

BUĞDA, ARPA, XURMA VƏ KİŞMİŞİN ZƏKATI ۱۳۲

ZƏKATIN SƏRF OLUNMA YERLƏRİ. ۱۳۳

ZƏKATIN SƏRF OLMA MİQDARI. ۱۳۴

TƏVƏLLÜDÜ.. ۱۳۶

İBTİDAİ TƏHSİLİ. ۱۳۶

ALİ TƏHSİLİ. ۱۳۷

FƏLSƏFƏ DƏRSİ. ۱۳۸

QURANA ƏLAQƏSİ. ۱۳۸

DİNİ TƏBLİĞLƏRİ. ۱۳۹

İCTİMAİ VƏ DİNİ XİDMƏTLƏRİ. ۱۴۰

USTADLARI. ۱۴۴

TƏDRİSİ. ۱۴۵

MƏRCƏİYYƏTİ (Elmi məqamı). ۱۴۵

ƏSƏRLƏRİ. ۱۴۵

MÜNDƏRİCAT.. ۱۴۸

## Haqqında mərkəzi

Allahın adı ilə

Rəhman və Rəhimli olan Allahın adı ilə.Və bütün həmdlər aləmlərin rəbbi olan Allaha .məxsusdur

.Varlıq aləminin Kövsəri olan Həzrəti Fatiməyi Zəhraya (a) təqdim olunur

(Bilən kimsələrlə (alimlər) bilməyənlər (cahillər) eynidirlərmi? (Zümər sürəsi, ayə ۹

:Ön söz

İsfahan Qaimiyyə kompüter araşdırmalar müəssisəsi ۲۰۰۶-cı ildən Mərhum Ayətullah Seyyid Həsən Fəqih İmaminin nəzarəti altında,elmi mərkəzlərdə tanınan görkəmli tələbələrin vasitəsi ilə məzhəb,mədəniyyət və elmi sahələrdə öz fəaliyyətinə .başlamışdır

:Məramnamə

İsfahan Qaimiyyə kompüter araşdırmalar müəssisəsi təhqiqatçıların dini biliklərə rahət və tez bir zamanda yiyələnmələri üçün hər bir xidməti onların ixtiyarında qərar vermişdir.Və bu sahədə təəssübkeşlikdən,ictimai,siyasi,fərdi cəryanlardan uzaq duraraq yalnız və yalnız elmi sahədə ixlasla öz xidmətini həyata keçirməkdədir.Bu səbəbdən adı çəkilən müəssisə layihəsini həyata keçirmiş.Və tədqiqat üçün nəzərdə tutulmuş kitabları,məqalələri mütəxəssislər və müxtəlif təbəqələrdən olan insanlar üçün,bir neçə dillərdə və formalarda hazırlayaraq,heç bir məbləğ tələb etmədən sosial .medyada istifadəçilərin ixtiyarında qoymuşdur

:Hədəflər

Quran və Əhli beyt mədəniyyətini və maarifini yaymaq.۱

İnsanları,xüsusən gəncləri tam dəqiq şəkildə dini məsələləri araşdırmağa.۲ sövqləndirmək

Telefon,tablet və kompüterlərdə olan faydasız,yararsız mövzuların yerini .۳ faydalı,mənəviyyatlı mövzularla doldurmaq

.Təhqiqatla məşğul olan tələbələrə xidmət etmək.۴

.Kitab və elmi əsərlər oxumaq mədəniyyətini yaymaq.۵

.Müəlliflərin öz elmi əsərlərini digital formada yaymaq üçün onlara şərait yaratmaq.۶

:İcraçılıq

.Qanunla icazəli olan lisenziyaya malik əsərlərin yayımı.۱

.Bu mərkəz kimi xidmət göstərən oxşar mərkəzlərlə əlaqə.۲

.(Paralel xidmətlərdən çəkinmək (başqalarının etdiklərini təkrarlamamaq.۳

.Yalnız və yalnız elmi məsələləri yaymaq.۴

.Nəşriyyatın mənbələrini qeyd etmək.۵

.Qeyd:Kitabda olanlara görə məsüliyyət o kitabı yazan müəllifin öhdəsindədir

:Müəssisənin fəaliyyəti

.Kitabların çapı və nəşri.۱

.Kitab oxumaq müsabiqələrinin təşkili.۲

.Məcazi sərgilərin istehsalı.۳

.Kompüter oyunlarının istehsalı.۴

Qaimiyyə internet saytının yaradılması:www.ghaemiyeh.com.۵

.Sərgi məhsullarının və moizələrin istehsalı.۶

.Şər'i,əxlaqi və etiqadi suallara cavab.۷

.Mühasibat,mətbuat yaratmaq və sms... sistemlərinin layihəsi.۸

.Təlim kurslarının həyata keçirilməsi.۹

Tərbiyəçi şəxslər hazırlamaq üçün təlim kurslarının təşkili.۱۰

Kompüterdə,tabletdə və telefonlarda icrası mümkün olan minlərlə proqramların.۱۱ dünyada məşhur olan səkkiz formada istehsalı

JAVA.۱

ANDROID.۲

EPUB.۳

CHM.۴

PDF.۵

HTML.۶

CHM.۷

GHB.۸

.v.Qaimiyyə kitab bazarı adına dörd market

ANDROID.۱

IOS.۲

WINDOWS PHONE.۳

WINDOWS.۴

deyilənlər müəssisənin veb saytında Fars,Ərəb,İngilis və Azərbaycan dillərində pulsuz

.istifadəyə verilmişdir

:Sonunda

Mərcəi təqlid müctəhidlərin dəftərxanalarından (ofis),müəssisələrdən,nəşriyyatçılardan,müəlliflərdən və əməyi olan bütün şəxsiyyətlərdən bizlərə hədəfə çatmaqdan ötrü yardım etdikləri üçün səmimi qəlbdən .təşəkkür edirik


:Mərkəzin ünvanı

İsfahan-Əbdurrəzzaq küçəsi-Hacı Muhəmməd Cəfər adına bazar-Şəhid Muhəmməd Həsən Təvəkküli küçəsi-blok۱۲۹/۳۴-birinci mərtəbə

veb sayt:www.ghbook.ir

mail:Info@ghbook.ir

mərkəzin ofis telefonu: ۰۰۹۸۳۱۳۴۴۹۰۱۲۵

Tehran ofisi: ۰۰۹۸۲۱۸۸۳۱۸۷۲۲

Biznes və alqı satqı: ۰۰۹۸۹۱۳۲۰۰۰۱۰۹

Mərkəzdə çalışan insanlarla əlaqə yaratmaq üçün nəzərdə tutulan nömrə: ۰۰۹۸۹۱۳۲۰۰۰۱۰۹


İsfəhan Qaimiyyə kompüter
araşdırmalar mərkəzi
Qaimiyyə
WWW
Başqa kitabxanaya sahiblənmək üçün
gördüyünüz sayt mərkəzinə müraciət
etməniz lazımdı:
www.Ghaemiyeh.com
www.Ghaemiyeh.net
www.Ghaemiyeh.org
www.Ghaemiyeh.ir
Və sifariş üçün bizimlə əlaqə saxlayın:
(0098)0913 2000 109